# BİZNES HƏYATI

MAY, 2019
N°23






2 Prezident İlham Əliyev ötən bir illik fəaliyyətində hansı islahatları apardı






Yeni iqtisadi şəraitə uyğun islahatlar həyata keçirilir 10





MİKAYIL CABBAROV:
Vergi islahatları çox vacib prosesdir 14





Məmməd Musayev:
Sahibkarlar əsas aparıcı qüvvədir 20









Kənd təsərrüfatı: PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI 36











**Redaksiya şurası:**
Məmməd Musayev
Ziyad Səmədzadə
Xanhüseyn Kazımlı
Şirzad Abdullayev
Bəxtiyar Ağayev
Vüqar Zeynalov
Taleh Qasımov
Vüqar Abbasov
Aliyə Əzimova
Jalə Hacıyeva
Abbas Əliyev
Əbülfət Məhərrəmov



**Baş redaktor**
İlhamə Abdullayeva

**Art dizayner**
Niyazi Quliyev

Xəbər bloklarının hazırlanmasında www.ask.org.az saytının materiallarından istifadə edilmişdir.
Müəllif mövqeyi redaksiyanın mövqeyilə üst-üstə düşməyə bilər. Reklam materiallarının məzmununa görə redaksiya məsuliyyət daşımır.
Jurnal Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) tərəfindən təsis edilmişdir.



Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1010
Nizami küç. 90 A, Landmark III, II mərtəbə
Tel: (+99412) 465 76 92/93
E-mail: office@ask.org.az
iabdullayeva@ask.org.az
www.ask.org.az






# TARİXƏ BAXIŞ

## Prezident İlham Əliyev ötən bir illik fəaliyyətində hansı islahatları apardı

**"Mən dəfələrlə demişəm ki, iqtisadi müstəqillik siyasi müstəqilliyin əsasıdır"**, bu sözlər Azərbaycan prezidenti İlham Əliyevə məxsusdur və ötən bir ildə onun Azərbaycan iqtisadiyyatında apardığı islahatlar yeni iqtisadi inkişaf modelinə keçidi təmin etdi.

Məlumdur ki, 2019-cu il aprelin 11-də İlham Əliyevin seçkilərdə qələbəsindən bir il ötür. Bu yazıda ötən bir ildə ölkə iqtisadiyyatının gündəmini tutan əsas məsələlərə toxunacağıq.

Prezident İlham Əliyevin iqtisadiyyatla bağlı verdiyi ilk sərəncam ölkədə idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı oldu. 2018-ci il aprelin 20-də imzalanmış fərmana görə, maliyyə nəzarəti sahəsində uçotun şəffaflaşdırılması, büdcə yığımlarının artırılması, qeyri-neft məhsullarının ixracı üzrə prosedurların sadələşdirilməsi məqsədilə Gömrük Komitəsi ilə yanaşı, idxal-ixrac əməliyyatlarına Vergilər Nazirliyi də nəzarət etməyə başladı. Azərbaycana gətirilən məhsullar, eyni zamanda daxili uçotun qaydaya salınması ilə bağlı Vergilər Nazirliyinin qarşısında qoyulan tapşırıqların yerinə yetirilməsi isə ilk növbədə ölkədəki kölgə iqtisadiyyatının qarşısını almağa yönəldi.

Prezident bu mövzuda çıxışında bildirdi ki, vergi məsələsində heç kimə heç bir güzəşt edilmir və edilməyəcək:

*"Vergi orqanlarında da ciddi struktur islahatları aparılır. Mən qeyd etməliyəm ki, bizim əsas vəzifəmiz kölgə iqtisadiyyatının aradan qaldırılmasıdır".* Prezident eyni za-

manda qanunsuz tikililərlə bağlı çox sərt xəbərdarlıq da etdi və bununla da hər bir vətəndaşı narahat edən əmlak sektorundakı özbaşınalıqların qarşısına sədd çəkdi:

*"Bakı şəhərində və digər şəhərlərdə qanunsuz tikililərə son qoyulmalıdır və son qoyulur. Müvafiq Sərəncam imzalanıb, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin icazəsi olmadan bir dənə də bina tikilə bilməz".*

### Kadrlar dəyişdi

İnam Kərimov kənd təsərrüfatı naziri, Səfər Mehdiyev Gömrük Komitəsinin, Samir Nuriyev isə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri seçildi. Eyni zamanda struktur islahatları aparılmağa başlanıldı və Kənd Təsərrüfatı Nazirliyinin tərkibindəki strukturlar yenidən formalaşdırıldı. Dövlət Turizm Agentliyi, Turizm Bürosu yarandı, "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Aqrar Tədqiqatlar Mərkəzinin yaradılması haqqında" fərman imzalandı, Tədarük və Təchizat Agentliyinin hüquqi statusu yenidən formalaşdırıldı, Bakı şəhər icra hakimiyyətindən bəzi səlahiyyətlər alınaraq Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə verildi. Bundan başqa, ötən ilin mayında Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti yaradıldı. Sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi ilə bağlı fərmana əsasən, Sahibkarlığa Kömək Milli Fondu ləğv edildi və Sahibkarlığın İnkişafı Fondu yarandı.

### Dünyanın enerji stabilliyində Azərbaycan faktoru

Azərbaycan enerji resurslarına görə Avropanın, Qərbin etibarlı tərəfdaşı imicini qoruyub saxladı və ötən bir ildə bu sahədə qlobal layihələrin mərkəzində olmaq hədəfini reallığa keçirmək məqsədilə siyasi iradəsini yenidən ortaya qoydu.

Prezidentin ilk səfərləri bu baxımdan çox faydalı oldu. O, aprelin 27-də həyata keçirdiyi səfər çərçivəsində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının baş naziri Tereza Mey ilə görüşdü. Azərbaycan prezidentinin bu səfəri iqtisadi və ticarət, enerji, təhlükəsizlik məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaratdı.

Belə ki, İlham Əliyevin və Tereza Meyin iştirakı ilə Azərbaycan Dövlət Neft Şirkəti - SOCAR, "BP Exploration (Azerbaijan) Limited" şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv blokunun birgə kəşfiyyatı və işlənilməsi üzrə hasilatın pay bölgüsü haqqında saziş imzalandı.

Azərbaycan prezidenti TANAP




*Azərbaycan enerji resurslarına görə Avropanın, Qərbin etibarlı tərəfdaşı imicini qoruyub saxladı və ötən bir ildə bu sahədə qlobal layihələrin mərkəzində olmaq hədəfini reallığa keçirmək məqsədilə siyasi iradəsini yenidən ortaya qoydu.*

layihəsinin açılış mərasimində iştirak etmək üçün iyunun 12-də Türkiyəyə səfər etdi. Həmin gün Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasimdə çıxış edən İlham Əliyev bildirdi ki, TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür:

"Bu, birgə həyata keçirdiyimiz birinci layihə deyil. Biz bundan əvvəl - 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışını qeyd etdik. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin açılışını birlikdə etdik. Keçən il Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını birlikdə etdik. Bütün bu açılış mərasimlərində əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla birlikdə iştirak etmişik. Bu gün bu tarixi gündə də biz birlikdəyik. Bu, onu göstərir ki, bizim təşəbbüsümüzlə irəli sürülən istənilən layihə həyatda öz əksini tapır. Çünki

bunun arxasında düşünülmüş siyasət, güclü iradə və bizim qardaşlığımız dayanır".

Azərbaycan neft ölkəsi kimi həmçinin neftin qiyməti ilə bağlı OPEK+ ölkələri çərçivəsində danışıqlarda iştirakını davam etdirdi. Artıq qurumun görüşlərinə ev sahibliyi missiyasını da öz üzərinə götürərək, hasilatla bağlı öhdəliklərinə əməl etdiyini açıqladı. Beləliklə, Azərbaycan büdcə gəlirlərinin bir hissəsini formalaşdıran neftin qiymətinin sabitləşməsində öz missiyasını yerinə yetirdi.



## İqtisadiyyatın diversifikasiyasına doğru...

Qarşıda duran mühüm vəzifələrdən biri də ölkənin gəlirlərində neftdən asılığı azaltmaqdır. Bu məqsədlə "post neft dövrü"nün başlandığını elan edən Azərbaycan ötən bir ildə də qeyri-neft sektorunun inkişafına nail olmaq məqsədilə yeni müəssisələr açdı. Nəzərə alsaq ki, neft gəlirlərini miqyasına görə əvəzləyə biləcək ən perspektivli sahələrdən biri ağır sənayedir, üstəlik bunun üçün yerli xammal var, bu dəyər zəncirinin formalaşması daha yaxşı nəticələr verəcək, Azərbaycan yeni müəssisələrin əsasını qoydu.

Sumqayıtdakı Kimya Texnologiyalayaları Parkında açılan müəssisələrin istehsal etdiyi məhsullar bütün dünyada tələbolunandır. Ötən ilin iyulun 18-də Sumqayıtda "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun, noyabrın 16-da əlvan metallar və ferroərintilər zavodunun, inşaat kimyəviləri zavodunun, bu ilin fevralın 18-də yüksəksıxlıqlı polietilen zavodunun açılışları Azərbaycanı kimya məhsulları sahəsində qabaqcıl istehsalçılar sırasına çıxartmağa hesablanıb.

*"Post neft dövrü"nün başlandığını elan edən Azərbaycan ötən bir ildə də qeyri-neft sektorunun inkişafına nail olmaq məqsədilə yeni müəssisələr açdı.*

## AZƏRBAYCANIN ƏSAS MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİ

*2017-2018-ci illər üzrə müqayisə*




*Azərbaycan Mərkəzi Bankının statistikasına əsasən tərtib edilib*



Xarici sərmayələr hesabına açılan yeni müəssisələr də gələcəkdə Azərbaycan üçün böyük perspektivlər vəd edir. Ölkəmiz Türkiyədə açdığı "STAR" neftayırma zavodundan hər il yüz milyonlarla dollar gəlir götürəcək. Qeyri-neft sektorunun inkişafı məqsədilə istifadəyə verilən azot gübrəsi zavodu həm daxili tələbatı ödəyəcək, həm də xaricə ixrac ediləcək.

Eləcə də, artıq kosmik xidmətlər istehsalçısı kimi tanınan Azərbaycan "Azerspace-2" peykini sentyabrın 26-da Fransa Qvianasında yerləşən Kuru kosmodromundan orbitə buraxdı. Sayca ikinci olan bu peyk kommersiya məqsədləri üçün istifadə ediləcək və ölkənin gəlirlərinin formalaşmasında əhəmiyyətli yer tutacaq. Üzümçülük və şərabçılığın inkişafı ilə bağlı 2018-2025-ci illər üzrə dövlət proqramını qəbul edən Azərbaycan əhalinin "Məşğulluq strategiyası"nı da təsdiqlədi.

## Vergi və Gömrük Məcəlləsinin dəyişməsi nəyi dəyişdi?

Ötən bir ildə iqtisadiyyatın inkişafı, xüsusən sahibkarlığın stimullaşdırılması məqsədilə Azərbaycan fiskal siyasətində ciddi dəyişikliklər edib. Prezidentin müvafiq qərarları ilə "Vergi Məcəlləsi"nə 300-dən çox əlavə və dəyişikliklərin edilməsi yeni iqtisadi imkanlar açıb. Kiçik və orta sahibkarlığın inkişafına nail olmaq üçün hökumət vergi siyasətində xüsusi yanaşmalar tətbiq edib. Sahibkarlar dörd kateqoriyaya bölündü: işçilərinin sayı 10 nəfərə, illik dövriyyəsi 200 min manata qədər olan sahibkarlar mikro, 11-15 işçisi və üç milyon manatadək dövriyyəsi olanlar kiçik sahibkarlar hesab ediliblər. 51-250 işçi qüvvəsi ilə çalışan və illik dövriyyəsi 3-30 milyon manat olanlar orta, 251 və ondan yuxarı işçi sayına və 30 milyon manat illik dövriyyəyə malik subyektlər isə iri sahibkarlardır. Bununla da, ölkədə xeyli sayda iş adamı mikrosahibkar hesab olunub və gəlir vergisinin ödənilməsində 75 faizlik güzəşt əldə edib.

Bundan başqa, yeni ildən Azərbaycan sahibkarları və vətəndaşlarının sosial sığorta yükünə yenidən baxılıb, bu sahədə vergilərin yığılmasına nəzarət səlahiyyəti Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən alınaraq Vergilər Nazirliyinə verilib.

Gömrük sistemində "Yaşıl Dəhliz"in tətbiq edilməsi isə iş adamlarına imkan verir ki, mal və nəqliyyat vasitələri gömrük ərazisinə gətirilmədən, birbaşa öz ofislərindən və ya internetə çıxışı olan hər hansı məkandan qısa idxal bəyannamələrini elektron qaydada təqdim etməklə anbarlarına apara bilsinlər. Bu isə vaxt itkisinin, əlavə xərclərin, məmur-vətəndaş təmasının aradan qaldırılmasına, ticarətin asan və sürətli şəkildə həyata keçirilməsinə imkan verir.

Sahibkar-məmur təmasının aradan qaldırılması üçün "Dövlət satınalmaları haqqında" qanunda edilən dəyişikliklər tenderlərin elektron şəkildə keçirilməsi ilə bağlı, həmçinin, prosesin şəffaf aparılmasını tənzimləyən şərtlər ortaya qoyub.

## Maliyyə sektorunda yeni mərhələ

Ötən bir ildə Azərbaycanda maliyyə sektoru ətalət vəziyyətindən inkişafa keçib və bu müsbət tendensiyada dövlətin yürütdüyü siyasət mühüm rol oynayıb. Belə ki, uzun müddət bank sektorunun və əhalinin "boynundan asılan problemli kredit" məsələsi prezident İlham Əliyevin "Azərbaycanda fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı ilə ədalətli həllini tapıb.

Fərmanda göstərilir ki, son dövrdə respublikada makroiqtisadi sabitliyin təmin olunması, iqtisadi inkişaf templərinin bərpa edilərək artması və maliyyə imkanlarının genişlənməsi digər sahələr kimi, əhalinin xarici valyutada olan ödəmə vaxtı keçmiş kredit borclarının ödənilməsinə də dövlət dəstəyi göstərilməsi üçün şərait yaradıb. Artıq fərmanla bağlı qaydalar təsdiqlənib və aprelin sonundan fərmanın son mərhələsinin icrasına başlanıb.

Eyni zamanda, ölkədə banklara inam bərpa olunur və əhalinin depozitlərinin həcminin getdikcə artması bunu təsdiq edən faktdır. Əgər statistikaya baxsaq, 2017-

ci ilin sonunda bank sektorunda əmanətlərin həcmi 20 milyard 599 milyon manat olmuşdusa, 2018-ci ilin sonunda bu rəqəm 21 milyard 870 milyon manata yüksəlib.

Azərbaycanda əmanətlərin tam həcmdə qorunması haqqında prezident fərmanının müddəti 2020-ci ilə qədər uzaldılıb və bu da əhalinin əlindəki vəsaitləri bank sisteminə cəlb etməkdə mühüm rol oynayır. Azərbaycan "2018-2020-ci illər üzrə rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə dövlət proqramı"nı qəbul edib və bu sahədə görülən tədbirlər vahid proqram əsasında həyata keçirilməyə başlanılıb.

Kreditləşməyə ayrılan vəsaitin həcmi artıb. 2017-ci ilin sonunda kredit portfeli 4 milyard 804 milyon manat olmuşdusa, 2018-ci ilin sonunda artıq 4 milyard 947 milyon manata yüksəlib.

Kredit almaq üçün girov sisteminin əhatəsinin genişləndirilməsi məqsədilə yaradılan "Daşınar əmlakın yüklülüyü reyestri" də bu sahədə yeni imkanlar açıb.

### Regionların inkişafına yönələn yeni bir sənəd imzalandı

Azərbaycanın regionlarında sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasını və nəticədə, əhalinin məşğulluğunun artırılmasını, yoxsulluq səviyyəsinin azaldılmasını hədəfləyən daha bir dövlət proqramı qəbul edilib. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" prezident İlham Əliyevin imzaladığı fərmanla təsdiq edilib.

Qeyd edək ki, dövlət proqramlarının icra olunduğu 2004-2018-ci illər ərzində ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən, qeyri-neft



*2018-ci ilin aprel ayında seçkilərdə qələbə qazandıqdan sonra prezident İlham Əliyevin ilk imzaladığı fərman şəhid vərəsələrinə 11 min manat birdəfəlik ödəmə ilə bağlı olub.*

sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artıb.

Bu müddətdə həyata keçirilmiş tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla, 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılıb, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enib.

Məntiqi nəticə olaraq, "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. 2017-ci il və 2018-ci ilin ilk dörd ayında təkcə bu hesabat üzrə 30-a yaxın normativ hüquqi akt qüvvəyə minməklə 70-dən çox islahat tədbiri həyata keçirilib. Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə, 32 pillə irəliləyərək, 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb.

### İlk fərman – şəhid ailələri

Azərbaycan dövlətinin prioritet istiqamətlərinin başında sosial siyasət gəlir desək, yanılmarıq. Lakin bu, sadəcə, fikirdə və sözdə deyil.

Fikrimizi prezident İlham Əliyevin son bir ildə bu istiqamətdəki fəaliyyətinə, fərman və sərəncamlarına nəzər salaraq daha təfsilatlı izah etməyə çalışacağıq.

Bu sahəyə sosial müavinətlər, təqaüdlər, pensiyalar və digərləri daxil olmaqla yanaşı, şəhid ailələri, məcburi qaçqın və köçkünlərin rifahı məsələləsini də aid edə bilərik.

Yeri gəlmişkən, qeyd etmək yerinə düşər ki, prezident İlham Əliyev təkcə son bir ildə deyil, prezidentliyinin bütün dönəmlərində şəhid ailələri və məcburi köçkün və qaçqınların problemlərinə daim həssas yanaşıb, ən xırda problemdə belə dərhal reaksiya verib, aidiyyəti qurumlara məsələnin araşdırılmasını, tez bir zamanda həll olunmasını tapşırıb.

Bundan başqa, onların işlə və evlə də təmin olunması məsələsi İlham Əliyev tərəfindən izlənilib.

Ölkə başçısı diqqətdən kənar qalan belə şəxslərin mətbuatda dərc olunan problemlərini də hər zaman nəzarətə götürüb. Dövlət başçısının reaksiyasından sonra hər zaman eyni problemi yaşayan şəxslərin məsələsi ilə bağlı aidiyyəti qurumlarda komissiya yaradılıb, dərhal həlli istiqamətində işlər görülüb.

2018-ci ilin aprel ayında seçkilərdə qələbə qazandıqdan sonra

prezident İlham Əliyevin ilk imzaladığı fərman şəhid vərəsələrinə 11 min manat birdəfəlik ödəmə ilə bağlı olub. Bununla həssas qrupların sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət göstərdiyini bir daha təsdiq edib.

Fərman 9543 şəhidin vərəsələrini əhatə edib. Daha sonra 2019-cu ilin yanvarında dövlət başçısı birdəfəlik ödəmə ilə bağlı yeni bir fərman imzalayıb. Bununla da şəhid vərəsələrinin sayı 12268 nəfərə və ayrılan vəsait 135 milyon manata çatdırılıb. İl ərzində birdəfəlik ödəniş prosesi başa çatacaq.

Sonrakı dövrlərdə də İlham Əliyev və Mehriban Əliyeva şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün yeni mənzillər təqdim ediblər. Həmin mərasimdən bir gün sonra dövlət başçısı Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 2018-ci ildə əlavə olaraq 20 milyon manat vəsait ayrılması üçün sərəncam imzalayıb.

Nəticədə, 2018-ci ildə həmin kateqoriyalardan olan insanlara nəzərdə tutulandan üç dəfə çox - 626 mənzil təqdim edilib.

Bu ilin yanvar ayında İlham Əliyev şəhid ailələri ilə görüşüb və həmin gün Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün mənzillərin alınması məqsədilə 35 milyon manat ayrılıb. Prezidentin bu görüşü cəmiyyətdə xeyli müzakirə və təqdir olunub. Onun tədbirdə şəhid ailələrinə olan xüsusi qayğısı xeyli müddət foto və videolarla sosial şəbəkələrin müzakirəsində olub.

2019-cu ildə şəhid ailələrinə 800 mənzil verilməsi nəzərdə tutulur. Yanvarın 30-da şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında fərman imzalanıb. Bununla şəhid ailəsi üçün 2019-cu il fevralın 1-dən aylıq məbləğ artırılaraq 300 manat müəyyən edilib.

Bu fərman 12 mindən çox şəhid ailəsini əhatə edir və artım 58 manatdır. Ayrılan əlavə vəsaitin məbləği isə 8,5 milyon manat təşkil edir.

## Ölkə başçısı əfv etdi

Ölkədə aparılan islahatlar məhkumluq həyatı yaşayan yerli və əcnəbi vətəndaşlara da şamil edilib. Bir il ərzində iki dəfə əfv sərəncamı imzalanıb. Belə ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə və Novruz Bayramı ərəfəsində azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş 1038 şəxs cəzanın çəkilməmiş hissəsindən azad olunub.

## Yollar xalqın rifahının yaxşılaşdırılmasına aparır

11 ay ərzində ölkənin müxtəlif regionlarında abadlıq və quruculuq işlərinə 1 milyard 250 milyon 171 min manat vəsait ayrılıb. Xüsusilə avqust və oktyabrda regionlarda bir sıra əhəmiyyətli bina və komplekslərin inşası üçün ayrılan vəsaitin həcmi daha çox olub. Ayrılan vəsaitin ümumilikdə 680,898 min manatı yol tikintisinə sərf edilib.



Bu gün ölkədə aparılan sosial islahatlar nəticəsində Azərbaycan bütün sektorlar üzrə nəinki özünü təmin edir, eyni zamanda, digər ölkələrə də dəstək verir. Respublika üzrə qaz, su, elektrik təchizatı sahəsində ötən illərlə müqayisədə, ciddi irəliləyişlər əldə olunub.

Ən ucqar rayonlarda belə təbii qaz verilişi və qazlaşdırmanın



səviyyəsi 95 faizə, içməli su layihələrinin sürətli icrası ilə isə 70-80 faizə çatdırılıb. Ölkədə istər sosial, istərsə də digər sahələrdə aparılan islahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirməkdir.

## Pensiyalar və əməkhaqqı artırıldı

Fevralın 7-də pensiyaların əvvəlki ilin orta aylıq nominal əməkhaqqının artım göstəricisinə uyğun indeksləşdirilməsi ilə bağlı sərəncam imzalanıb. Dövlət başçısının təşəbbüsü ilə əmək pensiyasının minimum məbləğinin əhəmiyyətli şəkildə artırılmasına dair qanunvericilik layihəsi fevralın 19-da Milli Məclisdə qəbul edilib.

Bununla da minimum pensiya məbləğinin martın 1-dən orta hesabla 40 faiz artırılması pensiya təminatında ciddi irəliləyişə



imkan verib. 233 min vətəndaşın pensiyasında əhəmiyyətli artıma səbəb olan və həmin artımların tətbiq edilməsi üçün illik əlavə olaraq 49 milyon manat ayrılıb.

Həmçinin, bununla minimum pensiya məbləği ölkəmizdə pensiyaçılar üçün müəyyən olunan yaşayış minimumunu (149 manat) 7,3 faiz üstələyir.

Prezidentin sərəncamına əsasən, minimum aylıq əməkhaqqının məbləği martın 1-dən 180 manat müəyyən edilib. Bu da orta hesabla 40 faiz artım deməkdir. İlkin rəqəm 600 min nəfərə şamil olunub. Bunlardan 450 min nəfəri dövlət, 150 min nəfəri isə özəl sektorda çalışan işçilərin rifahına ciddi dəstək olan bu artım üçün illik 400 milyon manat əlavə vəsait ayrılacaq.

Dövlət başçısı fevralın 25-də əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlərə dair sərəncam imzalayıb. Martda isə müharibə əlillərinin avtomobillərlə təminatı üçün 5 milyon manat ayrılıb. Bununla da 2019-cu ildə əlavə 400-dən artıq avtomobil alınacaq. Bu il müharibə əlillərinə 600-dək avtomobil veriləcək.

Dövlət başçısının fevral 25-də imzaladığı daha bir önəmli sərəncam ölkənin sosial həyatında inqilabi addımların davamlı xarakter aldığını göstərib. Sərəncamla 600 minədək şəxsə, o cümlədən, 300 min əlilliyi olan şəxsə yönələn sosial müavinətlərin, Prezidentin aylıq təqaüdlərinin aprelin 1-dən orta hesabla 100 faiz artırılması təmin edilib, əlavə olaraq bir sıra kateqoriyalardan olanlar üçün Prezidentin aylıq təqaüdləri təsis olunub.

Təhsil sahəsində də müəyyən işlər davam etdirilib. Bir sıra məktəb binalarının tikintisi və təmiri üçün vəsait ayrılıb. 11 ay ərzində regionlarda, Bakı və qəsəbələrdə təhsil müəssisələrinin tikintisi və təmirinə ümumilikdə 19 milyon 800 min manat vəsait ayrılıb.

Prezident çıxışları zamanı qəzalı vəziyyətdə olan məktəblərin yenidən tikilməsinin maksimum iki il çəkə biləcəyini qeyd edib. Eyni zamanda, ali məktəb tələbələri üçün Prezident təqaüdünün məbləğinin artırılması ilə bağlı sərəncam imzalanıb və həmin təqaüd 185 manatdan 210 manata qədər artırılıb. Bu da 110 000-dək tələbəni əhatə edib.

### Təbii fəlakət zamanı da prezident əhalinin yanında oldu

Prezident seçkilərindən sonra İlham Əliyev regionlara da səfər edib. Mayın 4-də Xaçmaz və Xızı rayonları ilə başlayan səfər daha sonra bir il ərzində Naxçıvan Muxtar Respublikası, Şamaxı, Quba, Goranboy və digər regionları da əhatə edib. Ölkə başçısı verilən tapşırıqların yüksək səviyyədə yerinə yetirilməsinə birbaşa nəzarət edir.

Azərbaycanın rayonlarına dəfələrlə səfər edən İlham Əliyev həm buradakı vəziyyətlə şəxsən tanış olub, həm də səfər sonunda zona müşavirələri keçirərək əhalinin problemlərini dinləyib. Bununla yanaşı, prezident Sumqayıt və paytaxtın bir sıra rayon və qəsəbələrində açılışlarda iştirak edib.

Fevralın 5-də, gecə saatlarında Şamaxı-İsmayıllı bölgəsində zəlzələ baş verib. Fevralın 7-də İlham Əliyev zəlzələnin baş verdiyi Şamaxı rayonunda olub və zəlzələ nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında yaşayış evlərinə, sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Fövqəladə Hallar Nazirliyinə ilkin olaraq iki milyon manat ayrılıb.

**P.S.** Bu qeyd etdiklərimiz böyük bir sahənin, sadəcə, müəyyən və ən vacib hissələrini əhatə edir. Lakin sosial sahədə vətəndaşın xeyrinə atılan hər bir addım vacibdir. Prezident İlham Əliyevin bu sahədə atdığı addımlara qısa nəzər salmaqla sosial siyasətin mərkəzində vətəndaşın dayandığını görmək elə də çətin olmur.

*İlhamə Abdullayeva*

# TƏDBİRLƏRİN PEŞƏKAR TƏŞKİLATÇISI 2019

ceo caspian event organisers

| | | |
|---|---|---|
| BAKU FIN EXPO | 1-ci BEYNƏLXALQ MALİYYƏ VƏ İNVESTİSİYA SƏRGİ VƏ FORUMU | **10-12 APREL** www.finexpo.az |
| CASPIAN agro | 13-cü AZƏRBAYCAN BEYNƏLXALQ KƏND TƏSƏRRÜFATI SƏRGİSİ | **15-17 MAY** www.caspianagro.az |
| GIFT & PROMO FAIR | 2-ci AZƏRBAYCAN BEYNƏLXALQ HƏDİYYƏLƏR VƏ PROMO MƏHSULLARI SƏRGİSİ | **12-14 SENTYABR** www.promofair.az |
| Ad Print | 2-ci AZƏRBAYCAN BEYNƏLXALQ REKLAM VƏ ÇAP İŞLƏRİ SƏRGİSİ | **12-14 SENTYABR** www.adprint.az |
| eduexpo | 13-cü AZƏRBAYCAN BEYNƏLXALQ TƏHSİL SƏRGİSİ | **10-12 OKTYABR** www.eduexpo.az |
| Career AZERBAIJAN | 13-cü AZƏRBAYCAN BEYNƏLXALQ KARYERA SƏRGİSİ | **10-12 OKTYABR** www.careerexpo.az |
| CASPIAN REALTY | 1-ci XƏZƏR BEYNƏLXALQ DAŞINMAZ ƏMLAK VƏ İNVESTİSİYA SƏRGİSİ | **22-25 OKTYABR** www.caspianrealty.az |
| Caspian Ecology | 10-cu YUBİLEY AZƏRBAYCAN BEYNƏLXALQ ƏTRAF MÜHİT SƏRGİSİ | **13-15 NOYABR** www.caspianecology.az |
| bakutel | 25-ci YUBİLEY AZƏRBAYCAN BEYNƏLXALQ TELEKOMMUNİKASİYA, İNNOVASİYA VƏ YÜKSƏK TEXNOLOGİYALAR SƏRGİ VƏ KONFRANSI | **3-6 DEKABR** www.bakutel.az |

Təşkilatçı: tel.: +994 12 4474774; faks: +994 12 4478558;
e-mail: office@ceo.az

www.ceo.az

# İqtisadiyyat Naziri Şahin Mustafayevin müsahibəsi

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il 21 aprel tarixli Sərəncamına əsasən, aprelin 25-i Azərbaycanda Sahibkarlar Günü kimi qeyd edilir. Ölkəmizdə sahibkarlıq mühiti və özəl sektorun inkişafı barədə suallarımızı **İqtisadiyyat naziri Şahin Mustafayev** cavablandırıb.



*– Şahin müəllim, sahibkarlarla sıx işləyən dövlət qurumunun rəhbəri kimi Sahibkarlar Günü ilə bağlı nə deyərdiniz?*

– İlk öncə qeyd edim ki, Sahibkarlar Gününün təsis olunması mühüm hadisə ilə - Ümummilli Lider Heydər Əliyevin 2002-ci ilin 25 aprel tarixində ölkə sahibkarları ilə keçirdiyi tarixi görüşlə bağlıdır. Təsadüfi deyildir ki, məhz aprelin 25-i Sahibkarlar Günü elan edilib və artıq 4-cü ildir ki, qeyd edilir. "Sahibkarlıq fəaliyyəti bizim üçün ən mühüm amillərdən biridir" prinsipini azad sahibkarlıq şəraitində iqtisadi tərəqqinin əsas meyarı olaraq görən Ulu Öndər özəl sektorun formalaşmasına və inkişafına daim böyük diqqət və qayğı göstərib. 2002-ci ilin aprel-may aylarında Heydər Əliyevin sahibkarlarla görüşlərində onların problem və istəklərini birbaşa dinləməsi, aparılan fikir mübadiləsi və qarşılaşdıqları çətinliklərin qısa müddət ərzində həlli üçün verdiyi konkret tapşırıqlar sahibkarlara göstərilən böyük etimadın, özəl sektorun inkişaf etdirilməsi yolu ilə qeyri-neft sektorunda yüksək nəticələrin əldə olunacağına güclü inamın göstəricisi idi. Görüşlərin nəticəsi olaraq, biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığın sürətli inkişafı üçün əlverişli mühitin yaradılması məqsədilə imzalanmış bir sıra mühüm fərman və sərəncamlar, təsdiq olunan "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)", "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" 2002-ci il 10 sentyabr tarixli, "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" 2002-ci il 28 sentyabr tarixli fərmanlar ölkədə özəl sektorun inkişafına təkan verdi. Ulu Öndərin rəhbərliyi ilə həyata keçirilən sistemli və kompleks tədbirlər sahibkarlığın inkişafını iqtisadi siyasətin prioritetlərindən birinə çevirdi, onlara maliyyə dəstəyi, texniki yardım və konsaltinq xidməti göstərən strukturlar formalaşdı.

Ümummilli Liderin iqtisadi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində bu gün Azərbaycanda sahibkarlar iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilmişdir. Dövlət başçısının "Ölkəmizin inkişafı sahibkarlığın inkişafından asılıdır" kursuna uyğun olaraq, sahibkarlığın inkişaf etdirilməsi məqsədilə müasir dövrün tələblərinə cavab verən ardıcıl tədbirlər həyata keçirilir, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və iqtisadiyyatda rolunun daha da artırılması sahəsində islahatlar aparılır, beynəlxalq təcrübə nəzərə alınmaqla çevik dəstək mexanizmləri, optimal tənzimləmə alətləri tətbiq edilir.

> *Özəl sektorun dəstəklənməsi, sahibkarların hüquq və mənafelərinin qorunması sahəsində yeni iqtisadi şəraitə uyğun islahatlar həyata keçirilir.*

Səmərəli dövlət dəstəyi tədbirləri, vergi güzəştlərinin tətbiqi, subsidiyaların verilməsi, layihələrin güzəştli şərtlərlə kreditləşdirilməsi, sənaye parklarının və məhəllələrinin, aqroparkların, biznes-inkubatorların yaradılması, maarifləndirmə tədbirləri, biznes forum və sərgilərin təşkili sahibkarlığın daha dinamik inkişafı üçün mühüm mexanizmlərdir.

Azərbaycan Respublikasında 2004-cü ildən regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurla icra olunması, Prezident İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq etdiyi milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində qeyd olunan hədəflərin yerinə yetirilməsi sahibkarlığın bundan sonrakı inkişafının əsasını təşkil edir.

*– Sahibkarlığın inkişafı istiqamətində aparılan islahatların, sahibkarlığa dövlət dəstəyi tədbirlərinin real nəticələri barədə məlumat verməyinizi xahiş edirik.*

– Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq, ölkəmizdə sahibkarlığın genişləndirilməsi və iqtisadiyyatda rolunun artırılması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması tədbirləri sistemli və ardıcıl olaraq davam etdirilir. Qeyd etdiyim kimi, özəl sektorun dəstəklənməsi, sahibkarların hüquq və mənafelərinin qorunması sahəsində yeni iqtisadi şəraitə uyğun islahatlar həyata keçirilir, bu sahənin inkişafı üçün beynəlxalq təcrübə nəzərə alınmaqla müasir çağırışlara cavab verən mexanizmlər tətbiq edilir.

Sahibkarlığa dövlət dəstəyi tədbirləri nəticəsində sahibkarlıq subyektlərinin sayı son 15 il ərzində dəfələrə artıb, ümumi daxili məhsulda özəl sektorun xüsusi çəkisi 85 faizə, məşğulluqda payı isə 76 faizə çatıb. Hazırda iqtisadiyyatın şaxələndirilməsi, özünütəminat səviyyəsinin yüksəldilməsi, yeni müəssisə və iş yerlərinin yaradılması kimi strateji məsələlərdə bu sektor həlledici rola malikdir.

Sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən uğurlu islahatlar çərçivəsində sahibkarların hüquqlarının qorunması, sahibkarlıq fəaliyyətinə yersiz müdaxilələrin qarşısının alınması, şəffaflığın təmin edilməsi istiqamətində həyata keçirilmiş tədbirlər mühüm önəm kəsb edir. Belə ki, 20 oktyabr 2015-ci il tarixində qəbul edilmiş "Sahibkarlıq sahəsində aparılan

yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, sahibkarlıq sahəsində aparılan yoxlamalar 2021-ci ilədək dayandırılıb, yoxlamaların dayandırıldığı 1 noyabr 2015-ci il tarixindən sonrakı 42 ay ərzində vergi yoxlamaları istisna olmaqla sahibkarlıq subyektlərində cəmi 1203 yoxlama, o cümlədən 2019-cu ilin ilk 4 ayı ərzində 558 yoxlama keçirilmişdir. Müqayisə üçün qeyd edim ki, yoxlamaların dayandırılmasından əvvəlki 42 ay ərzində vergi yoxlamaları istisna olmaqla 205 mindən çox yoxlama keçirilmişdir.

Dövlət başçısının müasir dövrün qlobal çağırışlarının nəzərə alındığı iqtisadi islahatlar paketinə uyğun olaraq, lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 59-dan 37-ə, icazələrin sayı təqribən 4 dəfə azaldılaraq 86-a endirilmiş, lisenziyanın verilməsinə görə dövlət rüsumları 2 dəfə, regionlar üzrə 4 dəfə azaldılmış, lisenziyanın verilməsi prosedurları sadələşdirilmiş, "Lisenziyalar və icazələr" portalı yaradılmış və hazırda 24 fəaliyyət növü üzrə elektron lisenziyaların verilməsi həyata keçirilir. İndiyədək portal vasitəsilə sahibkarlara 1004 lisenziya verilib.

Bunlarla yanaşı, 2016-cı ildən etibarən investisiya fəaliyyətinin genişləndirilməsi və təşviqi, sərmayə qoyuluşunun stimullaşdırılması məqsədilə sahibkarlara investisiya təşviqi sənədləri verilir. İndiyədək 316 sahibkarlıq subyektinə 367 investisiya təşviqi sənədi təqdim edilmişdir. İnvestisiya təşviqi mexanizminin tətbiqindən sonra icra edilən və nəzərdə tutulan layihələrin ümumi investisiya həcmi 3,2 milyard manatdır. Bu layihələrin icrası nəticəsində 24 min yeni iş yeri yaradılacaqdır. Eyni zamanda, investisiya təşviqi sənədi əsasında texnikanın, texnoloji avadanlıq və qurğuların güzəştli şərtlərlə idxalı üçün 282 sahibkarlıq subyektinə 2515 təsdiqedici sənəd təqdim edilib. Təsdiqedici



sənədlər əsasında sahibkarlıq subyektlərinin əldə etdiyi güzəştlərin ümumi dəyəri 124 milyon ABŞ dollarıdır.

Qeyd edilənlərdən başqa, sahibkarlığın inkişafında əlverişli institusional dəstək mexanizmlərindən olan İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən indiyədək 36 mindən sahibkara 2,3 milyard manat güzəştli kredit verilib. Bu kreditlər hesabına 166 mindən çox yeni iş yerinin açılması imkanı yaranıb. Sahibkarların investisiya layihələrinin güzəştli qaydada maliyyələşdirilməsi davam etdirilir. 2019-cu ildə sahibkarlara 160 milyon manat güzəştli kreditin verilməsi nəzərdə tutulur.

Ölkəmizdə sahibkarlığın inkişafına dəstək sahəsində əhəmiyyətli mexanizmlərdən olan Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu ölkəmizin ixrac və investisiya imkanlarının, "Made in Azerbaijan" brendinin təşviqi, ixrac missiyalarının təşkili, yerli məhsullarımızın beynəlxalq bazarlarda tanıdılması, qeyri-neft sektoruna xarici investisiyaların cəlb edilməsi, qeyri-neft məhsullarının ixracının artırılması, yerli şirkətlərin biznes əlaqələrinin, yeni bazarlara çıxış imkanlarının genişləndirilməsi və digər istiqamətlərdə sahibkarlara dəstək göstərir.

Azərbaycan İnvestisiya Şirkəti mövcud və yeni müəssisələrə yerli və xarici investorlar cəlb etməklə və öz vəsaiti hesabına müddətli investisiya qoyuluşları vasitəsilə iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı və şaxələndirilməsinə xidmət edir.

Dövlət başçısının Fərmanı ilə yaradılmış Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) kiçik və orta sahibkarlığın rolunun və rəqabət qabiliyyətinin artırılmasında, bu sahədə idarəçilik sisteminin müasir tələblərə uyğunlaşdırılmasında əhəmiyyətli institusional dəstək mexanizmidir. Agentlik KOB sektorunun inkişafı istiqamətində məqsədyönlü tədbirlər və layihələr həyata keçirir. Hazırda Azərbaycanın müxtəlif regionlarında 14 "KOB dostu" sahibkarlıq subyektlərinə xidmət göstərir. Ümumiyyətlə, respublikanın 10 iqtisadi rayonu üzrə 60 "KOB Dostu"ndan ibarət şəbəkənin yaradılacaqdır. İlk "KOB Evi"nin isə bu il Bakı şəhərində açılması nəzərdə tutulur. "KOB Evi"ndə kiçik və orta sahibkarlıq subyektlərinə 30-dan çox dövlət qurumu tərəfindən 100-dən artıq xidmət göstəriləcəkdir.

Azərbaycanda yaradılmış əlverişli biznes və investisiya mühiti beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Təsadüfi deyildir ki, Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan öz mövqeyini 32 pillə yaxşılaşdıraraq 190 ölkə arasında 25-ci yerdə qərarlaşmış, dünyanın 10 ən islahatçı ölkəsi siyahısına daxil edilmiş və ən çox islahat aparan ölkə elan olunmuşdur. Dünya İqtisadi Forumunun açıqladığı "Qlobal Rəqabət Qabiliyyəti 2017-2018" hesabatında Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətinə görə dünyada 35-ci, MDB məkanında isə 2009-cu ildən etibarən 1-ci yerdədir.

*– Bu gün dünya bazarına "Made in Azerbaijan" brendi ilə çıxarılan Azərbaycan məhsullarına, xüsusilə də meyvə-tərəvəz, şərab, meyvə şirələri, spirtli içkilərə və s. böyük maraq və tələbat var...*

– Qeyri-neft sektorunun diversifikasiyası, Azərbaycan məhsullarının ixrac coğrafiyasının genişləndirilməsi məqsədilə son dövrlərdə ardıcıl məqsədyönlü tədbirlər həyata keçirilməkdədir. Bu tədbirlərə misal olaraq, qeyri-neft istehsalının və ixracının stimullaşdırılması, "Made in Azerbaijan" brendinin təşviqi məqsədi ilə indiyədək İqtisadiyyat Nazirliyinin dəstəyi, AZPROMO-nun təşkilatçılığı və yerli ixracatçıların iştirakı ilə xarici ölkələrə 29 ixrac missiyası, o cümlədən bu ilin əvvəlindən 4 xarici ölkəyə (Çin, Polşa, Latviya, Qətər) 5 ixrac missiyası təşkil edilib. Azərbaycan məhsulları indiyədək 24 beynəlxalq sərgidə, o cümlədən bu ilin yanvar ayından indiyədək 7 beynəlxalq sərgidə vahid ölkə stendi ilə təmsil olunub. Qeyd etmək yerinə düşərdi ki, özünəməxsus dadı və yüksək keyfiyyəti ilə seçilən Azərbaycan məhsulları xarici ölkələrdə maraqla qarşılanır. Odur ki, keçirilən tədbirlər çərçivəsində Azərbaycan məhsullarının ixracına dair razılaşmalar əldə edilir, müqavilələr imzalanır.

"Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi məqsədilə atılan praktik addımlardan biri də Azərbaycanın xarici ölkələrdə ticarət və şərab evlərinin yaradılmasıdır. Dövlət başçısının tapşırığına uyğun olaraq, 2017-ci ildə Belarusda, 2018-ci ildə Ukrayna, Latviya, Polşa, Çində, bu ilin yanvar ayında isə BƏƏ-nin Dubay şəhərində Azərbaycanın ticarət evləri açılıb. Bu ticarət evlərinin hər birində Azərbaycan şirkətlərinin istehsal etdiyi müxtəlif növ məhsulların daimi sərgisi fəaliyyət göstərir. Bu sərgilərdə müxtəlif cür Azərbaycan məhsulları nümayiş olunur. Bundan əlavə, Çinin Urumçi və Şanxay şəhərlərində sahəvi ticarət evi formatında iki şərab evi uğurla fəaliyyət göstərir.

Ümumilikdə, ölkəmizin xarici ticarət tərəfdaşlarının sayı və qeyri-neft ixracı davamlı olaraq artmaqdadır. Belə ki, 2003-2018-ci illərdə görülmüş tədbirlər nəticəsində Azərbaycanın xarici ticarət tərəfdaşlarının sayı 1,4 dəfə, ixrac 7,5 dəfə, o cümlədən qeyri-neft ixracı 4,5 dəfə, ixrac məhsullarının çeşidi 2,5 dəfə artmışdır. 2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard ABŞ dollarına yaxın investisiya yatırılıb ki, bunun da təxminən yarısı xarici sərmayələrdir.

> *Turizm sənayesinin formalaşdırılması məqsədilə köklü islahatlar və məqsədyönlü tədbirlər həyata keçirilir.*

Ümumi investisiya qoyuluşunun 60%-dən çoxu qeyri-neft sektorunun inkişafına yönəldilmişdir.

Qeyd edilənlərlə yanaşı, qeyri-neft sektorunun prioritet sahələrindən olan turizmin inkişafı, ölkənin turizm potensialından səmərəli istifadə olunması, yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən turizm sənayesinin formalaşdırılması məqsədilə köklü islahatlar və məqsədyönlü tədbirlər həyata keçirilir.

*– Sahibkarlığın inkişafında dövlət-özəl sektor münasibətlərinin inkişafı mühüm istiqamətdir.*

Dövlət-özəl sektor münasibətləri dövlətlə sahibkarların qarşılıqlı etimadı, məsələlərin birgə həlli, təşəbbüslərin və təkliflərin öyrənilməsi və dəstəklənməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Müasir dövrdə satış bazarları, xammal ehtiyatları, insan resurslarına çıxış uğrunda dövlətlər öz aralarında yarışdıqları bir dövrdə ölkənin rəqabətədavamlılığı, həm də onu təmsil edən şirkətlərin davamlılığından asılıdır. Bu baxımdan sahibkarlığın inkişafında şirkətlərlə yanaşı, dövlət strukturları, ictimai təsisatlar da maraqlıdır.

Ölkədə sahibkarlığın davamlı inkişafının təmin edilməsi məqsədilə dövlətlə sahibkarlar arasında tərəfdaşlığın institusional təşkili mühüm amildir. Belə ki, sahibkarlar artıq özəl sektorla bağlı məsələlərin müzakirəsində və həllində bilavasitə iştirak edir, təşəbbüs və təkliflərini bildirirlər. Bu baxımdan yaradılmış mexanizmlər dövlət-sahibkar münasibətlərinin inkişafında əhəmiyyətli rol oynayır.

Bu kontekstdə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının rolunu qeyd etmək istərdim. Ölkəmizdə daha əlverişli biznes mühitin davamlı olaraq yaxşılaşdırılması, sahibkarların təşkilatlanması prosesində fəal iştirak edən və ətrafında 110 assosasiya və ictimai birliyi birləşdirən Konfederasiya dövlətlə özəl sektor arasında əhəmiyyətli platformadır.

Fürsətdən istifadə edərək, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasını və biznes nümayəndələrini Sahibkarlar Günü münasibətilə təbrik edir, uğurlar arzulayıram.

*Abbas Əliyev*



Nazir Mikayıl Cabbarov:

# Vergi islahatları çox vacib prosesdir və davam etdiriləcək

**Vergi inzibatçılığının səmərəliliyinin artırılması məqsədilə bir çox sahələrdə və klasterlərdə sistemli tədbirlər həyata keçirilib. Yeni vergi dəyişiklikləri müsbət nəticələrini verməkdədir. Biz Azərbaycanda fəaliyyət göstərən sərmayədarlar, biznesləri birləşdirən müxtəlif təşkilatlar, xarici ölkələrin ticarət palataları ilə fəaliyyətimizi bundan sonra da əlaqəli şəkildə quracağıq. Gələcəkdə bu məsələlər ətrafında fikir mübadiləsini davam etdirəcəyik. Yerli vergi orqanlarımız öz fəaliyyətini qanunvericiliyin tələblərinə uyğun qurmalıdır. Bu fikirləri Azərbaycan Respublikasının Vergilər naziri Mikayıl Cabbarov söyləyib. Müsahibəni təqdim edirik.**

*– Mikayıl müəllim, 2019-cu ilin 4 ayı arxada qalıb. Fiskal göstəricilər barədə nə deyə bilərsiniz və ümumilikdə vergi sahəsində ilkin nəticələr nəyi göstərir?*

– Biz 2019-cu ilin ilkin nəticələrini xüsusi səbirsizliklə gözləyirdik. Çünki ölkəmizin bir sıra digər sahələrində olduğu kimi, vergi sahəsində də genişmiqyaslı islahatlar həyata keçirilir. Bu islahatlara 2018-ci ildə dövlətimizin başçısının müəyyənləşdirdiyi siyasi çərçivəyə uyğun olaraq başlamışıq.

2018-ci ildə vergi ödəyiciləri üçün keçid ili fəlsəfəsini təqdim etdik. Bu fəlsəfə vergi inzibatçılığında və vergi qanunvericiliyində mövcud olan vərdişlərdən şəffaf münasibətlərə, vergi müfəttişi ilə vergi ödəyicisi arasında münasibətlərin təbiətinin dəyişməsinə, şəffaflaşmasına, müasirləşməsinə, müstəqil Azərbaycanın vətəndaş-dövlət münasibətlərinə uyğunlaşmasına keçməkdən ibarət olub.

2019-cu ilin ilkin nəticələrinə əsasən deyə bilərik ki, yanvarın 1-dən qüvvəyə minmiş yeni vergi dəyişiklikləri istədiyimiz nəticələri verməkdədir. İlin birinci rübündə də, 4 ayda da biz bu tendensiyanı qorumağa nail olmuşuq.

Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə daxilomalar proqnozlardan daha yüksək icra olunub. Belə ki, həm neft, həm də qeyri-neft sektorunda ödənilən vergilərin həcmi istər 2018-ci ilin eyni dövründən, istərsə də proqnoz göstəricilərdən daha yüksək olub. Birinci rübdə dövlət büdcəsinə vergi proqnozlarından 10,4 faiz çox vəsait təmin edilib. Ötən ilə nisbətən artım 16,5 faiz təşkil edir *(Qrafik 1)*. Aprel ayında da bu dinamika qorunub saxlanılıb. Bu rəqəmlər, müvafiq olaraq, proqnoza nisbətən 111 faiz təşkil edir və ötən illə müqayisədə 18 faiz daha çoxdur.

Qısaca desək, biz islahatların ilkin nəticələrini müşahidə etməkdəyik. Sevindirici hal ondan ibarətdir ki, bu, vergi ödəyiciləri ilə Vergilər Nazirliyi arasında münasibətlərdə və həmin münasibətlərin təbiətində də öz əksini tapır.

*– Vergi daxilolmaları üzrə gözləntilər artıqlaması ilə yerinə yetirilib. Bu, nəyin hesabına mümkün olub?*

– Burada bir neçə amil var. Birincisi, vurğulamalıyıq ki, ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar iqtisadi artımla nəticələnir. Belə ki, birinci rüb ərzində ümumi daxili məhsul (ÜDM) artıb. Doğrudur, vergi daxilolmalarının artım tempi ÜDM-in artım tempini bir neçə dəfə üstələyir. Eyni zamanda, ÜDM-in birinci rübdə real artımı 3 faizdən çox olub. Bu, müsbət fon yaradır.

İkinci mühüm məsələ, qeyd etdiyim kimi, vergi ödəyiciləri ilə qurulmuş yeni münasibətlərdir. Bilirsiniz ki, 2018-ci ildən başlayaraq ümumilikdə səyyar vergi yoxlamalarının sayının azaldılmasına üstünlük verilir. Bu resurslar daha

> *Bütün sivil cəmiyyətlərdə qəbul olunduğu kimi, vergi öhdəliklərinin hər bir vergiödəyicisi tərəfindən tam həcmdə, istisnasız qarşılanması tələbi irəli sürülüb.*

çox vergiödəyicisinin maariflənməsinə, ona xidmət göstərilməsinə yönəldilib. Nəticədə, könüllü vergi əməletməsi əhəmiyyətli dərəcədə artıb. Əgər ötən illərdə vergi daxilolmalarının böyük hissəsi səyyar vergi yoxlamaları nəticəsində baş verirdisə, bu il həmin dinamika əhəmiyyətli dərəcədə dəyişib. Lakin bu, o demək deyil ki, vergi orqanları vergi sahəsində olan qanun pozuntularına göz yumur və ya göz yummaq niyyətindədir. Tam əksinə. Biz yoxlamaların sayını azaltmaqla qanun pozuntularına görə məsuliyyətin artırılması yolu ilə gedirik. Buna da əsasımız var. 2019-cu ildən bir çox sahələrdə vergi yükü azaldılıb. Eyni zamanda, bütün sivil cəmiyyətlərdə qəbul olunduğu kimi, vergi öhdəliklərinin hər bir vergiödəyicisi tərəfindən tam həcmdə, istisnasız qarşılanması tələbi irəli sürülüb.

Nəhayət, üçüncüsü, vergi inzibatçılığının səmərəliliyinin artırılması məqsədilə bir çox sahələrdə və klasterlərdə sistemli tədbirlər həyata keçirilib. Nümunə olaraq aksizli malların klasterini, klinikaları, pərakəndə ticarət, ictimai iaşə sektorunu, daş, qum, çınqıl karxanalarını qeyd edə bilərəm. Əvvəllər bu və digər sahələrdə sistemli şəkildə rast gəlinən boşluqlara, bu klasterlərdə fəaliyyət göstərən əksər, bəlkə də bütün vergi ödəyiciləri tərəfindən yol verilən eyni vergi pozuntularına bir çox hallarda göz yumulurdu. Beləliklə, vergi inzibatçılığının təkmilləşdirilməsi müsbət amillərdən biridir.

*– Daxilolmalarda neftin qiymət amilinin nə dərəcədə rolu var?*

– Neftin qiymətinin təsirləri var, lakin həlledici deyil. Əgər rəqəmlərə diqqət yetirsək, burada 2 məqamı qeyd etmək vacibdir. Birinci məqam ondan ibarətdir ki, əgər neftin qiymətlərinin təsiri ilə neft sektorundan artıq yığılan vergi məbləği proqnozlara nisbətən təxminən 50 milyon manat civarındadırsa, qeyri-neft sektorunda bu məbləğ 220 milyon manata yaxındır.

İkinci məqam ondan ibarətdir ki, ümumilikdə qeyri-neft sektorundan toplanan vergilərin həcmi bütün vergi daxilolmalarının 69 faizini təşkil edir, 30 faizdən bir



QRAFİK 1

QRAFİK 2




qədər artıq hissəsi isə neft sektorunun payına düşür *(Qrafik 2)*. Bu da, hesab edirəm ki, iqtisadiyyatda baş verən sağlam proseslərin dinamikasını çox gözəl şəkildə əks etdirir. Həmçinin qeyri-neft sektorundan daxilolmaların ¾ hissəsini və ya 75 faizini özəl sektor təmin edir. Bu da iqtisadiyyatı müsbət xarakterizə edən amillərdəndir.

Fikrimcə, ən önəmli məsələlərdən biri, bu yığımlar nəticəsində dövlətin öz sosial xərclərini artırmasına imkan yaranmasıdır. Bunu bir neçə dəfə Prezident İlham Əliyev də çıxışlarında səsləndirib. Biz artıq ilin əvvəlindən həm sosial müavinətlərdə artımların baş verməsinin, həm əhalinin banklara olan borcları ilə bağlı məsələnin köklü şəkildə həllinin şahidi olmuşuq. Burada şəhid ailələrinə edilən yardımları, tələbələrin təqaüdlərinin artırılmasını da qeyd etmək olar.

Sualınıza cavab olaraq qeyd etmək istəyirəm ki, ölkəmizdə təbii ki, neft-qaz sektorunun rolu müstəsnadır və çox vacibdir. Lakin son illər ərzində dövlətin siyasəti qeyri-neft-qaz sektorunun inkişafına yönəlib. Dövlət investisiyalarının əsas istiqaməti və məqsədi, biznes mühitinin təkmilləşdirilməsində həyata keçirilən islahatların da fəlsəfəsi bundan ibarətdir. Biz çox şadıq ki, vergi daxilolmalarının dinamikasında da rəqəmlər bunu əks etdirir.

*– Biznesin fəaliyyətinin leqallaşdırılması buna nə dərəcədə təsir etdi?*

– Bu, ən vacib amillərdən biridir. Çünki həyata keçirilən vergi islahatlarının əsas məqsədi məhz “kölgə iqtisadiyyatı”nın azaldılmasından, “kölgə”də fəaliyyət göstərənlərin “kölgə”dən çıxmasından ibarət idi. Lakin vurğulamalıyıq ki, qeyd olunan problemin tam həlli və yaxud köklü həlli barədə bu gün danışmaq çox tezdir.

Biz işimizi vergi ödəyicisi ilə münasibətin təbiətinin dəyişdirilməsi üzərində qururuq. Çünki istənilən dəyişiklik yalnız o halda dönməz olur ki, bu dəyişikliklərə “qol gücü”, inzibati resurs hesabına deyil, münasibətin təbiətinin dəyişdirilməsi, şüurlu, təfəkkürlü qarşılıqlı münasibətin qurulması hesabına nail olunsun. Bu da təbii olaraq həm uzun, həm də bir çox hallarda çətin yoldur.

Bu ilin 4 ayında çalışmışıq ki, vergi ödəyicisi özü biznesini leqallaşdırsın və “kölgə”dən çıxsın. Biz yenə də buna imkan verəcəyik. Azərbaycan Prezidentinin təşəbbüsü ilə Vergi Məcəlləsinə edilən dəyişikliklər paketinə belə bir yenilik əlavə olunub ki, əksər biznes sahələrində baş verən və “kölgə” mahiyyəti daşıyan pozuntular ilk dəfə aşkarlandıqda sahibkara maliyyə sanksiyası deyil, xəbərdarlıq edilir.

Fikrimcə, bu, açıq və aydın şəkildə dövlətin siyasətini əks etdirir. Yəni, burada məqsəd heç bir şəkildə cərimə və sanksiya ilə deyil, ilk növbədə, vergiödəyici-



sinə onun yol verdiyi pozuntunu göstərərək, şüurlu şəkildə aradan qaldırması üçün daha bir şans verməkdir. Amma bu baş vermədiyi təqdirdə, təbii ki, bütün məsələlər hüquqi çərçivədə həll edilməli və dövlətin qanunlarına riayət olunmalıdır. Dövlət orqanlarının və konkret olaraq Vergilər Nazirliyinin işi məhz bundan ibarətdir. Bunun üçün bizim həm səlahiyyətimiz, həm peşəkar bacarıqlarımız mövcuddur. Leqallaşma könüllü şəkildə baş vermədiyi halda, biz öz səlahiyyətlərimizdən istifadə edirik.

Ona görə də, sualınıza qısa cavab olaraq deyə bilərəm ki, hazırda biz leqallaşmanın səmərəsini qismən görürük. Lakin mən inanıram ki, biz bu səmərəni daha aydın şəkildə görəcəyik. Biz bir neçə sahədə bu prosesin daha surətlə getdiyini müşahidə edirik. Məsələn, pərakəndə və topdansatış ticarət, ictimai iaşə, qida məhsullarının satışı kimi sahələrdə vergi dövriyyələrinin artım templəri çox yüksək olub – bəzi hallarda 30 faiz, bəzi hallarda isə 50-55 faiz. Bu inanılmaz artım tempidir. Əslində, bu, bazarda olan "kölgə səviyyəsi"nin və həmin klasterlərdə fəaliyyət göstərən vergiödəyicilərinin hansı həddə "kölgə"də olmasının göstəricisidir. Qeyd etdiyim kimi, bu proseslər davam etdiriləcək.

*– Məcəlləyə edilən dəyişikliklərdən sonra gəlir vergisi ən çox müzakirə olunan mövzulardan biridir. Gözlənilən nəticə əldə olunubmu?*

– Təsadüfi deyil ki, bu, ən çox müzakirə olunan mövzulardan biridir. Çünki qanunvericiliyə edilmiş dəyişiklik çox cəsarətli bir addım idi. Mən xatırlatmaq istəyirəm ki, bu addımın nəticəsində özəl qeyri-neft sektorunda əmək müqaviləsinə əsasən fəaliyyət göstərən hər bir muzdlu işçi çox əhəmiyyətli dərəcədə vergi güzəşti əldə edib. Ayda 8 min manata qədər gəlir səviyyəsi olan fiziki şəxslərin gəlir vergisi 0 faizə endirilib. Bu, bir tərəfdən vətəndaşlara və qeyri-neft sektorunun inkişafına, digər tərəfdən, leqallaşma prosesinə verilən töhfədir. Nəhayət, bu dəyişiklik əhalinin orta və uzun müddətdə sosial müdafiəsinin gücləndirilməsinə yönəldilən addımdır. Çünki on minlərlə vətəndaşımız faktiki olaraq muzdlu işçi kimi çalışıb, ancaq əmək müqavilələri, ümumiyyətlə, mövcud olmayıb. Bəzi hallarda əmək müqavilələri mövcud olub, amma real əməkhaqları göstərilməyib.



*Çalışmışıq ki, vergi ödəyicisi özü biznesini leqallaşdırsın və "kölgə"dən çıxsın.*

Cari ilin 4 ayı ərzində muzdlu işçilərin sayı 80 min nəfərdən çox artıb. Bu artımın böyük hissəsi – təxminən 56 min yeni müqavilə qeyri-neft sektorunun payına düşür. Düşünürəm ki, bu rəqəmlər islahatın səmərəsinin erkən aylardan özünü aydın şəkildə göstərdiyini deməyə əsas verir.

Bununla yanaşı, işəgötürənlər tərəfindən ödənilən sığorta haqqı yükü faiz olaraq azaldılıb, işçilər üçün isə bir qədər artırılıb. Burada da əsas məqsəd ondan ibarət olub ki, biz işəgötürənlərə əlavə fiskal stimul təqdim edək ki, onlar real əməkhaqlarının bəyan edilməsinə getsinlər. Söhbət yenə də könüllü əməletmə ilə bağlıdır. 2019-cu ilin 4 ayını ötən ilin eyni dövrü ilə müqayisə etdikdə görərik ki, sosial ödəmələr üzrə 200 milyon manatdan çox vəsait toplanıb. Düşünürəm ki, bu da sosial ehtiyacların ödənilməsində əhəmiyyətlidir.

*– Yeri gəlmişkən, 2019-cu ildən etibarən sığorta ayırmalarının toplanması prosesi Vergilər Nazirliyinə həvalə edilib. Bu gün üçün hansısa nəticələrdən danışmaq olar?*

– Yanvarın 1-dən bu yığımların inzibatçılığı Vergilər Nazirliyinə həvalə olunub. Mən fürsətdən istifadə edərək qeyd etmək istəyirəm ki, biz 2018-ci ilin sonundan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindəki həmkarlarımızla bu proseslərdə yaxından çalışmışıq. Qısa müddət ərzində bu keçidi uğurla başa çatdıra bilmişik. Doğrudur, yanvar-fevral aylarında müəyyən çətinliklər yaranmışdı. Lakin bütün çətinliklər artıq aradan qaldırılıb. İnanıram ki, vergiödəyiciləri üçün daha rahat bir sistem yaradılıb. Çünki onlar müxtəlif dövlət qurumları ilə deyil, bir dövlət orqanı ilə ünsiyyətdə olurlar. Sığorta yığımları üzrə daxilolmaların artımı bu islahatın da səmərəliliyinə nail olunduğunu tam şəkildə əks etdirir.

*– Aksizli mallara nəzarət güclənib. Nə üçün məhz aksizli məhsullara?*

– Bu proseslərə, əslində, 2018-ci ildən başlamışıq. Bunun bir neçə səbəbi var. Birincisi, alkoqollu içkilər və tütün məmulatları klasterlərində fəaliyyət göstərən istehsalçılar arasında fiskal intizam arzuolunan səviyyədə deyildi. Bu, dövlət büdcəsi üçün əhəmiyyətli itkilərə gətirib çıxarırdı. Nəticədə, biz alkoqollu içkilərin istehsalçıları üzrə dövriyyələrin 1,8 dəfə artımına nail olmuşuq. Halbuki həmin içkilərə tətbiq olunan aksizin dərəcəsi dəyişməyib. Büdcə daxilolmaları üzrə isə 3,2 dəfə artım qeydə alınıb. Tütün məmulatlarına gəlincə, burada istehsalçılar üzrə dövriyyələrin 7,9 dəfə artımını müşahidə edirik. Bunun obyektiv səbəbi də var. Bu da ondan iba-

rətdir ki, ilin sonunda ölkədə yeni böyük istehsalçı fəaliyyətə başlayıb. Buraya böyük sərmayələr qoyulub, yeni iş yerləri açılıb. Öz növbəsində büdcə daxilolmaları 6,8 dəfə artıb *(Qrafik 3)*.

İkinci səbəb ondan ibarətdir ki, bir çox ölkələrdə bu tip məhsul qaçaqmalçılar, qeyri-qanuni istehsalçılar üçün çox cəlbedici məhsullar sırasındadır. Bu sektorlarda qeyri-qanuni hərəkətlər nəticəsində əldə edilə bilən gəlir marjası cinayətkarları bu sahəyə cəlb edir. Azərbaycan da bu baxımdan istisna deyil. Təbii olaraq biz bunu dözülməz hal kimi qəbul edirik. Görülən tədbirlər nəticəsində Azərbaycanın istehlak bazarında aksizsiz məhsulların satışının qarşısı əhəmiyyətli dərəcədə alınıb.

Bir məqamı xüsusilə vurğulamaq istəyirəm. Bu, yalnız aksizlərə deyil, hər bir klasterə, hər bir vergiödəyicisinə aiddir. Qanunlar çərçivəsində işləmək, öz fəaliyyətini şəffaf qurmaq, qanunvericilikdə nəzərdə tutulan vergini ödəmək vergidən yayınmaqla və qaçaqmaçılıqla məşğul olmaqdan daha düzgün yoldur.

Bu siyasət tək bir dövlət orqanının fəaliyyəti ilə məhdudlaşmamalıdır. Burada ictimai nəzarətin də güclü olması vacibdir. Müvafiq sahələrdə fəaliyyət göstərən klasterlərin nümayəndələrinin, biznes təşkilatlarının da rolu çox vacibdir. Məhz buna görə də, Azərbaycanda fəaliyyət göstərən sərmayədarlar, biznesləri birləşdirən müxtəlif təşkilatlar, xarici ölkələrin ticarət palataları ilə fəaliyyətimizi bundan sonra da əlaqəli şəkildə quracağıq. Gələcəkdə bu məsələlər ətrafında fikir mübadiləsini davam etdirəcəyik.

*– Siz bir qədər əvvəl qeyd etdiniz ki, biznesdə sahibkarlarla münasibətlər həm qanun çərçivəsində, həm də Vergilər Nazirliyinin fəaliyyəti baxımından çox humanist və xoş məram nümayiş etdirilərək qurulur. Ümumiyyətlə, biznesdə münasibətlərin tənzimlənməsi və daha da yaxşılaşdırılması üçün gələcək planlar nədir və 2019-cu ildə nə gözləmək olar?*



*Pərakəndə və topdansatış ticarət, ictimai iaşə, qida məhsullarının satışı kimi sahələrdə vergi dövriyyələrinin artım templəri çox yüksək olub.*

– Mən humanizm məsələsinə xüsusi toxunmaq istəyirəm. Bilirsiniz ki, dövlət siyasətində humanizm var və bu, daim olacaq. Lakin biz hər zaman xatırlamalıyıq ki, humanizm qanuna və qaydaya riayət edən cəmiyyətlərin xüsusiyyətidir. Humanizm birtərəfli yol deyil. Dövlət tərəfindən real çətinlik, real obyektiv vəziyyət tanınaraq hansısa bir addım, güzəşt, borcun ödənilməsində kömək kimi birdəfəlik addımlar atılır. Lakin bundan sonra da güzəştlərin müqabilində vətəndaşdan, vergi ödəyicisindən qanunlara tam riayət edilməsi gözlənilir.

Biz bu sahədə dəyişikliklərə özümüzdən başlamışıq. Vergilər Nazirliyinin işçilərinin mütləq əksəriyyəti layiqli dövlət qulluqçusu, öz peşə vəzifələrini bacarıqla və ləyaqətlə həyata keçirən insanlardır. Lakin son ilyarım ərzində bir çox işçilərlə yollarımızı ayırmışıq. Bu müddət ərzində Vergilər Nazirliyində çalışan 15 əməkdaşa münasibətdə yalnız əmək müqavilələrini dayandırmamışıq, həm də onların fəaliyyətinin müvafiq hüquq-mühafizə orqanları tərəfindən araşdırılması üçün aidiyyəti üzrə təqdimatlar vermişik. Çünki bu daxili təmizləmə prosesləri olmasa, bizim vergi ödəyicisinə "qanuna riayət elə, qanunla yaşa, dünənki əyri yollardan əl çək" kimi mesajımız, məncə, inandırıcı olmaz və lazımi səməreni verməz.

Gələcək addımlar baxımından qarşımızda duran strateji məqsədləri iki istiqamətə bölərdim. Birinci strateji istiqamət ondan ibarətdir ki, qanunvericilikdə edilmiş bir çox dəyişikliklər vergi inzibatçılığının daha da təkmilləşdirilməsini tələb edir. Ona görə bizim yerli vergi orqanlarımız öz fəaliyyətini qanunvericiliyin tələblərinə uyğun qurmalıdır.

Digər məsələ isə vergiödəyiciləri tərəfindən yeni reallığın qəbul edilməsidir. Yeni vergi çərçivəsi, qeyd etdiyim kimi, vergidən

QRAFİK 3




azad edilmə, vergi dərəcəsinin aşağı salınması kimi birtərəfli yol deyil, bunun müqabilində qanuna uyğun olaraq fəaliyyət göstərməkdir. Əgər sahibkar obyektiv çətinliklərlə rastlaşırsa, Vergilər Nazirliyi onun birinci ünvanıdır, ona müvafiq xidmət təqdim etmək bizim borcumuzdur. Lakin

*Bundan sonra da güzəştlərin müqabilində vətəndaşdan, vergi ödəyicisindən qanunlara tam riayət edilməsi gözlənilir.*

qanuna riayət etməyən, vergidən yayınma ilə məşğul olan vergi ödəyiciləri üçün, təbii olaraq, qanunda nəzərdə tutulan bütün sanksiyalar tətbiq ediləcək.

Bu, davamlı bir işdir. Yenə də vurğulayıram, bu iş nə bir günə, nə bir aya başa çatmayacaq. Amma biz necə çətin bir yola çıxdığımızı bilirik. Tam əminliklə deyə bilərəm ki, bu yolu uğurla başa çatdırmaq üçün bizim nazirliyin həm peşəkarlığı, həm də güclü iradəsi mövcuddur. Biz bu yolda tək deyilik. Əksər vergi ödəyiciləri məhz bu prinsiplə yaşamaq istəyir. Biz bütün hədəflərə birlikdə nail ola biləcəyik.

*– İstər sosial mediada, istər kütləvi informasiya vasitələrində, istərsə də şəhərin mərkəzi küçələrində Vergilər Nazirliyinin "Birlikdə kölgədən işığa doğru" adlı şüarına rast gəlmək olar. Burada əsas açar sözlər kölgə, işıq və birlikdir. Bu o deməkdirmi ki, Vergilər Nazirliyi özü də "kölgə"dən çıxmaq istəyir?*

– Hər hansı bir problemi həll etmək istəyiriksə, o problemi tanımalıyıq. Əgər biz həmin problemi düzgün müəyyən etmiriksə və tanımırıqsa, problemin həlli şansı sıfıra bərabərdir. Ona görə biz qəbul etməliyik ki, bir il yarım əvvələ qədər müşahidə etdiyimiz vəziyyətin formalaşmasında tək bir tərəfi günahlandırmaq haqsızlıq olardı. Burada vergi ödəyicisi məsuliyyət daşıdığı kimi, vergi orqanı da məsuliyyət daşıyır. Bu məsələlər ətrafında kifayət qədər danışılıb və kütləvi informasiya vasitələrində də işıqlandırılıb. Qeyd etdiyim kimi, bu, daimi bir prosesdir və davam etdiriləcək. Biz məhz birlikdə işıqlı, aydın və şəffaf iqtisadi fəaliyyətlə, fiskal nizam-intizamla fəxr edəcəyik. Çünki bundan hər bir vətəndaş, bütövlükdə müstəqil Azərbaycan dövləti faydalanacaq. İqtisadiyyatı güclü, büdcə imkanları geniş olan dövlət və cəmiyyət bunu təhsilin keyfiyyətində də, yolların rahatlığında da, elektrik enerjisinin fasiləsiz təminatında da, qüdrətli orduda da, cəmiyyətin firavan və azad yaşamasında da görür. Biz də bu istiqamətdə üzərimizə düşən funksiyaları yerinə yetirməliyik.





# Məmməd Musayev:
# Azərbaycan iqtisadiyyatında sahibkarlar əsas aparıcı qüvvə sayılır

***Müsahibimiz Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayevdir***

*– 25 Aprel "Sahibkarlar Günu"dür və Sizin təəsüratlarınızı bilmək istərdik.*

– Öncə 25 Aprel "Sahibkarlar Günu" munasibətilə Azərbaycanda və Azərbaycandan kənarda fəaliyyət göstərən bütün sahibkarları təbrik edirəm. Bu günün təsis edilməsi cənab prezident İlham Əliyev tərəfindən biz sahibkarlara bəxş edilən böyük bir bayramdır ona görə də mən fürsətdən istifadə edərək, sahibkarlar adından hörmətli prezidentimiz İlham Əliyevə, birinci vitse-prezidentimiz Mehriban xanıma təşəkkürümü bildirirəm. Mən bu tarixin yaranmasına toxunmaq istərdim, 2002-ci il, aprelin 25-də ulu öndər Heydər Əliyev Azərbaycanda işləyən sahibkarları qəbul etdi, açıq bir görüş oldu, mən də o tarixi günun canlı şahidi olmuşam. Hamı sərbəst şəkildə öz problemlərini dilə gətirdi, hətta kiməsə söz verməyə vaxt çatmayanda tapşırıq vermişdi, problemi qeyd edib orada yerləşdirilən qutuya ata bilərdi. Dedi ki, hər kəs – kimin nə sözu varsa yazsın, heç adını göstərməsin ki, birdən sonra nazirlər problem yarada bilər. Daha sonra məktublar ümumiləşdirildi və hamıya cavab verildi. Mən deyərdim ki, 2002-ci il, 25 Aprel sahibkarlarla, özəl sektorla dialoq baş tutdu. Bundan sonra xarici sahibkarlarla görüş keçirildi və ölkəmizdə sahibkarlığın inkişafı üçün islahatlar aparıldı. Hazırda bu prosesi cənab prezident İlham Əliyev ugurla davam etdirir. Təsadüfi deyil ki, əgər mustəqilliyimizin ilk illərində Azərbaycanda sahibkarlığın payı hətta 1 faizdən az idisə, sahibkarlıq formal xarakter daşıyırdısa, indi Azərbaycanda iş adamları boyük bir sinfi əhatə edir. 1 aprel 2019-cu il tarixinə qeydiyyatdan keçən 996 min 296 sahibkarlıq subyekti var bu sahibkarın yarısı aktiv fəaliyyətlə məşğuldur. Onlardan 133 min 541-i müəssisə və 862 min 755-i isə fərdi sahibkarlıq subyektidir. Azərbaycanda qeydiyyatda olan müəssisələrin 90.9%-i və ya 121 min 336-sı xüsusi müəssisələrdir. Bu onu göstərir

ki, Azərbaycanda sahibkarlığın inkişafına böyük önəm verilir.

Qeyd edim ki, bazar iqtisadiyyatına keçid özəl sektorun inkişafını zəruri etmişdir və ulu öndərin əsasını qoyduğu sosial iqtisadi inkişaf konsepsiyasının əsas mərkəzində sahibkarlığın inkişafi dayanırdı. Cənab prezident İlham Əliyev tərəfindən bu siyasət uğurla davam etdirilir və ölkə başçısının vurğuladığı kimi, ölkənin gələcək inkişafı sahibkarlığın inkişafından asılıdır. Bu günə qədər həyata keçirilən islahatlar, görülən tədbirlər dövlət və biznes arasında munasibətlərin təkmilləşdirilməsi ölkənin biznes və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində kompleks tədbirlər sahibkarlıqla məşğul olmaq istəyən insanları daha da həvəsləndirmiş və özəl sektorun canlanmasına gətirib çıxarmışdır. Özəl sektorun ümumi daxili məhsulda əldə etdiyi nəticələr göstərir ki, Azərbaycan iqtisadiyyatında özəl sektor əsas qüvvəyə çevrilmişdir. Artıq ümumdaxili məhsulda özəl sektorun payı 85 faizə çatmışdır, məşğulluqda isə 76 faiz təşkil edir, yəni bu rəqəm onu göstərir ki, bu günə qədər həyata keçirilən tədbirlər nəticədə özəl sektorun güclənməsinə və iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilməsinə səbəb olmuşdur. Bu isə ölkədə özəl sektorla yaradılan dialoqun ən yaxşı nümunəsidir.

– *Azərbaycanda sahibkarlıq subyektləri iqtisadi inkişafa hansı töhvələri verir?*

– Son 15 ildə Azərbaycan iqtisadiyyatı dünyada ən sürətlə inkişaf etmiş iqtisadiyyatdır. Bildiyiniz kimi, Azərbaycan prezidenti İlham Əliyev 2019-cu ilin birinci rübünün nəticələri üzrə Nazirlər Kabinetinin iclasında yeni iqtisadi modelin anonsunu verdi. Yeni iqtisadi model 2021-2025-ci illəri əhatə edəcək və yeni strategiya hazırlanacaq. Azərbaycan prezidenti iclasda sahibkarları narahat edən bir çox məsələlərə toxundu. Artıq ümumdaxili məhsulun üçdə ikisi qeyri-neft sektorunda yaradılır. Ölkəmizdə əlverişli biznes mühiti yaradılıb və son illərdə aparılan islahatlar, yoxlamaların dayandırılması, lisenziyaların sadələşdirilməsi, vergi-gömrük sistemində baş verən islahatlar, dövlətin təşviqedici tədbirləri sahibkarlığın inkişafına böyük dəstək verir. Təsadüfi deyil ki, Dünya Bankının hesabatında Azərbaycan 32 pillə irəlilədi və 25-ci pillədə qərar tutdu. İndiqatordan biri biznesin qeydiyyatıdır və hazırda elektron formatda qeydiyyatdan keçmək mümkündür. Aqroparkların, sənaye məhəllələrinin formalaşması, torpaqların icarəyə verilməsi və infrastrukturun yaradılması biznes üçün əlverişli imkanlar açır. Mən xüsusən də ixrac üçün yaradılan şəraiti xüsusi vurğulamaq istəyirəm, çox qısa müddətdə, yəni 2015-dən 2019-cu ilədək Azərbaycandan ixracın coğrafiyası köklü surətdə dəyişdi. Yəni, biz 2015-ci ilədək əsasən neft-qaz ixracatçısıydıq, bu gün artıq qeyri-neft sektorundan gələn gəlirlərin həcmi artır və iqtisadiyyatın şaxələndirilməsi, dayanıqlı olması üçün dövlətimizin həyata keçirdiyi islahatlar əminəm ki, öz müsbət nəticəsini verəcək.

Bu sahədə novbəti addımımız orta sahibkarlığın inkişafıdır, çünki bunun həm sosial, həm də iqtisadi tərəfləri var. Sosial məsələdir ona görə ki, insanlar işlə təmin olunur, iqtisadi tərəfdən isə insanlar gəlir əldə edirlər, vergi verirlər və nəticədə ölkə inkişaf edir. Bunun üçün dövlət və özəl sektor çox böyük dialoq formasında, iç-içə gərgin çalışmalıdır.

– *Sahibkarlara dövlət dəstəyi kimi hansı islahatları qeyd edə bilərik?*

– Ümumiyyətlə, sahibkarlığa göstərilən dövlət dəstəyini bir neçə istiqamətlərdə qruplaşdırmaq olar. Bunlardan biri dövlət tənzimlənməsi sahəsində aparılan islahatlardır, yəni sahibkarların üzləşdiyi inzibati prosedurların, inzibati baryerlərin sadələşdirilməsi ilə bağlı aparılan islahatlar nəzərdə tutulur. Bunlardan xüsusilə qeyd etmək lazımdır ki, sahibkarların ən çox üzləşdiyi inzibati proseduralardan biri yoxlamalar prosesi idi. 2021-ci ilə qədər vergi və insan həyat və sağlamlığı ilə bağlı xüsusi ilə prioritet sahələri çıxmaq şərti ilə yoxlamalar dayandırılmışdır. Sahibkarların üzləşdiyi inzibati proseduralardan biri lisenziyalar və icazələrdir. Bu sahədə aparılan islahatlar nəticəsində lisenziyaların sayı, lisenziya tələb olunan fəaliyyətlərin sayı 59-dan 37-yə endirilib. Sahibkarların lisenziya alarkən çəkdiyi xərclər Bakı şəhəri üzrə 2 dəfə, regionlar üzrə 4 dəfə aşağı salınıb. Bu artıq onların fəaliyyətə başlayan zaman çəkdiyi xərclərin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarmışdır. Lisenziyanın verilməsi üçün müddət 15 gündən 10 iş gününə endirilmişdir və müddətsiz verilməsi müəyyən edilmişdir. Bundan başqa, icazələrin sayı 4 dəfə təxminən azaldılaraq 330-dan 86-ya endiril-

*2015-dən 2019-cu ilədək Azərbaycanda ixracın coğrafiyası köklü surətdə dəyişdi.*



mişdir ki, bu da xüsusilə bu sahədə icazə alan şəxslərin, sahibkarların vəziyyətini xeyli dərəcədə yüngülləşdirmişdir. Bundan başqa, kiçik-orta sahibkarlığın inkişafı ilə bağlı dövlət tərəfindən əhəmiyyətli islahatlar həyata keçirilmişdir. Bunlardan qeyd etmək lazımdır ki, sahibkarlara mikro, kiçik, orta sahibkarlıq subyektlərinə göstərilən dövlət dəstəyinin ünvanlılığını təmin etmək üçün nazirlər kabinetinin qərarı ilə mikro, kiçik, orta sahibkarların və iri sahibkarların meyarları müəyyən olunmuşdur. Dövlət dəstəyinin daha da təkmilləşdirilməsi və sahibkarların maliyyə resurslarına çıxış imkanlarının artırılması, xüsusilə kiçik-orta sahibkarlıq subyektlərinə yönələn dövlət dəstəyi tədbirlərinin daha mütəşəkkil formada ünvanlı şəkildəçatdırılması məqsədi ilə İqtisadiyyat Nazirliyinin nəzdində Kiçik Orta Biznesin İnkişafı Agentliyi yaradılmışdır. Sahibkarların maliyyə resurslarına çıxış imkanlarının artırılması, sahibkarların infrastruktur təminatının yaxşılaşdırılması da mühüm addımlardan biridir. Bundan başqa, investisiyanın, ölkə daxilində investisiya qoyuluşunun təşviq edilməsi məqsədi ilə investisiya təşviqi mexanizminin yaradılması, ixrac coğrafiyasının genişləndirilməsi məqsədilə ixrac missiyaları, xarici ölkələrdə ticarət nümayəndələrinin təyin olunması, ticarət evlərinin, şərab evlərinin açılmasını qeyd edə bilərik.

*– Regionların 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edildi. Regionlarda sahibkarlığın inkişafı ilə bağlı hansı tədbirlər görülür?*

– Ölkəmizin vergi, gömrük sistemlərində və digər sahələrdə həyata keçirilən əsas islahatların başlıca hədəflərindən biri də Azərbaycanda sahibkarlığı inkişaf etdirməkdir. Son illərdə müasir tələblərə cavab verən infrastrukturun yaradılması, ən yeni texnologiyalara əsaslanan müəssisələrin fəaliyyətə başlaması, sahibkarlığın dəstəklənməsinin hər birimiz şahidiyik. Ölkəmizdə bölgələrin inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının icrası böyük əhəmiyyət kəsb edir.

Statistik məlumatlara əsaslansaq, təkcə 2018-ci ildə Azərbaycanda 87 min 600 nəfər vergi orqanlarında qeydiyyata alınıb ki, bunların da 50,4 faizi məhz regionlarda yaradılan sahibkarlıq subyektləridir. Əlbəttə, bu sevindirici haldır və regionların inkişafı, region sahibkarlığının faizinin artması ölkəmizin ümumi tərəqqəsinə əminəm ki, mühüm töhvələr verəcək. Biz bu yaxınlarda Ağstafa rayonunda 3-cü regional forum keçirdik. Qazax, Tovuz və Ağstafa rayonundan olan sahibkarlara islahatlarla bağlı geniş məlumat verildi. Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Qida Təhlükəsizliyi Agentliyi, DOST Agentliyi, Dövlət Reklam Agentliyinin təqdimatları dinlənildi. Azərbaycanda iqtisadi islahatlar çox sürətlə davam edir və bunların sahibkarlara çatdırılması böyük bir enerji tələb edir. Azərbaycan Sahibkarlar Konfederasiyası bu sahədə mühüm işlər aparır və istərdik ki, digər qurumlar da bizimlə bir yerdə bu islahatları sahibkarlara çatdırsın. Sahibkarların maarifləndirilməsi çox vacibdir, bəzən hətta etiraf edək ki, sahibkarlar bu islahatların tempinə uyğunlaşa bilmirlər, çünki islahatlar çox sürətlə gedir və çoxsahəli olduğundan onların tətbiqi baxımından çətinliklərlə üzləşirlər. Hesab edirəm ki, sahibkarların maarifləndirilməsi istiqamətində biz böyük işlər görməliyik, bu uğurlu islahatlar sahibkarlara çatdırılmalıdır ki, onların fəaliyyətinə də müsbət təsir etsin. Beləliklə, islahatların nəticəsi daha effektiv, daha faydalı olacaqdır.

*İlhamə Abdullayeva*

Vergi-gömrük sistemində baş verən islahatlar nəticəsində Dünya Bankının hesabatında Azərbaycan 32 pillə irəlilədi və 25-ci pillədə qərar tutdu



# Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palatası yaradıldı

*May ayının 17-də Qazaxıstanın paytaxtı Nur-Sultan şəhərində Türkdilli Dövlətlərin Sənaye və Ticarət Palatasının (TTSP) Əsasnaməsinin imzalanma mərasimi keçirildi. Tədbirdə Azərbaycanı Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi səfir Bağdat Amreyevin dəvətinə uyğun olaraq Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti cənab Məmməd Musayev təmsil etdi.*




İmzalanma mərasimində ASK-nın nümayəndə heyəti ilə yanaşı, Qazaxıstanın baş naziri Askar Mamin, Milli İqtisadiyyat naziri Ruslan Dalenov, "Atameken" Qazaxıstan Milli Sahibkarlar Konfederasiyasının İdarə heyətinin sədri Ablay Myrzahmedov, Türkiyə Odalar və Borsalar Birliyinin (TOBB) prezidenti Rifat Hısarcıklıoğlu, Azərbaycanın Qazaxıstandakı fövqəladə və səlahiyyətli səfiri Rəşad Məmmədov və digər rəsmi qonaqlar da iştirak edib.

Türkdilli Dövlətlərin Sənaye və Ticarət Palatasında Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK), Qazaxıstan Respublikası Sahibkarlar Milli Palatası (QRSMP), Qırğız Respublikası Ticarət və Sənaye Palatası (QRTSP), Türkiyə Palatalar və Birjalar Birliyi (TƏMPB), Türkmənistan Respublikası Ticarət və Sənaye Palatası (TSP Türkmənistan), Özbəkistan Ticarət və Sənaye Palatası təmsil olunurlar.

Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palatasının məqsədi Türkdilli dövlətlərin biznes sektorundakı əməkdaşlığı inkişaf etdirmək və bununla iqtisadi inteqrasiyaya, iqtisadi və ictimai inkişafa nail olmaqdır.

Beləliklə, Türkdilli dövlətlərin əməkdaşlıq Şurasının üzv dövlətlərinin bəyannaməsi əsasında Almatada, Bişkekdə, Qəbələdə, Bodrumda, Astanada və Cholpon Ata-da Türkdilli dövlətlər arasında keçirilən zirvə görüşlərinin təşkil olunması qərara alınıb.

Türkdilli dövlətlərin iqtisadiyyatlarının bir-birini tamamlaması faktoru, üzv dövlətlərin biznes icmaları arasında iqtisadi əlaqələrin gücləndirilməsi və türkdilli dövlətlər arasında iqtisadi əlaqələrin inkişafı etdirilməsi əsas hədəflərdəndir.

Qurumun vəzifələri arasında üzv ölkələrin mal və xidmətlərin mübadiləsinə mane olan amilləri, o cümlədən nəqliyyat problemlərini aradan qaldırmaqla, bölgədə ticarətin asanlaşdırılmasını təmin etmək, xarici investisiya yatırımlarının artırılması məqsədilə investisiya mühitinin inkişafına kömək göstərmək və türkdilli dövlətlərin şirkətləri arasında yarana biləcək ticari mübahisələrin həllində yardımlaşma istiqamətləri də var.

Türkdilli Dövlətlərin Sənaye və Ticarət Palatası eyni zamanda Türk Şurası Sammiti müddətində dövlət rəhbərlərinin İqtisadi Şurasının verdiyi təlimatları yerinə yetirmək funksiyası daşıyır.

Qeyd edək ki, Türkdilli Dövlətlərin Sənaye və Ticarət Palatasının yaradılması barədə razılıq 14 dekabr 2018-ci il tarixində Özbəkistanın paytaxtı Daşkənd şəhərində Türkdilli Dövlətlərin Biznes Şurasının rəsmi görüşü zamanı əldə olunmuşdu.



# Naxçıvan Muxtar Respublikasında sahibkarlıq inkişaf etdirilir

Xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəqillik illərində Azərbaycana rəhbərliyi dövründə həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində ölkəmizdə iqtisadi və siyasi sabitlik təmin edilmiş, iqtisadiyyatın dinamik inkişafının əsası qoyulmuşdur. Ulu öndərin iqtisadi sahədə həyata keçirdiyi tədbirlər bazar iqtisadiyyatı mexanizmləri əsasında sahibkarlıq fəaliyyətinin də genişləndirilməsinə səbəb olmuşdur. Həmin dövrdə sahibkarlar sinfinin formalaşması üçün hüquqi bazanın hazırlanması və dövlət tərəfindən verilən hərtərəfli dəstək iqtisadiyyatda özəl sektorun payının yüksələn xətt üzrə artmasına səbəb olmuşdur.

Ulu öndərin siyasi xəttini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev də sahibkarlığın inkişafını prioritet məsələyə çevirmişdir. Bu gün ölkə iqtisadiyyatında sahibkarların rolunun artırılmasına xüsusi diqqət yetirilir. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının uğurlu icrası ölkəmizin davamlı inkişafına, xüsusilə də sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə əlverişli şərait yaratmışdır.

Böyük uzaqgörənliklə işlənib hazırlanmış və həyata keçirilən iqtisadi inkişaf strategiyasının muxtar respublikamızda da uğurla davam etdirilməsi özəl sektorun inkişafına, bu istiqamətdə bir sıra təşkilati, hüquqi və iqtisadi tədbirlərin görülməsinə, biznes fəaliyyəti üçün daha əlverişli mühitin yaradılmasına, yeni müəssisələrin qurulmasına, iş yerlərinin açılmasına səbəb olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə sahibkarlığın inkişafı istiqamətində ardıcıl, səmərəli və sistemli tədbirlər görülmüş, sahibkarlıq subyektlərinə səmərəli maliyyə dəstəyinin göstərilməsi mexanizmi formalaşdırılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" 2002-ci il 30 sentyabr tarixli Fərmanına müvafiq olaraq ardıcıl tədbirlər görülür, sahibkarların hüquqlarının müdafiəsi təmin olunur. Sahibkarlara göstərilən dövlət maliyyə dəstəyinin həcminin ildən-ilə artırılması, bir sıra vergi və gömrük güzəştlərinin tətbiqi sahibkarlıq fəaliyyətinin inkişafına öz təsirini göstərmiş, yeni istehsal müəssisələri fəaliyyətə başlamış və yerli istehsalın həcmi artmışdır. Sahibkarlığın İnkişafı Fondunun xətti ilə güzəştli şərtlərlə kreditlərin verilməsi yeni fəaliyyətə başlayan sahibkarlıq müəssisələri üçün geniş imkanlar açmışdır. Muxtar respublikada idxaldan asılılığın aradan qaldırılması sahəsində görülən tədbirlər də öz faydasını verməkdədir.

> *Bu gün muxtar respublikada istər sənayenin, istərsə də kənd təsərrüfatının inkişafı sahibkarlıq fəaliyyəti üçün yaradılan şərait nəticəsində mümkün olmuşdur.*

Son illər muxtar respublikada yüksək texnologiyalar əsasında maşınqayırma, kimya, mədənçıxarma, mebel, yüngül və yeyinti sənayesi, kənd təsərrüfatı təyinatlı çoxsaylı istehsal və xidmət sahələri yaradılıb. Bu isə öz növbəsində, daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının



alınmasında və idxaldan asılılığın azaldılmasında mühüm rol oynamaqdadır. Sahibkarlarımız aqrar sahənin inkişafına da öz töhfələrini verirlər. Torpaq mülkiyyətçilərinin torpaq vergisi istisna olmaqla bütün növ vergilərdən azad edilməsi, bu sahədə çalışanlara bir sıra güzəştlərin tətbiq olunması, subsidiyaların verilməsi, ailə təsərrüfatlarının fəaliyyətinin dəstəklənməsi öz nəticəsini göstərmiş, məhsul bolluğu yaranmışdır. 2006-cı ildən fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası sahibkarların uğurlu biznes fəaliyyətinə öz dəstəyini göstərməkdədir.

Aparılan iqtisadi islahatların mühüm istiqamətlərindən biri də investisiyaların təşviqi ilə bağlı həyata keçirilən tədbirlərdir. İnvestisiya təşviqi sənədi ölkədə investisiya və biznes mühitinin yaxşılaşdırılmasına, eləcə də stimullaşdırılmasına nail olmaq məqsədi daşıyır. Artıq muxtar respublikada investisiya təşviqi sənədinin tətbiqinə başlanmışdır. Hər il Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sahibkarlarla keçirdiyi görüşlər, onlara verilən kreditlər də sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılmasında mühüm əhəmiyyətə malikdir.

Sahibkarlığa göstərilən qayğı, öz növbəsində, yerli istehsalın inkişafına da şərait yaradır. Yerli istehsalın inkişaf etdirilməsi isə daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının alınmasında və idxaldan asılılığın azaldılmasında mühüm rol oynayır. Məhz bu amil nəzərə alınaraq,



muxtar respublikada iqtisadiyyatın bütün sahələrində yeni istehsal və xidmət sahələri yaradılır, mövcud olanların fəaliyyəti bərpa edilir. 2018-ci ildə muxtar respublikada sahibkarlara 13 milyon 790 min 800 manat kreditlər verilmişdir ki, bu kreditlərdən 5 milyon 736 min 400 manatı yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə, 8 milyon 54 min 400 manatı isə fərdi sahibkarlığın inkişafına sərf olunmuşdur. Nəticədə, 50 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlayıb, ümumi daxili məhsul istehsalında özəl bölmənin xüsusi çəkisi 88 faizi ötüb. Bu dövrdə 30 hüquqi və 2320 fiziki şəxs dövlət qeydiyyatına alınıb. Naxçıvan Muxtar Respublikasında sahibkarlara yaradılan şəraitdən istifadə edərək öz biznesini genişləndirən, yeni istehsal müəssisələri, iş yerləri yaradan, istehsal etdiyi məhsullarla ölkəmizi xaricdə layiqincə tanıdan, ümumilikdə iqtisadi inkişafımıza, xüsusən də özəl sektorun inkişafına töhfə verən belə sahibkarlıq subyektlərinin sayı ilbəil artmaqdadır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2019-cu ilin fevral ayında sahibkarlarla görüşündə demişdir: "Naxçıvan Muxtar Respublikasında sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsidir ki, ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi artaraq 88 faizi ötmüşdür. Hazırda muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir. Bu gün muxtar respublikada istər sənayenin, istərsə də kənd təsərrüfatının inkişafı sahibkarlıq fəaliyyəti üçün yaradılan şərait nəticəsində mümkün olmuşdur. Bir faktı qeyd etmək yerinə düşər ki, hazırda muxtar respublikada məşğul əhalinin 83 faizə yaxını özəl sektorda çalışır. Sənaye sahəsində məhsul istehsalının 94 faizi, tikintidə görülən işlərin və nəqliyyat xidmətinin 78 faizi, ra-



bitə xidmətinin 82 faizi, kənd təsərrüfatı, ticarət və ictimai-iaşə xidmətlərinin isə 100 faizi özəl bölmənin payına düşür ki, bu da çox yüksək göstəricilərdir".

Muxtar respublikanın iqtisadiyyatında əsas yer tutan kənd təsərrüfatının inkişafında da uğurlar vardır. Torpaq mülkiyyətçilərinə hər cür köməklik göstərilməsi, bu sahədə mütərəqqi yeniliklərin tətbiqi diqqətdə saxlanılır. Son illər Naxçıvanda müasir meliorasiya və irriqasiya sistemlərinin qurulması, meyvəçiliyin və tərəvəzçiliyin inkişafına dövlət dəstəyinin göstərilməsi, geniş soyuducu anbar və istixana şəbəkəsinin yaradılması, heyvandarlığın inkişafı üçün kompleks tədbirlərin görülməsi, yüksək gəlirli sahə olan arıçılığa xüsusi diqqət yetirilməsi öz bəhrəsini vermiş, nəticədə, ötən il 480 milyon 21 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2017-ci illə müqayisədə 4,4 faiz çoxdur. 2018-ci ildə muxtar respublikada tütünçülüyün inkişafı üçün tədbirlər görülmüş, Şərur, Babək və Kəngərli rayonlarında, ümumilikdə, 41,5 hektar sahədə tütün əkini aparılmış, 51,5 ton qurudulmuş tütün tədarük edilmişdir ki, bu da 2017-ci illə müqayisədə 4,6 dəfə çoxdur.

*2018-ci ildə təsərrüfat subyektlərinə 336 min 600 manat kredit verilmişdir ki, bu da bir il öncəki göstəricidən 6,7 dəfə çoxdur.*

İqtisadi cəhətdən yüksək gəlir gətirən, qida və müalicəvi baxımdan faydalı təsərrüfat sahəsi olan arıçılığın inkişaf etdirilməsi məqsədilə Ali Məclis Sədrinin Sərəncamı ilə "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. 2018-ci ildə təsərrüfat subyektlərinə 336 min 600 manat kredit verilmişdir ki, bu da bir il öncəki göstəricidən 6,7 dəfə çoxdur. 2016-cı ildən etibarən hər il muxtar respublikada "Arıçılıq məhsulları – bal festivalı"nın keçirilməsi də bu sahəyə marağın artmasına və istehsal olunan məhsulların satışına müsbət təsir göstərmişdir. 2018-ci ildən arıçılıqla məşğul olan hüquqi və fiziki şəxslərə saxladıqları hər arı ailəsinə görə subsidiyaların verilməsi bu sahənin inkişafına stimul yaradacaqdır.

Muxtar respublika iqtisadiyyatının inkişafında ailə təsərrüfatlarının da mühüm rolu var. Ailə təsərrüfatlarının iqtisadi inkişafdakı rolu nəzərə alınaraq muxtar respublikamızda onların fəaliyyətlərinin genişləndirilməsi üçün tədbirlər görülür. Naxçıvanın yüksəkkeyfiyyətli yerli məhsullarının həcm və çeşidinin artırılması muxtar respublikanın istehsal və ixrac imkanlarını daha da genişləndirir. Ailə təsərrüfatları da bu sahədə fəaliyyətlərini genişləndirməklə yaradılmış şəraitdən səmərəli istifadə edirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları" ili elan olunması, bu məqsədlə Tədbirlər Planının təsdiq edilməsi müxtəlif təsərrüfat sahələrində çalışanlar üçün yeni imkanlar açmışdır. 2018-ci ildə muxtar respublikada 319 ixtisaslaşmış ailə təsərrüfatı yaradılmış,





ailə təsərrüfatlarına zəruri dövlət maliyyə dəstəyi göstərilmişdir.

Sahibkarlığın inkişafının dəstəklənməsinin və yaradılan şəraitin nəticəsidir ki, Azərbaycan Respublikası Prezidentinin ilk sədri olduğu "Caspian European Club"un 2018-ci ildə ölkəmizin 10 iqtisadi regionu üzrə hazırladığı illik investisiya reytinqində Naxçıvan Muxtar Respublikası sosial-demoqrafik göstərici, sosial-iqtisadi vəziyyət, işgüzar mühit, infrastruktur, rifahlıq və kənd təsərrüfatı sahələri olmaqla, ümumilikdə 18 parametr üzrə ən yüksək bal toplayaraq ikinci dəfə lider olmuşdur.

Sahibkarlarımızın səmərəli fəaliyyətləri dövlətimiz tərəfindən də yüksək qiymətləndirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 24 may tarixli Sərəncamı ilə üç nəfər naxçıvanlı sahibkarın Azərbaycan Respublikasının iqtisadi inkişafına verdikləri töhfəyə və sahibkarlığın genişləndirilməsi ilə bağlı dövlət siyasətinin həyata keçirilməsində səmərəli fəaliyyətlərinə görə "Tərəqqi" medalı ilə təltif olunması muxtar respublikada fəalyyət göstərən bütün sahibkar təbəqəsi təmsilçilərinin əməyinə verilən qiymətdir.



Sahibkarlığın inkişaf etdirilməsi, dövlətin sahibkara, iş adamına sahib çıxması iqtisadiyyatımızın dinamik inkişafına, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına, yeni iş yerlərinin açılmasına, mövcud ictimai-siyasi sabitliyin daha da möhkəmlənməsinə töhfə verir. Bu

*Torpaq mülkiyyətçilərinə hər cür köməklik göstərilməsi, bu sahədə mütərəqqi yeniliklərin tətbiqi diqqətdə saxlanılır.*

səbəbdən də yaradılan şəraitdən və göstərilən dövlət dəstəyindən səmərəli istifadə etmək, muxtar respublika iqtisadiyyatının inkişafına töhfə vermək sahibkarların qarşısında duran əsas vəzifədir. Azırbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Sahibkarların uğurlu işi bizim hamımızın uğurudur. Azərbaycanın inkişafı bu istiqamətdədir, bu yoldadır".

*Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası*

# RUMINIYA
## AĞILLI İNVESTİSİYA SEÇİMİ



*Rumıniyada sərmayə qoymaq Azərbaycan investorları üçün əlverişli və gəlirli qərardır. Bunun üçün Rumıniyanın malik olduğu bir çox güclü əsaslar vardır.*

Rumıniya Avropanın cənub-şərqində yerləşən 238.391 kvadrat kilometrlik sahəyə malik (Azərbaycanın sahəsindən təxminən 2,5 dəfə çox) orta böyüklükdə bir ölkədir. Əhalisi təxminən 20 milyon təşkil edir (Azərbaycan əhalisindən iki dəfə çox) və paytaxtı əhalisi təxminən 2,5 milyon nəfər olan Buxarestdir. Rumıniya mülayim iqlimə və çox məhsuldar torpaqlara malikdir. O, 3 ən böyük bazarın kəsişməsində yerləşir: Avropa, MDB (Müstəqil Dövlətlər Birliyi) və Orta Şərq.

Rumıniya 2007-ci ildən Avropa İttifaqına üzv dövlətdir. 2019-cu ilin 1 yanvar tarixindən 30 iyun tarixinədək Rumıniya Avropa ittifaqına Sədrlik edəcəkdir. Rumıniya həmçinin, 2005-ci ildən NATO-nun üzvüdür.

Ölkələrimiz üçün ortaq olan bir neçə tarixi faktlar da vardır. Həm Azərbaycan, həm də Rumıniya tarixən imperiyaların kəsişmə nöqtəsində yerləşmişlər – Azərbaycan üçün Fars, Osmanlı və Rusiya, Rumıniya üçün isə Osmanlı, Rusiya və Avstriya-Macarıstan. Hər iki ölkənin 2018-ci ildə 100 illik yubileyi qeyd olunmuşdur – Azərbaycanın müstəqilliyinin 100 illiyi və Rumıniyanın Böyük Birliyinin 100 illiyi. Hər iki ölkə neftlə zəngindir, eləcə də neft hasilatı və neft sənayesinin inkişafına görə dünyada ilklər sırasında olmuşdur. Hər iki ölkədə hazırda modernləşmə və davamlı inkişaf əsas iqtisadi prioritetlərdir və son hədəfi öz vətəndaşlarının həyatını daha da yaxşılaşdırmaq və təhlükəsizliyini təmin etməkdir.



Rumıniya və Azərbaycan 2009-cu ildən Strateji Tərəfdaşlığa malikdirlər. Rumıniya 1991-ci ildə Azərbaycan Respublikasının müstəqilliyini tanıyan dünyada ikinci ölkə olmuşdur.

Bir çox ümumi və güclü siyasi əlaqələr ortamında bir Azərbaycanlı investor özünü Rumıniyada (demək olar ki tamamilə) evindəki kimi hiss etməlidir.

Rumıniya investisiya üçün ağıllı bir seçim ola bilərmi? Bunu sübut edən faktlar vardır:

**Suveren reytinqləri**

| | |
|---|---|
| *S&P* | *BBB Sabit* |
| *Moody's* | *Baa3 Sabit* |
| *Fitch* | *BBB Sabit* |

2017-ci ildə ÜDM artımı: 6.9 % Aİ-da ən böyüyü.

2018-ci il üçün ilkin olaraq (yekun rəqəmlər bu il ərzində veriləcək): 5.5%

| | | |
|---|---|---|
| İstehsalat | 24,250 | 32.0 |
| İnşaat və daşınmaz əmlak əməliyyatları | 11,611 | 15.3 |
| Ticarət | 10,446 | 13.8 |
| Maliyyə vasitəçiliyi və sığorta | 9,398 | 12.4 |
| Elektrik, qaz və su təchizatı | 6,451 | 8.5 |
| Professional, elmi, texniki və inzibati fəaliyyətlər və dəstək xidmətləri | 4,088 | 5.4 |
| İTK | 3,150 | 4.1 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 2,272 | 3.0 |
| Mədənçilik | 1,965 | 2.6 |
| Nəqliyyat | 1,247 | 1.6 |
| Yerləşdirmə və ərzaq xidməti fəaliyyətləri | 449 | 0.6 |
| Digər | 524 | 0.7 |
| YEKUN | 75,851 | 100.0 |

Aşağı inflyasiya dərəcəsi: 1.3% 2017-ci ildə və max. 2.5% 2018-ci ildə

Minimum aylıq brüt əmək haqqı: 408 Avro

Dünya Bankı Rumıniyanı biznes qurmaya görə 45-ci mövqedə yerləşdirir.

1990-cu ildən etibarən Xarici Birbaşa İnvestisiyalar: 75,85 mlrd. Avro; bundan 4,8 mlrd. Avro tək 2017-ci ilə aiddir.

Dünya Bazarının ən böyük isimlərinin əksəriyyəti Rumıniyada mövcuddur.

Rumıniya boyunca 84 saydan çox sənaye bölgələri vardır ki, burada investorlar torpaq, bina və şəhərsalma ilə bağlı yaranan vergilərə asanlıqla güzəştlər və azadolmalar əldə edə bilərlər.

3 milyon Avrodan çox sərmayə yatırımına dövlət yardımının da həyata keçirilməsi mümkündür. 2014-2020-ci illər üçün dövlət yardımının ümumi büdcəsi 1,5 milyard Avro təşkil edir.

Azərbaycan sərmayəsindən təxminən 63 şirkət Rumıniyada mövcuddur. Rumıniyada ən böyük Azərbaycan investoru hazırda 40 yanacaqdoldurma məntəqəsi şəbəkəsi ilə fəaliyyət göstərən və Rumıniya istehlakçıları arasında artıq tanınan, güvənilən və etibar edilən marka olan ARDNŞ-dir (SOCAR).

Getdikcə daha çox sayda Azərbaycanlı investorlar Rumıniya ilə bağlı suallar verirlər. Ümid edirik ki, sadaladığımız arqumentlər tutarlı və faydalı olmuşdur. Biz suallarınızı cavablandırmağa və sizi UĞURA aparan bu yolda istiqamət göstərməyə hazırıq !

*Rumıniyanın Azərbaycan Respublikasındakı Səfirliyi İqdisadiyyat üzrə Müşavirin Ofisi*



# Azərbaycan sahibkarı kimdir, o nə düşünür?



Son bir neçə il ərzində dövlətin qeyri-neft sektoruna diqqəti artıb, xüsusilə də ölkədə fərdi sahibkarlığın dəstəklənməsi gücləndirilib. Azərbaycan sahibkarı kimdir, o nə düşünür, cəmiyyət onu necə təsəvvür edir, o hansı problemlərlə üzləşir?

**Həmsöhbətimizin seçilməsi təsadüfi deyildir. Fəxri Ağayev uzun müddət müxtəlif şirkətlərin rəhbəri olaraq çalışmışdır, hazırda müxtəlif sahələrdə sahibkarların biznes məsləhətçisidir və işadamlarının problemləri barədə məlumatlıdır, müntəzəm olaraq öz bloqunda və sosial şəbəkələrdə bu mövzuda məqalələr yazır. Bununla yanaşı, bir ildən çoxdur ki, sahibkarlar üçün idarəçilik təlimləri keçir.**

*– Görüşümüzün əvvəlində siz qeyd etdiniz ki, Azərbaycanda biznes yeni iqtisadi şərtləri nəzərə almalıdır və yeni reallıqlara uyğunlaşmalıdır. Hansı yeni reallıqları nəzərdə tutursunuz və Azərbaycan biznesi nəyi nəzərə almalıdır?*

– Ölkədə son bir neçə il ərzində bütün sahələrdə birbaşa və ya bilavasitə biznesə təsir göstərən ciddi dəyişikliklər baş vermişdir. Birinci növbədə, bu dəyişikliklər iqtisadiyyata aiddir – iqtisadiyyatda nağd pul dövriyyəsinin həcmi azalıb, kommersiya bankları əhali və şirkətlər üçün kreditin ayrılması məsələsinə çox ehtiyatla yanaşmağa başlayıblar. İkincisi, bu gün biz hökumət strukturlarında ciddi, hətta mən deyərdim, köklü dəyişikliklərin şahidi oluruq, xüsusilə də biznesin sıx əlaqəli olduğu sahədə – Vergilər Nazirliyində. Vergilər istənilən ölkənin iqtisadiyyatının ən həssas və eyni zamanda strateji əhəmiyyətli komponentlərindən biridir. Bu sahədə aparılan islahatlar biznes üçün daha ədalətli mühitin təmin olunmasının vacib təməlidir. Üçüncüsü, istehlakçıların davranışı dəyişib. Bugünkü Azərbaycan istehlakçısı öz hüquqlarını bilən, məhsullar və xidmətlərdən anlayışı olan, bəzən satıcıdan daha məlumatlı olan, qiymətin, malın keyfiyyətinin və xidmət səviyyəsinin düzgün uyğunlaşmasına diqqət yetirən bir şəxsdir. Təbii ki, bütün sadaladığım amilləri nəzərə alsaq, Azərbaycanda biznes də, həmçinin, dəyişməlidir. Daha bir vacib məsələ odur ki, yuxarıda qeyd olunanlar səbəbiylə ölkənin bir çox sahələrində rəqabət artmışdır: şirkətlər daha seçici və tələbkar istehlakçını cəlb etmək uğrunda mübarizə aparırlar.

*– Bəs Azərbaycan biznes sahibi və sahibkarı kimdir? Siz onu necə təsvir edə bilərsiniz?*

– Azərbaycan sahibkarı ölkəmizdə baş verən proseslər çərçivəsində inkişaf edən və dəyişən bir şəxsdir. Rəqabətli mühitdə

o çox şey öyrəndi və gücləndi. Beynəlxalq rəqabətdə təcrübəsi olanların da sayı az deyil. Hazırda ölkəmiz təkamül inkişafının növbəti mərhələsini keçdiyinə görə, Azərbaycan sahibkarı yeni şərtlərə uyğunlaşmaqla yanaşı, maliyyə və mühasibatlıq formatını dəyişdirməlidir, istehlakçıların dəyişkən davranışlarını anlamalıdır, kadrlarla yeni və uzunmüddətli münasibətlər qurmalıdır, şirkətin bütün sahələrinin effektivliyi haqqında düşünməlidir.

*– Sizin fikrinizcə, dövlət qurumları sahibkarlara və biznesə nə cür yardım və dəstək göstərməlidir?*

– Mənim fikrimcə, ilk növbədə, dövlət qurumları və biznes arasında düzgün və müntəzəm əlaqə qurulmalıdır. Hər iki tərəfin mövcud və mümkün olan bütün problemləri müzakirə edə bilməsi üçün daimi əlaqənin qurulması vacibdir.

Mən düşünürəm ki, biznesin inkişafı üçün ali təhsil müəssisələrində tədris olunan fənnlərin keyfiyyətinin yaxşılaşdırılması vacib şərtdir, bunun üçün isə biznes strukturları ilə ali təhsil müəssisələri arasında əməkdaşlığın qurulması tələb olunur, çünki əks halda paradoksal bir vəziyyət yaranır – bir tərəfdən iş yerlərinin olmaması barədə şikayət edən insanların sayı çoxdur, digər tərəfdən, mənim müntəzəm olaraq əlaqə saxladığım şirkətlər tamamilə fərqli vəzifələrə işçi tapa bilmirlər. Bu cür uyğunsuzluğun səbəbi nədir?

Ali təhsilli gənclər çox vaxt müstəqil həyata hazır olmurlar, müasir zəmanəyə görə zəruri olan bilik və bacarıqları olmur. Şirkətlər ali təhsil müəssisələrimizin məzunlarını işə almaqda çətinlik çəkirlər, çünki bəzən onların universitetlərdə aldıqları biliklər aktual olmur. Bu səbəbdən ali təhsil müəssisələrimizin bizneslə sıx əməkdaşlıq etməsi çox vacibdir, bu əməkdaşlığın ən effektiv formalarından biri isə praktiki iş adamlarını universitetə dərs deməyə cəlb etməkdir, çünki məhz onlar ali təhsil müəssisələrindəki gənclərə biznesə aid daha dəqiq və müəyyən bilik verə və onları real biznes həyatına daha yaxşı hazırlaya bilərlər.



*Ali təhsilli gənclər çox vaxt müstəqil həyata hazır olmurlar, müasir zəmanəyə görə zəruri olan bilik və bacarıqları olmur.*

Üçüncüsü, bizim biznesimiz üçün informasiya dəstəyi və konsaltinq vacibdir (seminarların, təlimlərin keçirilməsi, müxtəlif növ təlim materiallarının hazırlanması). Böyük şirkətlər və holdinqlər xaricdən məsləhətçi dəvət edə və ya bahalı yerli mütəxəssislərə müraciət edə bilərlər. Bəs müasir idarəetmə sisteminin yaradılması, CRM sistemlərinin tətbiqi, kadrların və idarəçiliyin inkişafı, müştərilərlə uzunmüddətli əlaqələrin qurulması və s. kimi qiymətli məlumatları əldə etmək üçün kiçik və orta sahibkarlar nə etməli? Mən hesab edirəm ki, idarəetmənin səmərəliliyini artıra biləcək məsləhətçilərin və mütəxəssislərin xidmətlərini dövlət öz institutları vasitəsilə ödəyə bilər.

*– Cəmiyyətdə belə bir fikir yaranıb ki, sahibkarlar çox qazanırlar, yalnız yeni layihələr haqqında düşünürlər, bahalı kurortlarda istirahət edirlər və s. Bu həqiqətən belədirmi?*

– Əslində sahibkarlıq fenomenində belə bir paradoks var, bir insan azad olması üçün öz şirkətini qurur. Lakin bir müddət sonra, şirkətin dövriyyəsi böyüdükdə və şirkət bazarda müəyyən bir yer tutduqda sahibkar azadlığını tamamilə itirir və, demək olar ki, bütün vaxtını, gücünü və enerjisini həmin biznesə yönəldir.

Aşağıda biznes sahiblərinin əsas problemlərini açıqlayıram:

- *Onlar hamıdan çox işləyir;*
- *Sağlamlığına, şəxsi həyatına, inkişafa və təkmilləşməyə ayıracaq vaxtı olmur;*
- *Fəaliyyətlərini genişləndirməyə qorxurlar, çünki şirkətin həcminin artması problemlərin də artmasına səbəb olur;*



- *İşçilərin məsuliyyətsizliyindən və işə səhlənkar yanaşmalarından şikayət edirlər;*
- *İşçi tapmaqda çətinlik çəkirlər;*
- *Şirkətdə bir ildən artıq çalışmış işçilər, özlərini ulduz hesab edirlər və şirkəti şəxsən özlərinə bağlamağa və özündən asılı vəziyyətə salmağa çalışırlar;*
- *İşdən bir neçə saatlığına ayrıldıqda, telefon zəngləri dayanmır;*
- *İdarəetmədə sistemlilik yoxdur;*
- *İllərlə əldən düşənə kimi işləyir, yorulur, və bununla yanaşı bilirlər ki, bunun axırı olmayacaq.*

Əminəm ki, biznes sahibləri, biznesin miqyasından asılı olmayaraq, bu sətirləri oxuyarkən özlərini görəcəklər.

Uzunmüddətli biznes yaratmaq üçün peşəkarlar komandasının nəzarəti altında işləyəcək bir sistem yaratmaq lazımdır.

Təlimlərimdə də sahibkarlarla birlikdə bütün bu problemlərin həlli barədə çox müzakirələr edirik.

Siz qeyd etdiniz ki, biznes sahibləri və sahibkarlar üçün idarəçilik təlimləri keçirsiniz. Bu təlimlər nə haqqındadır və iş adamı üçün idarəçilik təlimləri nə üçün lazımdır?

Sahibkarlarımızın biliklərinin artırılması zəruriliyi barədə çoxdan düşünürdüm. Məsələ orasındadı ki, çox vaxt biznes təsisçisi biznes haqqında heç bir əsas biliklərə və bacarığa malik olmadan özü biznesi idarə edir. Belə bir vəziyyətdə, idarəetmə üsulu intuitiv məntiqə əsaslanır, bu isə çox təhlükəlidir. Mənim öz təcrübəm onu göstərir ki, şirkətlərdə çox vaxt hər şey şirkətin rəhbərinin və işçilərinin dünyagörüşü, insanların işinə olan münasibəti üzərində qurulur və dəqiqlik, intizam kimi anlayışlar sadəcə rəhbərin aynası olur. Tez-tez belə hallara da rast gəlmişəm ki, xarici ölkədə mükəmməl təhsil almış bir gənc yerli şirkətdə işə başlayır, lakin heç nəyə nail ola bilmir, çünki bütün hərəkətləri və fəaliyyəti rəhbər tərəfində məhdudlaşmış olur.

Və onda mən başa düşdüm ki, şirkət sahibləri özlərini və idarəetmə sahəsində biliklərini təkmilləşdirməyənə kimi, biz biznesdə müsbət dəyişikliklər görməyəcəyik.

2018-ci ilin yanvar ayında mən biznes sahibləri üçün idərəçilik təlimlərini keçməyə başladım və bu günə qədər müxtəlif yerli və xarici şirkətlərin 80-dən çox sahibləri və rəhbərləri həmin təlimi keçmişdir. Təlim 2 günlükdür və 18 saat ərzində şirkətdə idarəetmə sisteminin qurulması, həmfikirlər komandasının necə yığıb qurulması, şirkətin müştəriləri ilə uzunmüddətli effektiv münasibətlərin qurulması və s. haqqında danışırıq.

– Sahibkarlara və biznes sahiblərinə verəcəyiniz 3 əsas məsləhət nədir?

– İlk növbədə, onu başa düşüb qəbul etməliyik ki, bu gün Azərbaycanda ciddi müsbət dəyişikliklərin şahidi oluruq, və buna görə də uğurlu biznesə sahib olmaq üçün biznesin bütün xüsusiyyətləri barədə uzunmüddətli perspektivdə düşünməyi öyrənməliyik.

Bütün biznes məsələlərinə – işçi heyətinin, avadanlıqların, istehlakçılarla əlaqələrin, xərclərin səmərəliliyi kimi məsələlərə ciddi diqqət yetirməliyik.

Biznesin əsl sahibinin Möhtərəm İstehlakçının olduğunu və şirkətin bütün proseslərinin, standartlarının onun məmnunluğuna yönəldilməsinin zəruriliyini anlamalıyıq.

Artıq strateq olmaq vaxtıdır!

*Fəxri Ağayev*

# AZƏRBAYCANDA BEYNƏLXALQ SƏRGİLƏR VƏ KONFRANSLAR

# 2019

18-ci Azərbaycan Beynəlxalq
**TURİZM VƏ SƏYAHƏTLƏR SƏRGİSİ**
**4-6 APREL** www.aitf.az

25-ci Yubiley Azərbaycan Beynəlxalq
**QİDA SƏNAYESİ SƏRGİSİ**
**15-17 MAY** www.worldfood.az

Xəzər Beynəlxalq
**QABLAŞDIRMA, TARA, ETİKET VƏ POLİQRAFİYA SƏRGİSİ**
**15-17 MAY** www.ipack.iteca.az

13-cü Qafqaz Beynəlxalq
**MEHMANXANA, RESTORAN VƏ SUPERMARKETLƏR ÜÇÜN AVADANLIQ VƏ LƏVAZİMATLAR SƏRGİSİ**
**15-17 MAY** www.horex.az

26-cı Beynəlxalq
**XƏZƏR NEFT VƏ QAZ SƏRGİSİ**
**29 MAY-1 İYUN** www.caspianoilgas.az

9-cu Xəzər Beynəlxalq
**ENERGETİKA VƏ ALTERNATİV ENERJİ SƏRGİSİ**
**29 MAY-1 İYUN** www.caspianpower.az

26-cı Beynəlxalq
**XƏZƏR NEFT VƏ QAZ KONFRANSI**
**30-31 MAY** www.oilgasconference.az

18-ci Xəzər Beynəlxalq
**NƏQLİYYAT, TRANZİT VƏ LOGİSTİKA SƏRGİSİ**
**11-13 İYUN** www.transcaspian.az

9-cu Xəzər Beynəlxalq
**YOL İNFRASTRUKTURU VƏ İCTİMAİ NƏQLİYYAT SƏRGİSİ**
**11-13 İYUN** www.roadtraffic.az

6-cı Xəzər Beynəlxalq
**KATER VƏ YAXTALAR SƏRGİSİ**
**11-13 İYUN** www.cibs.az

25-ci Yubiley Azərbaycan Beynəlxalq
**İNŞAAT SƏRGİSİ**
**22-25 OKTYABR** www.bakubuild.az

Xəzər Beynəlxalq
**MEBEL, İNTERYER VƏ DİZAYN SƏRGİSİ**
**22-25 OKTYABR**
www.caspianmebelexpo.az

12-ci Beynəlxalq
**İSTİLİK, HAVALANDIRMA, KONDİSİONERLƏŞDİRİLMƏ, SU TƏCHİZATI, SANTEXNİKA VƏ ÜZGÜÇÜLÜK HOVUZU SƏRGİSİ**
**22-25 OKTYABR** www.aquatherm.az

12-ci Xəzər Beynəlxalq
**MÜHAFİZƏ, TƏHLÜKƏSİZLİK VƏ XİLASETMƏ VASİTƏLƏRİ SƏRGİSİ**
**22-25 OKTYABR** www.securexcaspian.az

24-cü Azərbaycan Beynəlxalq
**SƏHİYYƏ SƏRGİSİ**
**5-7 NOYABR** www.bihe.az

13-cü Azərbaycan Beynəlxalq
**STOMATOLOGİYA SƏRGİSİ**
**5-7 NOYABR** www.stomatology.az

12-ci Azərbaycan Beynəlxalq
**GÖZƏLLİK VƏ ESTETİK TİBB SƏRGİSİ**
**5-7 NOYABR** www.beauty.iteca.az

*Tarixlər dəyişdirilə bilər

TƏŞKİLATÇI

Tel.: +994 12 4041000; Faks: +994 12 4041001
E-mail: office@iteca.az

www.iteca.az

# Vergi ombudsmanı kimdir?

Vergilər Nazirliyi inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq ölkəmizdə Vergi Ombudsmanı institutunun yaradılmasına dair qərar qəbul edib. Vergilər nazirinin imzaladığı əmrdə ombudsmanın əsas fəaliyyət istiqaməti vergi ödəyicilərinin hüquqlarının daha etibarlı qorunmasını təmin etmək, onların şikayət və müraciətlərinin məhkəmə müstəvisinə çıxmadan həllinə nail olmaq, vergi administrasiyaları ilə münasibətlərinin sivil formada tənzimlənməsinə kömək göstərməkdir.

Beynəlxalq təcrübəyə əsasən, vergi ombudsmanı vergi orqanları və vəzifəli şəxslərdən məlumat, sənəd və materiallar almaq, sahibkarların müraciəti və razılığı əsasında vergi yoxlamasında iştirak etmək, sahibkarların hüquq və mənafelərinin pozulmasına gətirib çıxaran vergi orqanlarının qərarlarının icrasının dayandırılmasına dair nazirliyin aidiyyəti departamentlərinin rəhbərlərinə vəsatətlə çıxış etmək səlahiyyətinə, habelə biznes subyektlərinin şikayətlərinin hərtərəfli və obyektiv baxılması üçün əlavə ekspertləri cəlb etmək hüququna malikdir.

Avropa İttifaqı (Aİ) ölkələrində xüsusi Vergi Ombudsmanı deyilən institut formalaşmasa da, Ombudsman Aparatının tərkibində vergi ödəyicilərinin hüquqlarını qoruyan struktur modeli tətbiq olunur və çox uğurlu nəticələr verir. Məsələn, Portuqaliyada vergi ödəyicilərinin hüquq və mənafelərinin qorunması ombudsman institutunun yanında fəaliyyət göstərən qurum tərəfindən təmin olunur. Bu qurum ilk növbədə vergi ödəyicilərindən daxil olan şikayətləri qəbul edir, xüsusilə də vergi orqanı əməkdaşlarının onların fəaliyyətinə yaratdığı problemlərlə bağlı müraciətlər araşdırılır. Vergi administrasiyasının bu məsələ ilə əlaqədar mövqeyi öyrənilir, şikayətin hərtərəfli araşdırılması təmin edilir. Bundan sonra obyektiv və ədalətli qərar çıxarılır. Hansı tərəfin haqlı olub-olmasından asılı olmayaraq verilən qərar ümumilikdə obyektiv araşdırma nəticəsində müəyyən olunur.

Aİ ölkələrinin əksəriyyətində bu qurumlar tabeçilik əsasında fəaliyyət göstərir. Ombudsman Aparatının tabeliyində olan maliyyə, vergi və digər iqtisadi bölmələrlə bağlı yaradılmış strukturlar geniş və hərtərəfli araşdırma aparır. Bununla yanaşı, ictimai təşkilatlarla birgə əməkdaşlıq çərçivəsində vergi məsələləri ilə məşğul olan qurumlar da fəaliyyət göstərir. Bunun ən yaxşı forması Böyük Britaniyada yaradılıb. Bu ölkədə ayrıca vergi ombudsmanı yaradılmasa da, ümumi Ombudsman Aparatının tərkibində ən fəal bölmə kimi diqqəti cəlb edir. Müstəqil Vergi Ombudsmanı institutu isə Kanada və Cənubi Afrika Respublikasında yaradılıb. Onun vergi administrasiyasına heç bir aidiyyəti yoxdur.

Azərbaycanda da vətəndaş müraciətlərinə vaxtında baxılması, vergi ödəyicilərinin müraciətlərinin keyfiyyətlə araşdırılması, habelə sahibkarların hüquq və qanuni mənafelərinin müdafiəsinə yönəlmiş mexanizmlərin təşkili istiqamətində müvafiq tədbirlər görülür.

Vergilər Nazirliyində Vergi Apelyasiya Şurası fəaliyyət göstərir və 2018-ci ildə vergi şikayətlərinə baxılması işinə səmərəli nəzarət edilməsi məqsədilə yeni apelyasiya mexanizmi yaradılıb. Bununla yanaşı, Vergilər Nazirliyi vergi şikayətlərinə baxılması prosesini təhlil edərkən bir sıra hallarda sahibkarların qanuni mənafelərinin pozulmasının vergi əməkdaşlarının yoxlama prosesində, yoxlama aktlarının tərtibi və vergilərin hesablanmasında, habelə vergi ödəyicilərinin düzgün məlumatlandırılmaması nəticəsində baş verməsi faktları ilə bağlı olduğunu müəyyən edib. Apelyasiyaya verilmiş işlərin, habelə mübahisələndirilən məsələlərin təhlili aparılarkən, bir sıra hallarda sahibkarların kifayət qədər hüquqi biliklərə malik olmamaları, vergi qanunvericiliyinin tətbiqi sahə-



66

*Aİ ölkələrinin əksəriyyətində bu qurumlar tabeçilik əsasında fəaliyyət göstərir. Ombudsman Aparatının tabeliyində olan maliyyə, vergi və digər iqtisadi bölmələrlə bağlı yaradılmış strukturlar geniş və hərtərəfli araşdırma aparır.*

sində məlumatsızlıqları ilə əlaqədar belə qərarlarla bağlı apelyasiya prosesində iştirak etməkdən çəkindikləri müəyyən edilib. Sahibkarların hüquq və qanuni mənafelərini daha etibarlı şəkildə müdafiə etmək, belə müdafiə kanallarının və kommunikasiya imkanlarının artırılması məqsədilə Vergilər Nazirliyi tərəfindən yeni və daha effektiv mexanizmlərin yaradılması istiqamətində araşdırmalar aparılıb. "Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün Strateji Plan"a əsasən, beynəlxalq təcrübəyə söykənərək aparılan belə araşdırmalar zamanı vergi ödəyicilərinin hüquqlarını qoruyan institutların yaradılması praktikası, vergi ödəyicilərinin hüquqlarının qorunmasında Avropa İttifaqına üzv ölkələrin təcrübəsi, belə institutların fəaliyyətini tənzimləyən qanunvericilik aktları, şikayətlərin idarə edilməsi sistemi və s. geniş öyrənilib.

Vergilər Nazirliyi inkişaf etmiş ölkələrin təcrübəsini əsas götürərək Azərbaycanda Vergi Ombudsmanı institutunun yaradılmasına dair qərar qəbul edib. Vergi Ombudsmanı ölkənin vergi administrasiyasından və Ombudsman Aparatından ayrıca fəaliyyət göstərən və ölkədə mövcud olan Ombudsman Aparatının tərkibində vergi ödəyicilərinin hüquqlarını qoruyan strukturdur. Ombudsman öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının Vergi Məcəlləsini, Azərbaycan Respublikasının 12 iyun 2001-ci il tarixli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"ni və Azərbaycan Respublikasının digər qanunlarını əsas tutur.

Ombudsmanın əsas fəaliyyət istiqaməti vergi ödəyicilərinin hüquqlarının daha etibarlı qorunmasını təmin etmək, onların şikayət və müraciətlərinin məhkəmə müstəvisinə çıxmadan həllinə nail olmaq, vergi administrasiyaları ilə münasibətlərinin sivil formada tənzimlənməsinə kömək göstərməkdir.

Vergi Ombudsmanı sahibkarların hüquq və qanuni mənafelərinin müdafiəsinə yönəlmiş ictimai institutlar və sahibkarlar icması ilə əməkdaşlıq etmək, həmçinin korrupsiya halları, sahibkarların qanuni maraqlarının pozulmasına dair şikayətləri araşdırmaq, KİV daxil olmaqla, hər hansı bir mənbədən sahibkarların hüquqlarının pozulmasına dair məlumat əldə etdiyi təqdirdə öz müstəqil araşdırmasına başlamaq hüququna malik olan şəxsdir.

Mütəxəssislərin fikrincə, Vergi Ombudsmanı kimi institutun fəaliyyətə başlaması Azərbaycanın vergi sisteminin inkişafına əhəmiyyətli fayda verəcək. Vergi ödəyicilərinin hüquq və manafelərinin etibarlı qorunması, vergi orqanlarının işinin yüngülləşdirilməsi, şəffaflığın və obyektivliyin təmin olunması ilə yanaşı, vergi ödəyicilərinin intizamının güclənməsi və vergiləri vaxtında və tam şəkildə ödəməsi baxımından da bu institutun rolu böyükdür. Çünki ombudsman sahibkarlara öz hüquq və öhdəliklərini yerinə yetirmək, dövlətin müəyyən etdiyi qanunların tələblərinə riayət etmək, dövlət büdcəsinə vergilərin vaxtında ödənilməsi üçün onların məsuliyyətini başa salmaq və digər müxtəlif təşviqat işləri görmək, məsləhət və tövsiyələr vermək səlahiyyətlərinə malikdir.



# Azərbaycanda kənd təsərrüfatı:

## MÖVCUD VƏZİYYƏT, PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI

Azərbaycanda neft sektorundan sonra ən önəmli və prioritet sahə kənd təsərrüfatıdır. Dünyanın bütün ölkələrində kənd təsərrüfatı ilə məşğul olurlar. Dünyada iqtisadi fəal əhalinin təxminən 50%-ikənd təsərrüfatında çalışır. Bu sahənin inkişaf etdirilməsi həm ərzaq təhlükəsizliyi, həm də sosial, həm də ixrac yönümlü məhsul istehsalı baxımından çox vacibdir.

Azərbaycanda iqtisadi fəal əhalinin 38%-i kənd təsərrüfatında çalışır. Ölkəmizdə dünyadakı 11 iqlim tipinin 9-u mövcuddur və torpaqlarımızın 54%-i əkinə yararlıdır. Kənd təsərrüfatı Azərbaycan xalqının ən qədim və ənənəvi məşğuliyyət sahəsi olduğu üçün, ənənələr əsrlər boyu davam etmişdir. Azərbaycan hələ keçmiş SSRİ dönəmində iqtisadi nəticələrə görə neft istehsalı və emalı ilə paralel inkişaf etmiş aqrar ölkə olub. Əsasən taxılçılıq, pambıqçılıq, tərəvəzçilik, üzümçülük, meyvəçilik, çayçılıq ölkədə çox sürətlə inkişaf etmiş və Azərbaycan özünü əsasən kənd təsərrüfatı məhsulları ilə təmin edən ölkələr sırasında olmuşdur.

Müstəqillik əldə edildikdən sonra bir sistemin digər sistemlə əvəzlənməsi fonunda ölkədə kənd təsərrüfatının inkişafında ciddi problemlər yaranmışdır. Eyni zamanda erməni silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində 20% ərazisi işğal edilməklə ölkə iqtisadiyyatına təxminən 60 milyard ABŞ dollarından çox ziyan dəymişdir.

Ölkədə kənd təsərrüfatının inkişafına nail olmaq məqsədilə MDB məkanında ilk dəfə Azərbaycanda "Torpaq islahatı haqqında", "Aqrar islahatının əsasları haqqında" və "Sovxoz və kolxozların islahatı haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Bu islahat zamanı 2000-dən artıq kənd təsərrüfatı müəssisələrinin (sovxoz, kolxoz və s.) əmlakı, o cümlədən 1390 min hektardan çox torpaq sahəsi kənd yerlərində yaşayan 850 mindən artıq ailəyə təmənnasız verilmiş, bununla da aqrar bölmədə yeni mülkiyyət münasibətləri formalaşmışdır.

Ölkədə aqrar islahat zamanı torpaq istifadəçiləri öz fəaliyyətlərini quranadək müəyyən çətinliklərlə üzləşməsi kənd təsərrüfatının inkişafını ləngitmişdir.

Azərbaycan hökuməti tərəfindən aqrar sektorun dirçəlməsi və inkişafı prioritet məsələ olaraq ön plana çəkilmiş və bu sahədə bir sıra Dövlət Proqramları qəbul edilmişdir.

Müasir dövrdə dünyada istehsalın intensivləşdirilməsi iqtisadi inkişafın əsas istiqamətini təşkil edir. Beynəlxalq təcrübədə kənd təsərrüfatının intensiv inkişafına əkin sahəsinə, istehsalın və ixracın həcminə əsasən subsidiyaların ve-

rilməsi, vergi güzəştlərinin tətbiqi, aşağı faizli kreditləşdirmə, dövlət tərəfindən tələb yaratmaq, aqroparkların yaradılması, idxalın məhdudlaşdırılması, kooperativlərin yaradılması kimi metodlar mövcuddur. Azərbaycanda bu istiqamətlərin hər biri üçün müəyyən addımlar atılmışdır.

Azərbaycan Respublikası Regionlarının Sosial-Iqtisadi Inkişafı ilə bağlı görülən işlər, bu sahədə həyata keçirilən tədbirlər ölkənin regionlarında kənd təsərrüfatının inkişafına zəmin yaratmışdır. Dövlət tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla bütün növ vergilərdən azad edilmişlər. Fermer və sahibkarlar güzəştli şərtlərlə kredit, toxum, gübrə, texnika, damazlıq mal-qara almaq imkanlarına malikdirlər. Eyni zamanda, əkin sahəsinin becərilməsində istifadə olunan yanacaq üçün dövlət subsidiyalar verir.

Xüsusilə də 2016-2018-ci illərdə qəbul edilmiş bir sıra proqramlar, verimiş sərəncamlar ölkədə kənd təsərrüfatının inkişafında xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin pambıqçılığın, tütünçülüyün, ipəkçiliyin və fındıqçılığın inkişafına, heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dair dövlət dəstəyi haqqında Sərəncamları ilə pambıq, tütün, ipək, fındıq və cins heyvandarlıq istehsalçılarına subsidiyalar ayrılmışdır.

Ölkəmizin iqtisadiyyatında daha çox diqqət cəlb edən məsələlərdən biri aqroparkların yaradılmasıdır. Aqroparklar kənd təsərrüfatı məhsullarının intensiv istehsal olunmasına, daşınmasına, saxlanılmasına və eyni zamanda onun satışını təşkil edilməsində mühüm rol oynayır. Aqroparkların yaradılması ilə fermerlər məhsul satışın təşkili, saxlanması, təkrar istehsalı kimi qayğılardan azad olur. Bütün bunlarla yanaşı aqroparklarda fəaliyyət göstərən fermerlər elmi, texniki dəstəklə təmin edilirlər ki, bu da sonda məhsuldarlığın artımına və mənfəətin yüksəlməsinə səbəb olur. Bunun nəticəsi olaraq bazarlarda məhsul bolluğu ilə yanaşı, rəqabət mühitinin yaranması, keyfiyyətin yüksəlməsi və süni qiymətlərin azalması üçün mühüm faktora çevrilir. Həmçinin, yeni iş yerlərinin açılması, işsizliyin səviyyəsinin aşağı düşməsinə və region sakinlərinin rifahının yüksəlməsinə şərait yaradır.

> 2018-ci il pambıqçılıq, baramaçılıq, fındıqçılıq, tütünçülük, çayçılıq, çəltikçilik, sitrusçuluq üzrə böyük inkişaf olmuşdur.



Ölkəmizdə artıq 17 aqropark yaradılmışdır. Bu aqroparkların ümumi sahəsi 104 min hektardır. Ümumilikdə isə proqrama əsasən Azərbaycanda 51 aqropark və iri fermer təsərrüfatı yaradılması nəzərdə tutulmuşdur. Onların istehsal edəcəyi məhsullar təxmini hesablamalara görə 1.0 milyard manata yaxın olacaqdır. Ət, quş əti, süd, yem, buğda, arpa, soya istehsalı da nəzərdə tutulan bu aqroparklara 250 min hektar torpaq sahəsi ayrılmışdır. Bundan sonra 31 aqroparkın yaradılmasına 2,2 milyard manat vəsait nəzərdə tutulur.

Azərbaycan Respublikası Statistika Komitəsinə istinad etsək görərik ki, son 15 ildə bitkiçilik məhsullarının istehsalında taxıl və kartof 2 dəfə, meyvə və giləmeyvə 1,9 dəfə, bostan bitkiləri və üzümçülük 1,8 dəfə, tərəvəz 1,6 dəfə artmış, pambıq istehsalı 2 dəfə, tütün isə 4,8 dəfə azalmışdır. Heyvandarlıqda isə ət və süd istehsalı 2 dəfə, yumurta 3 dəfə, yun istehsalı isə 1,5 dəfə artmışdır.

Hazırda Azərbaycan bütün növ tərəvəz, bostan məhsulları, meyvə və giləmeyvə kimi kənd təsərrüfatı məhsulları ilə özünü 100% təmin edir və bu məhsulları xaricə də ixrac edir. Respublikada üzümün 93.4%-i, kartofun 89.2%-i, ətin 84.7%-i, o cümlədən quş ətinin 98,0%-i, yumurtanın 100%-i yerli istehsal hesabına formalaşır.

Ölkədə rentabelli məhsulların istehsalının genişləndirilməsi vacib məsələdir. İlk növbədə texniki bitkilərin (pambıq, tütün

və s.) əkin sahələrini, məhsuldarlığı artırılır. Bu sahə rentabelli olmaqla yanaşı, həmçinin yüksək əmək tutumlu sahələrdir. Onların istehsalının artırılması bir çox yeni iş yerlərinin açılmasına gətirib çıxarır.

2018-ci il pambıqçılıq, baramaçılıq, fındıqçılıq, tütünçülük, çayçılıq, çəltikçilik, sitrusçuluq üzrə böyük inkişaf olmuşdur. Bu sahələrə göstərilən diqqət həm iş yerlərinin yaradılmasına gətirib çıxarır, həm də ölkənin ixrac potensialını artırır.

Respublikamızda iqtisadi fəal əhalinin çox hissəsinin regionlarda yaşadığı üçün pambıqçılıq, tütünçülük, üzümçülük, meyvəçilik və tərəvəzçilik kimi rentabelli sahələrin inkişafına və bölgələrdə emal müəssisələrinin qurulmasına daha çox əhəmiyyət verilməlidir.

Digər bir məsələ kənd yerlərində yaşayan əhalinin maliyyə resurslarına çıxışında çətinliklərin olmasıdır. Təbii olaraq istehsalın və məhsuldarlığın aşağı olması ilə nəticələnir. Regionlarda əsasən mikrokreditlərə ehtiyac duyulur. Bu mənada mikromaliyyə təşkilatları böyük rol oynayır. Ölkəmizdə mikromaliyyə hələ gəncdir, o təqribən 16 ildir ki, az təminatlı ailələrin, qaçqınların, məcburi köçkünlərin, müharibədə zərər çəkmiş insanların və eləcədə kiçik sahibkarların imdadına çatır. Regionlarda iqtisadi geriliyin aradan qaldırılmasında Dövlətimizin inkişaf proqramlıarı ilə bərabər mikromaliyyənin də böyük töhvəsi olmuşdur. Bu gün mikromaliyyənin inkişafında BOKT-lar xüsusi önəm kəsb edir. Onlar regionlarda əhalinin və kiçik təsərrüfatların (müəssisə və ya fərdlər) maliyyə resurslarına çıxışını təmin etməklə bu təsərrüfatların inkişafına vəsilə olurlar.

Kənd təsərrüfatı iqlim şəraitdən asılı olan mürəkkəb və çox riskli sahəolduğu üçün bu sahənin inkişaf etdirilməsi ardıcıl və kompleks tədbirlərin həyata keçirilməsini zəruri edir. Dövlət Proqramları ilə aqrar sektorunhərtərəfli inkişafı nəzərdə tutulsa da, onun



> Hazırda Azərbaycan bütün növ tərəvəz, bostan məhsulları, meyvə və giləmeyvə kimi kənd təsərrüfatı məhsulları ilə özünü 100% təmin edir və bu məhsulları xaricə də ixrac edir.

icrası zamanı buraxılmış müəyyn nöqsanlar, bu sahənin dinamik inkişafını tam təmin edə bilməmişdir. Eyni zamanda icra strukturları da kənd təsərrüfatının inkişaf etdirilməsinə öz töhvəsini verməlidir. Ancaq belə olduğu halda iqtisadiyyatımız güclü, rəqabətə davamlı və dinamik inkişaf edə bilər.

Ölkədə kənd təsərrüfatının inkişafını ləngidən faktorlar da mövcuddur.Bu problemlərin həll olunması Azərbaycanda kənd təsərrüfatının inkişafına təkan verməklə, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatını həyata keçirməklə yanaşı, iqtisadiyyatda rəqabəti artırar, ixracı stimullaşdırar.

Belə ki, kənd yerlərində sosial infrastrukturun (içməli su, təbii qaz, elektrik, rabitə, asfalt yollar və s.) olması bu əhalinin orda yaşaması və işləməsi üçün əsas amildir. Əks təqdirdə orada yaşayış çətinləşdiyi üçün istehsal sahəsi kifəyət qədər rentabelli olsa belə, istifadə olunmamış qalacaqdır. Ölkənin kənd təsərrüfatında xüsusilə suvarma əkinçiliyi üçün vacib məsələ əhalinin təsərrüfat əhəmiyyətli su sistemi ilə tam təmin olunmasıdır ki, bu isə sahələrin vaxtında və düzgün suvarılması onun məhsuldarlığının və keyfiyyətinin artırılmasına gətirib çıxarar. Məlumdur ki, uzun müddət istifadə olunan torpaqlarda münbitlik aşağı düşdüyündən onun aradan qaldırılması üçün də maliyyə vəsaitinə ehtiyac yaranır. Bu baxımdan kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin





artırılması üçün maliyyə vəsaiti ayrılmasına, investisiyalara xüsusi diqqət yetirilməlidir.

Son dövrlərdə kənd təsərrüfatında ixtisaslı kadr çatışmazlığı müşahidə olunmaqdadır. Bu gün rayonlarda yüksək reproduksiyalı toxumsortlarının zəif yetişdirilməsi problem olaraq qalır. Bu problemlərin həlli üçün Kənd təsərrüfatı sahəsində təhsilin və bu sahədə universitetlərin təkmilləşdirilməsi günün ən vacib məsələlərindən olmalıdır.



Son 15 ildə bitkiçilik məhsullarının istehsalında taxıl və kartof 2 dəfə, meyvə və giləmeyvə 1,9 dəfə, bostan bitkiləri və üzümçülük 1,8 dəfə, tərəvəz 1,6 dəfə artmışdır

Fermerlərin iqtisadi bilik və bacarıqlarının artırılması,aqrotexniki qaydalara düzgün riayət olunması, kənd təsərrüfatında xəstəliklər barədə məlumatlı olmaq üçün onlara mütəmadi təlimlərin, kursların, seminarların keçirilməsi lazımdır.

Digər bir məsələ Kənd təsərrüfatıkooperativlərinin yaradılması və müştərək əməkdaşlıq sistemi aqrar istehsal və istehlakmüəssisələrinin maraqlarını müdafiə edər. Kooperativlərin yaradılması müasir kənd təsərrüfatı texnika və texnologiyalarının tətbiqinə yol açmaqla, nəticədə istehsal sahələrinin məhsuldarlığı və gəlirliliyi yüksələ bilər. Bu kooperativlər könüllülük prinsipi əsasında yarandığı üçün kəndlərdə işsizlik problemlərini həll olunmasına, resurslardan səmərəli istifadə olunmasına, rəqabətə davamlılığa nail olunmasına və son nəticədə ərzaq təhlükəsizliyin aradan qaldırılmasına dəstək olacaqdır.Kooperativlər həmçinin istehsal-emal-satış dəyər zəncirinin də möhkəmlənməsinə təsir göstərir. Bu zəncirin yaranması və möhkəmlənməsinin digər təsiredici amili Aqroparkların sayının artırılması olardı.

Kənd təsərrüfatında kifayət qədər riskli olduğu üçün sığorta münasibətlərinin həll olunması-vacib məsələdir. Bunun üçün sığorta mexanizminin təkmilləşdirilməsi lazımdır. Aqrar sektorda sığorta mexanizmlərinin inkişafı bu sahənin kreditləşmə imkanlarını genişləndirəcəyi kimi, bu kreditlər üçün daha asan şəkildə zəmanətlərin təmin edilməsinə yol açacaqdır. Çünki sığorta mexanizmlərinin inkişaf etdirilməsi aqrar sektorda risklərin sığortalanması mənasına gəlir. Nəticədə həm bank sektorunun, həm də özəl şirkətlərinin portfelində aqrar sahənin xüsusi çəkisi yüksələcəkdir.

*Fərid Vəlizadə*

# Bank kredit faizlərinə limit qoymaq çıxış yoludurmu?



**Azərbaycan iqtisadiyyatının bütün həlqələrində islahatlar müşahidə olunur. Təqdirəlayiq haldır ki, hökumət ölkədə biznes mühitini yaxşılaşdırmağa, yerli isterhsal və xidmət sahələrində rəqabət qabiliyyətini yüksəltməyə çalışır. Prezidentin problemli kreditlərlə əlaqədar "Fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" 28 fevral 2019-cu il tarixli fərmanından sonra əhalinin üzərindəki kredit yükü kəskin azalacaq və eyni zamanda bank sektoru gecikmiş kreditlər portfelini təmizləmək, əlavə likvid vəsaitlər əldə etmək imkanı qazanacaq, bu isə yeni iqtisadi sıçrayış üçün baza rolunu oynaya bilər. İstehlakçı modelindən investisiya modelinə keçid maliyyə resurslarının əlçatan olması məsələsini önə çıxarır. Bunun üçün də Azərbaycanda normal maliyyə bazarı formalaşmalıdır. Ona görə də Maliyyə Bazarlarına Nəzarət Palatasının kredit faizləri üzrə "tavan limiti" ilə bağlı təklifi geniş müzakirə olunur.**

## 4 DƏFƏLİK FƏRQ, 4 TƏKLİF

Hazırda depozit qoyuluşları ilə kredit fazileri arasında dörd dəfəlik bir fərq var və iqtisadçılar bankların marjanı yüksək qoyduğunu iddia edirlər. Elə kredit məhsulları var ki, faiz dərəcələri 32-34-ə çatır. Xüsusən də sahibkarlığın il ərzində fəaliyyətdən 10% həcmində mənfəət götürdüyünü nəzərə alsaq, faizlərin yüksək olduğundan iş adamları da şikayətçidir.

"Bankların beynəlxalq maliyyə qurumlarından aşağı faizlə kredit götürmək imkanı var, lakin bunda maraqlı deyillər, çünki xarici öhdəliklərin artması ilə bağlı "2015-ci il dərsi" hələ unudulmayıb.

Bu narazılıqlar fonunda bank sektorunun tənzimləyicisi rolunda çıxış edən Maliyyə Bazarlarına Nəzarət Palatası kredit faizlərinin yuxarı həddinə limit qoymaqla bağlı dörd təklif irəli sürüb.

Təkliflərdən biri budur ki, əksər kreditlərə – biznes və istehlak kreditləri və ya kredit məhsulları üzrə faiz limiti qəbul olunsun.

Digər təkliflərdən biri isə bütün kreditlər üçün vahid limit və ya müxtəlif kredit məhsulları üzrə müxtəlif limitlərin qəbul olunmasıdır.

Mütləq və ya nisbi limitlərin qəbul olunması da nəzərdən keçirilən variantlardan biridir.

Daha bir təklif isə limitlərin müəyyən edilməsi zamanı komissiya ödənişləri və digər rüsumlarla bağlıdır. Belə ki, komissiya ödənişləri və digər rüsumların nəzərə alınmaması, ya da istisna edilməsi müzakirə olunur.

## BANKLARIN PUL MƏNBƏYİ HANSILARDIR?

Bu təkliflərin hər birinin ayrı-ayrılıqda müsbət, mənfi tərəfləri var və ümumiyyətlə iqtisadiyyata müdaxilə etməklə alınan nəticələr adətən dayanıqlı xarakter daşımır və təhlükəlidir. Birincisi, bizim maliyyəçilər adətən depozit hesabına kredit verirlər. Bu isə başqasından götürülən borcdur və bank özü borc aldığı vəsaiti üçüncü şəxsə verdiyi zaman üzərinə böyük məsuliyyət götürür. Ona görə də banklar 9 faizə əmanətçidən götürdükləri pulu borc verdikləri zaman kreditə görə yüksək risk marjası hesablayırlar. Ona görə də bu şərtlərlə kredit almaq istəyənlərin sayı çox azdır. Maliyyə Bazarlarına Nəzarət Palatasının açıqladığı statistikaya görə, son bir ildə kredit portfelində 5 faizlik artım müşahidə olunsa da, ümumilikdə ölkədə kreditləşmə səviyyəsi aşağıdır. Bankların aktivlərində kredit portfelinin həcmi bəzi vaxtlarda 30-40 faiz təşkil edir, yəni heç 50 faizə belə çatmır. Bu isə iqtisadi aktivliyin aşağı olduğunu, bankların kreditləşmədə zəif iştirakını göstərir.

Bankların özünün kredit üçün maliyyə mənbələrindən biri də Mərkəzi Bankın mərkəzləşmiş kreditləridir. Banklar Mərkəzi Bankdan 8,75% təşkil edən uçot dərəcəsi ilə kredit götürə bilərlər. Bundan başqa, onların beynəlxalq maliyyə qurumlarından aşağı faizlə kredit götürmək imkanı var, lakin bunda maraqlı deyillər, çünki xarici öhdəliklərin artması ilə bağlı "2015-ci il dərsi" hələ unudulmayıb.

Ona görə də banklara pul elə də ucuz başa gəlmir. Bank pul ilə ticarət etdiyindən bundan qazancını da nəzərə alsaq, üstəlik xidmətlər və üzvlüklə bağlı ödənişlər də bu faizlərdə oturduğundan kreditlərin faiz dərəcəsinin maksimum 15 faiz olması maliyyə sektorunda çalışan ekspertlər üçün qəbuledilən hesab edilir. Ancaq əksər kredit məhsullarında faizlər çox yüksəkdir və səbəb kimi banklar bunu risklərin böyük olması ilə əlaqələndirirlər.

## UÇOT DƏRƏCƏSİNİN TƏSİRİ YOXDUR

Üstəlik, Azərbaycanda mərkəzi Bankın uçot dərəcəsi işlək təsir imkanlarına malik deyil, yəni uçot dərəcəsinin düşməsi kredit məhsullarına təsir göstərmir. Mərkəzi Bank sədri Elman Rüstəmovun özünün etiraf etdiyi kimi, uçot dərəcəsi əslində kredit faizlərinə təsir etməlidir, ancaq Azərbaycanda bu baş vermir.

Mərkəzi Bank sədri Elman Rüstəmov mətbuata açıqlamasında bunun səbəblərinin dərin və müxtəlif olduğunu, eyni zamanda, yalnız Mərkəzi Bankda, pul bazarında deyil, digər sahələrdə də ciddi islahatlar tələb edildiyini vurğulamışdı:

"Depozit dərəcələrinə müəyyən qədər təsir göstərir və burada qismən dinamika var, amma kredit faizlərinə təsir mexanizmi



çox zəifdir. Səbəblərdən biri də Azərbaycanda mütəşəkkil banklararası bazarın olmamasıdır. Bu isə bütövlükdə qısamüddətli pulun dəyərini müəyyənləşdirməyə imkan vermir ki, onun vasitəsilə kredit faizlərinə təsir göstərə bilək. Bu istiqamətdə ciddi islahat proqramı hazırlanır. Bu isə nəticə olaraq Mərkəzi Bankın uçot dərəcəsinin təsir imkanlarının güclənməsinə gətirib çıxaracaq".

Qeyd edək ki, hazırda banklarda yüksək likvidlik problemi var və bankların əksəriyyəti Mərkəzi Bankdan kredit almır, əksinə, aldığı krediti geri qaytarır, bunu bankların açıqladığı hesabatlardan da görmək olar.

## BANKLARA 0,5 FAİZLƏ QİYMƏTLİ KAĞIZLAR VERİLƏCƏK

Eyni zamanda problemli kreditlərlə bağlı prezident İlham Əliyevin fərmanında bank sektorunun inkişafı və kredit vermək imkanlarının yüksəlməsi üçün xüsusi tədbirlər də nəzərdə tutulub.

Belə ki, bankların valyuta mövqeyinin pisləşməsinin qarşısını almaq məqsədilə ayrılmış kreditin hesabına banklara, onların müraciəti əsasında 215 000 000,0 (iki yüz on beş milyon) ABŞ dolları dəyərinədək xarici valyutada ifadə olunmuş, illik faiz dərəcəsi 0,5 faiz olmaqla qiymətli kağızların verilməsi nəzərdə tutulub. Üstəlik, gecikmiş kreditlərin restruktrizasiyası üçün banklara vəsait ayrılacaq ki, banklar həmin vəsaitlər hesabına müştəri ilə kredit müqavilәsini yeniləyəcək. Bu zaman müştərlərə illik 1 faiz olmaqla 5 il müddətinə kreditlər veriləcək və həmin kreditlər hesabına müştərilər banka olan borcunu qaytara biləcək. Beləliklə, bu ilin ikinci rübündən sonra banklar "komfort mühit"də olacaqlar və bunun qarşısında onlar faizlərin aşağı salınması ilə bağlı hökumətin təkliflərini nəzərə almalıdırlar.

## "AĞRISIZ YOL"

Ekspert Vüqar Bayramov hesab edir ki, bankların xərcləri və öhdəlikləri nəzərə alınmaqla, faizlərdə maksimum həddin müəyyənləşdirilməsi mümkündür: "Palata maksimum həddi müəyyənləşdirəcəksə, bu, analoji olaraq depozit faizlərinin də aşağı salınmasına səbəb olacaq. İlkin qiymətləndirmələrə görə, 4 faizə yaxın azalma



mümkündür. Buna uyğun olaraq da depozit faizlərində 2 faiz azalma olacağı gözlənilir. Xüsusən sistem əhəmiyyətli banklarda faizlərin aşağı düşəcəyi gözləniləndir".

Əslində, V.Bayramov da bank faizlərinin aşağı düşməsində rəqabət mühitinin yaranmasına üstünlük verir, çünki bu yolla faizlərin daha uzunmüddətli dövrdə aşağı düşməsi mümkündür.

> Hazırda banklarda yüksək likvidlik problemi var və bankların əksəriyyəti Mərkəzi Bankdan kredit almır

Millət vəkili Rüfət Quliyevin fikrincə, idealda kredit faizləri ilə paralel depozit faizlərini də aşağı salmaq lazımdır. Lakin bu bankda əmanəti olan əhalidə narazılıq yarada bilər. Nəticədə əmanətçilərin bir qismi banklardan pullarını geri çəkə bilərlər, bu isə həm bank sektoruna, həm də iqtisadiyyata pis təsir edə bilər. Ona görə də millət vəkili kredit faizlərinə müdaxilənin daha ağrısız bir formasını hazırlamaq üçün xüsusi komissiya yaradılmasını təklif edir.

Kredit faizlərinə limit qoyulması ilə bağlı təkliflərə hökumətdə ən yüksək səviyyədə baxılıb və bu təklif hələki qəbul edilməyib.

Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmovun sözlərinə görə, təklif ölkənin dayanıqlı inkişafı üçün hədəflərinə cavab vermir: "Bu halda təkliflər səslənir ki, depozitlər üzrə limitlər qoyulsun. Bu düzgün deyil. Biz bu məsələyə əhali üzrə istehlak kreditləri kontekstində qayıda bilərik".

Amma bank rəhbərləri və bu sahədə çalışan əksər ekspertlər hesab edirlər ki, banklar müstəqil sahibkarlıq subyektləridir, faiz limitləri tətbiq etmək onların fəaliyyətinə birbaşa müdaxilədir. "Banklar haqqında qanun"öz növbəsində bu müdaxiləyə imkan vermir və bu halda qanunda dəyişikliklər olunması lazım gələcək.

*İlhamə Abdullayeva*

# “Rothschild & Cie” ilə müqavilə Azərbaycanın maliyyə sektoruna nə vəd edir?




Azərbaycanın maliyyə bazarı yenidən dirçəlməyə başlayır və sektorun sağlamlaşdırılması, paralel milli valyutanın məzənnəsinin sabit saxlanılması üçün səylər artıb. Bu səylər fonunda Azərbaycan Mərkəzi Bankı ilə “Rothschild & Cie” Bankı arasında imzalanan əməkdaşlıq müqaviləsi xüsusi məqamları ilə diqqətə çarpır. Bu barədə qısa təhlili oxucularımıza təqdim edirik.

## Azərbaycan xarici şoklara qarşı hazırlıqlı olacaq

Nəzərə alsaq ki, Azərbaycanda kapital və bank bazarı alətləri hələ də çox zəifdir, üstəlik, bank sektoruna inam indinin özündə də kövrəkdir, bu sahədə ən yaxşı mütəxəssislərə və əsrlər boyu formalaşan nüfuza malik “Rothschild & Cie” ilə əməkdaşlıq ölkəmiz üçün böyük əhəmiyyət daşıyır.

Xatırlatmaq istərdik ki, “Rothschild & Cie” ilə müqavilə Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Fransa səfərində “Rotshshild Global Financial Advisory” şirkətinin prezidenti David dö Rotşildlə görüşünün nəticəsi olaraq imzalandı. “Bəs bu əməkdaşlıq Azərbaycanın maliyyə sektoruna nə verəcək?” suallarına cavab verməyə çalışacağıq.

İlk növbədə, Azərbaycanın xarici şoklardan sığortalanması üçün bu əməkdaşlıq çox vacibdir. Məlum olduğu kimi, 2014-cü ilin ortasından başlayaraq, məhz neftin dünya bazarında kəskin ucuzlaşması fonunda Azərbaycanda milli valyuta iki dəfə devalvasiyaya məruz qaldı. Bu proses Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatlarının kəskin azalmasına gətirib çıxardı və devalvasiya bütövlükdə ölkə iqtisadiyyatına zərbə vurdu.

Nəzərə alaq ki, belə qlobal iqtisadi şokları “Rothschild & Cie” kimi böyük şirkətlər daha tez görür və maliyyə böhranının yarada biləcəyi bütün mənfi hallar nəzərə alınmaqla, konsaltinq xidməti göstərdiyi ölkələrə alternativ çıxış yolları təqdim edir.

Ona görə də birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə Azərbaycanın maliyyə

sektorunun belə bir görüşdə iştirak etməsi və nəticə olaraq əməkdaşlıq protokolunun imzalanması qarşıdakı illərdə ilk növbədə Azərbaycanda maliyyə sabitliyinin qorunması, xarici şoklara adekvat addımlar atmaq üçün hazırlıqlı olması baxımından çox böyük tarixi önəm daşıyır.

### Əməkdaşlıqda nələr var?

Müqavilə ilə bağlı rəsmi açıqlamalara əsasən:

- *Bank sektorunun cari vəziyyəti və sektora təsir edən əsas faktorlar qiymətləndiriləcək, aparıcı bankların biznes modelləri skorinq metodologiyasına uyğun olaraq nəzərdən keçiriləcək, bank sektorunun maliyyə dayanıqlığının gücləndirilməsi və restrukturizasiya proseslərinin başa çatdırılması üçün zəruri olan tədbirlər üzrə tövsiyələr hazırlanacaq;*
- *Banklararası, kapital və borc bazarlarının, bazar iştirakçılarının, prosedurların və infrastrukturun, məhsulların, bankların beynəlxalq borc və kapital bazarlarında iştirak imkanlarının təfərrüatlı qiymətləndirilməsi həyata keçiriləcək;*
- *Milli valyutada mövcud olan maliyyə alət və bazarları, onların inkişaf perspektivləri, maliyyə institutlarının rolu, yerli və beynəlxalq kliring və depozitari təşkilatları arasında əməkdaşlığ ın gücləndirilməsi imkanları nəzərdən keçiriləcək və tövsiyələr hazırlanacaq.*

Qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla həyata keçiriləcək bu tədbirlər kapital və pul bazarlarının dərinləşdirilməsi və inkişaf etdirilməsi, bank sektorunun maliyyə dayanıqlılığının gücləndirilməsi, iqtisadi artımda maliyyə sektorunun rolunun yüksəlməsində mühüm rol oynayacaq.



> Azərbaycanın maliyyə sektorunun indiki vəziyyəti 3500-dən çox peşəkar eksperti ilə 40-dan çox ölkədə maliyyə məsləhət xidmətləri göstərən **“Rothschild & Cie”** tərəfindən qiymətləndiriləcək.

Beləliklə, ilk növbədə Azərbaycanın maliyyə sektorunun indiki vəziyyəti 3500-dən çox peşəkar eksperti ilə 40-dan çox ölkədə maliyyə məsləhət xidmətləri göstərən “Rothschild & Cie” tərəfindən qiymətləndiriləcək. Ölkənin aparıcı banklarının biznes modellərinə yenidən baxılacaq.

### Bank bazarında rəqabət formalaşacaq

“Məlumata sahib olan dünyaya sahibdir” şüarı ilə işləyən Rotşildlər bu məlumatları analiz edərək, Azərbaycan bank sistemi üçün tövsiyyələr hazırlayacaq. Eyni zamanda, “Rothschild & Cie”nin Azərbaycanın maliyyə sektoru ilə bağlı vəziyyətə mütəxəssis rəyi verməsi, eyni zamanda, onların məsləhətçi missiyası daşıması özü dünya bazarında ölkəmiz üçün yeni imkanlar açacaq.

İlk növbədə xarici investorların maliyyə sektorumuza marağı yaranacaq və nəticədə, yeni sərmayə qoyuluşlarının, xarici bankların Azərbaycan bazarına daxil olmasının şahidi olacağıq. Təbii ki bu, yeni rəqabət mühiti formalaşdıracaq və “ayaqda uyuyan” bəzi yerli banklar ya bazarı tərk edəcək, ya da özlərində güc tapıb inkişaf edəcəklər. Bütün hallarda isə bundan bank sektoru, nəticə etibarilə sahibkarlıq udacaq və zəncirvari olan bu proses maliyyə həlqəsindəki hər bir vətəndaş üçün faydalı, əlverişli şərtlərə malik xidmətlərin yaranmasına səbəb olacaq.

### “İndi xarici banklar Azərbaycana gələcəklər”

Maliyyə sahəsində ekspert, Azərbaycan Mərkəzi Bankının sabiq əməkdaşı Əkrəm Həsənov da hesab edir ki, “Rothschild & Cie” ilə işbirliyi bank sektoruna yeni imkanlar açacaq.

“Əgər biz yaxşı və əsl bank sisteminə malik olmaq istəyiriksə,

onlar nə deyirsə, onu edəcəyik. Əlbəttə, burada Rotşildlərin də öz maraqları var, amma əsas odur ki, bizim bank qanunvericiliyi sistemli olsun. İndi xarici banklar Azərbaycana, güman edirəm ki, gələcəklər. Onlar bu bazara investisiya qoyacaqlar və istəyirlər ki, "oyun qaydaları" dəqiq müəyyənləşdirilsin. Bu halda, əlbəttə, rəqabətdə bəzi yerli banklar uduzacaq və bazarı tərk edəcək. Azərbaycan buna hazırdır, əsas odur ki, nəticədə bank sektoru udacaq", – deyə ekspert düşünür.

## Rotşildlər Azərbaycanı yeni "kəşf etmirlər"

Qeyd edək ki, Rotşildlər Azərbaycanı, onun iqtisadi imkanlarını, maliyyə bazarını indi "kəşf etmirlər". Onlar məşhur "neft bumu" dövründə – XIX əsrin 80-ci illərində gəliblər. 1883-cü il mayın 16-da "Rotşild qardaşları" bank evi Bakıda "Xəzər–Qara dəniz neft sənayesi və ticarət cəmiyyəti" (qısaca "Xəzər–Qara dəniz cəmiyyəti") adlı yeni bir şirkət təsis etmişdilər. Bu şirkətə Bakının Balaxanı, Sabunçu, Ramana kəndlərində neftlə zəngin olan 19 desyatin torpaq sahəsi, habelə kerosin zavodu daxil idi.

1884-cü ildə şirkətin Bakıdan xaricə apardığı neft məhsullarının həcmi 2,4 mln. pud olmuşdusa, 1889-cu ildə bu göstərici 30 mln. puda çatmışdı.

"Xəzər–Qara dəniz cəmiyyəti"nin yaradıcısı, 1868-ci ildən Paris bank evinə başçılıq etmiş baron Alfons Rotşild Parisdə çox məşhur bankir Ceyms Rotşildin oğlu idi. Fransa 1871-ci ildə Prussiya ilə müharibədə məğlub olandan sonra onun təzminatını məhz A.Rotşildin ödədiyini, bununla da Adolf Tyeri Fransa hökumətinin başında məhz onun saxladığını qeyd etmək kifayətdir.

Bakı ilə Batumu birləşdirən Zaqafqaziya dəmiryolunun inşası 1883-cü ildə məhz A.Rotşildin verdiyi istiqrazların sayəsində

> İlk növbədə xarici investorların maliyyə sektorumuza marağı yaranacaq və nəticədə, yeni sərmayə qoyuluşlarının, xarici bankların Azərbaycan bazarına daxil olmasının şahidi olacağıq.

başa çatdırılıb. Təkcə 1884-cü ildə Zaqafqaziya dəmiryolu ilə təxminən 5,6 mln. pudluq müxtəlif neft məhsulları daşınıb.

Zaqafqaziya dəmir yolu salındıqdan sonra isə Bakı–Batum neft kəməri ideyasını həyata keçirənlər arasında məşhur milyonçular H.Z.Tağıyev, İ.P.İlimov və S.İ.Bağırovla birlikdə A.Rotşild də vardı. Belə ki, A.Rotşild bu məqsədlə Lion kredit cəmiyyətinin Peterburq şöbəsinin 4%-li daxili istiqraz kağızlarına 1mln. rubl yatıraraq tikintinin layihəsinin hazırlanması üzrə görkəmli alim, mühəndis V.Q.Şuxovun işlərini maliyyələşdirib.

Əgər 1883-cü ildə A.Rotşildin ilkin kapitalı 1,5 mln. rubl olmuşdusa, 1912–1913-cü illərdə bu kapital 10 mln. rublu keçmişdi.

A.Rotşildin şirkətinin uğurlu fəaliyyəti Bakıya fransız kapitalı ilə yanaşı, ingilis kapitalını (C.Vişau və b.) da cəlb etmişdi.

Rotşildlər Bakıda xeyriyyə və tikinti işləri ilə də məşğul olublar. Şirkətin pulu ilə Kaspiysk (indiki R.Behbudov) küçəsində tikilmiş sinaqoqun nəzdində pulsuz təhsil verən kişi və qadın texniki sənət məktəbləri, həmçinin, şənbə günləri axşam sinifləri fəaliyyət göstərirdi. Hazırda bu binada R.Behbudov adına Mahnı Teatrı yerləşir.

Rotşildlər Bakıda – Ağ şəhərdə və Bayılda məktəb tikintisinə, həmçinin, gözəl binaların inşasına böyük vəsaitlər xərcləyiblər. Hazırda həmin binalardan birində Azərbaycan Dövlət İncəsənət Muzeyi yerləşir. Vaxtilə mühəndis N.A. fon der Nonnenin inşa etdiyi bu bina de Burun imarəti olub. "Xəzər–Qara dəniz cəmiyyəti"nin baş kontorunun binasını isə 1899-cu ildə mülki mühəndis K.B.Skureviç inşa edib. İndi həmin binada Respublika Baş Prokurorluğu fəaliyyət göstərir.




*İlhamə Abdullayeva*

# Neft Fondunun aktivləri 40 milyard ABŞ dollarını keçdi

**Bu il 20 illiyini qeyd edən Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) aktivləri ARDNF-nin tarixində ilk dəfə olaraq 40 milyard ABŞ dolları həcmini keçdi.**



Dövlət Neft Fondunun məlumatına görə, 2019-cu ilin yanvar-mart ayları ərzində ARDNF-nin büdcə gəlirləri 5 milyard 960,7 milyon manat, büdcə xərcləri isə 2 milyard 640,7 milyon manat təşkil edib.

2019-cu ilin birinci rübü ərzində ARDNF-nin neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 4 milyard 605,0 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından 3 milyard 833,5 milyon manat, bonus ödənişləri 766,4 milyon manat, tranzit gəlirləri 5,1 milyon manata çatıb.

Ötən rüb ərzində Fondun vəsaitinin idarə olunmasından əldə edilən gəlirlər 1 milyard 355,7 milyon manata bərabər olub.

Hesabat dövrü ərzində ARDNF-nin 2019-cu il büdcəsinin icrası çərçivəsində 2 milyard 615,0 milyon manat vəsait dövlət büdcəsinə transfert edilib. Qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 19,7 milyon manat vəsait ayrılmışdır. 2019-cu ilin yanvar-mart ayları ərzində ARDNF-nin idarə edilməsi ilə bağlı xərcləri 6,0 milyon manat təşkil edib.

> 2019-cu ilin birinci rübü ərzində ARDNF-nin neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 4 milyard 605,0 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından 3 milyard 833,5 milyon manat, bonus ödənişləri 766,4 milyon manat, tranzit gəlirləri 5,1 milyon manat təşkil edib.










Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı ARDNF-nin büdcədənkənar xərci isə 332,0 milyon manatdır.

2019-cu ilin 31 mart tarixinə Fondun aktivləri 2019-cu ilin əvvəlinə (38 milyard 515,2 milyon ABŞ dolları) nisbətən 4,56% artaraq 40 milyard 273,3 milyon ABŞ dollarına bərabər olmuşdur. Aktivlərin artımı Fondun büdcə gəlirləri, o cümlədən vəsaitlərin idarə edilməsindən əldə edilən gəlirlər hesabına baş verib.

Azərbaycan Neft Fondunun 2019-cu ilin birinci rübü üzrə xərcləri 104 milyard 342 milyon dollar olub. Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümovun sözlərinə görə, 2018-ci ildə layihələrin maliyyələşdirilməsi istiqamətində işlər davam etdiri-







> ARDNF-in maliyyələşdirdiyi bir sıra layihələrin – 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının, Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin icrası artıq başa çatmaq üzrədir.

lib. TANAP, "Şahdəniz 2", eləcə də, Bakı-Tbilisi-Qars yeni dəmir yolu, Türkiyənin ən nüfuzlu layihəsi sırasına daxil olmuş "Star" neft

## Neft pullarının xərclənməsi ilə bağlı layihələr

| Layihələr | Xərclənən vəsait, mln AZN |
|---|---|
| Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri | 297,9 |
| Qaçqın və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması | 2 322,4 |
| Oğuz-Qəbələ-Bakı su kəməri layihəsi | 779,6 |
| Samur-Abşeron suvarma sisteminin yenidən qurulması | 1 469,6 |
| Dövlət büdcəsinə transfertlər | 91 191,0 |
| Dövlət İnvestisiya Şirkətinin nizamnamə kapitalının maliyyələşdirilməsi | 90,0 |
| Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsi | 748,6 |
| Xaricdə təhsil üzrə Dövlət Proqramı | 212,7 |
| "Star" neft emalı kompleksinin tikintisi | 1 663,3 |
| AÇG layihəsində ARDNŞ-nin iştirak payının maliyyələşdirilməsi | 87,6 |
| Cənub Qaz Dəhlizi | 1 530,3 |
| Azərbaycan Respubikasının Mərkəzi Bankına transfer | 3 949,5 |

emalı zavodu kompleksi kimi layihələr uğurla icra edilib.

Şahmar Mövsümov qeyd edib ki, ARDNF-in maliyyələşdirdiyi bir sıra layihələrin, o cümlədən, 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının, Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin icrası artıq başa çatmaq üzrədir.

Belə ki, 2021-ci ildə xaricdə







> Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı ARDNF-nin büdcədənkənar xərci isə 332,0 milyon manatdır.

təhsil proqramı çərçivəsində təhsil alan son tələbənin məzun olması nəzərdə tutulur. Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsi çərçivəsində görülmüş işlər isə tamamlanıb, 2019-cu ildə bu layihə çərçivəsində son obyekt olaraq Şabran rayonu ərazisində yeni suvarılan torpaqların istifadəyə verilməsi obyektinin tikintisinin başa çatdırılması nəzərdə tutulur.

Məcburi köçkünlərin sosial məişət və məskunlaşma məsələləri ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə gəldikdə, cari ildə Neft Fondu tərəfindən bu layihənin maliyyələşdirilməsi davam etdiriləcək ki, bu məqsədlə ARDNF-in 2019-cu il büdcəsində 200 milyon manat vəsait ayrılıb.



# "Əsrin müqaviləsi"nin 25 illiyinə hədiyyə: "Mərkəzi-Şərqi Azəri" üzrə yeni saziş bağlandı

Ekspertlərin əvvəlki pessimist proqnozlarına baxmayaraq, neft-qaz sektoru hələ uzun illər Azərbaycan iqtisadiyyatında aparıcı rol oynayacaq. Geoloqların son kəşfləri və onlara neft-qaz bazarı liderlərinin sönməyən marağı bizə "Wood Mackenzie" analitik şirkətinin gəldiyi nəticələrə inanmağa imkan yaradır. Həmin nəticələrə görə, 2018-2025-ci illərdə Azərbaycanın hasilat sənayesinə 20 mlrd. dollara yaxın sərmayə yatırılacaq. Şirkət bildirir ki, bu vəsaitlər Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun işlənməsinə yatırılacaq. Öz növbəsində, "Fitch Ratings" agentliyi 2022-ci ildə Azərbaycanda neft hasilatının artaraq sutkada 880 min barel olacağını proqnozlaşdırır (2018-ci ildə - 792,6 min b/s olmuşdu).



## Mənfəət nefti

Həqiqətən, Azərbaycanda neft-qaz sektorunun inkişafından danışarkən, əsasən "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" layihələrinə güvənirlər. Azərbaycanın enerji naziri Pərviz Şahbazov SOCAR-ın "Trans-Xəzər və Mərkəzi Asiya - treydinq, logistika, neft emalı, neft-kimya" dördüncü beynəlxalq forumunda çıxış edərkən bildirib ki, indiyə qədər "Azəri-Çıraq-Günəşli" blokundan çıxarılan neftin həcmi 2019-cu ilin 1 aprel tarixinə 481,1 milyon ton neft və 156,2 milyard kubmetr səmt qazı təşkil edib. Bu zaman Azərbaycanın mənfəət nefti blokdan çıxarılan bütün neftin 58%-ni təşkil edib.

"Energetika Nazirliyinin 2019-2021-ci illər üzrə enerji balansında əks olunmuş proqnozlara görə, Azərbaycanda bu müddət ərzində neft hasilatı sabit olacaq, qazın çıxarılmasında və ixracında isə artım gözlənilir. Bu müddət ərzində ölkənin neft-qaz sənayesinin inki-

"Əsrin müqaviləsi"nin uğurla həyata keçirilməsi sayəsində Azərbaycan Dövlət Neft Fonduna (ARDNF) 2001-ci ildən 2019-cu ilədək "Azəri-Çıraq-Günəşli" blokunun mənfəət neftinin satışından daxil olan gəlir 138,2 milyard dollara bərabərdir.





şafında aparıcı rolu “Azəri-Çıraq-Günəşli” və “Şahdəniz” oynayacaq”, - deyə nazir vurğulayıb.

Düzdür, ABƏŞ-in iki istehsal platformasında “Mərkəzi Azəri” və “Qərbi Çıraq”da iki həftə ərzində işin dayandırılması üzrə planları üzündən cari ilin sonuna kimi bu göstərici azalacaq. Azərbaycan Energetika Nazirliyinin yenilənmiş qiymətləndirmələrinə görə, 2019-cu ildə ölkədə neft hasilatı 38 milyon ton səviyyəsində proqnozlaşdırılır, halbuki 2018-ci ildə 38,8 milyon ton olmuşdu.

Ancaq necə deyərlər, hər pis işdə bir xeyir var: bu, Azərbaycanın OPEK+ çərçivəsində gündəlik neft hasilatını 776 min barelə endirmək üzrə götürdüyü öhdəliyi yerinə yetirməyə imkan verəcək. Sazişin bu ilin yanvar ayında qüvvəyə minməsinə baxmayaraq, Azərbaycan birinci rübdə neft hasilatını tələb olunan səviyyəyə sala bilmədi. Energetika Nazirliyinin məlumatına görə, yanvar-mart aylarında orta gündəlik neft hasilatı 799 min barel təşkil edib.

> “
> 2019-cu ilin yekunlarına əsasən, “Azəri-Çıraq-Günəşli”dən mənfəət neftinin satışı üzrə Fondun gəlirlərinin 7,8 milyard dollar səviyyəsində olacağı proqnozlaşdırılır.

Yeri gəlmişkən, “Əsrin müqaviləsi”nin uğurla həyata keçirilməsi sayəsində Azərbaycan Dövlət Neft Fonduna (ARDNF) 2001-ci ildən 2019-cu ilədək “Azəri-Çıraq-Günəşli” blokunun mənfəət neftinin satışından daxil olan gəlir 138,2 milyard dollara bərabərdir. Təkcə keçən il yüksək neft qiymətləri sayəsində “Azəri-Çıraq-Günəşli”dən mənfəət nefti və “Şahdəniz” yatağından kondensat satışı hesabına ARDNF-ə 9,7 milyard dollar daxil olub.

2019-cu ilin yekunlarına əsasən, “Azəri-Çıraq-Günəşli”dən mənfəət neftinin satışı üzrə Fondun gəlirlərinin 7,8 milyard dollar səviyyəsində olacağı proqnozlaşdırılır. Hazırda qiymətlər neft istehsalçıları, o cümlədən Azərbaycan üçün qənaətbəxşdir. Ölkənin büdcəsi formalaşdırılarkən neftin qiyməti bir barel üçün 60 dollardan götürülüb, halbuki hazırda qiymət 72 dollardan yuxarıdır, yəni artıq hökumətin ümid etdiyindən 20% yüksəkdir. Bu, ən azından 2019-cu ilin ilk yarısında ölkənin tədiyyə balansında müsbət saldonun saxlaması, neft ixracından əlavə gəlirlərin əldə edilməsi deməkdir.

## 6 milyard dollarlıq hədiyyə

Yeri gəlmişkən, bu il sentyabrın 20-də “Azəri-Çıraq-Günəşli” blokunun işlənməsi üzrə müqavilə öz 25 illik yubileyini qeyd edəcək və ona əsas doğum günü hədiyyəsi “Mərkəzi-Şərqi Azəri” (MŞA) layihəsi üçün son investisiya qərarının qəbul olunmasıdır. SOCAR və AÇG layihəsi üzrə xarici tərəfdaşları müvafiq sənədi 19 aprel tarixində imzaladılar.

SOCAR prezidenti Rövnəq Abdullayev bildirib ki, “Azəri-Çıraq-Günəşli” blokunun işlənməsinə bu günədək 36 milyard dollar sərf olunub, blokun qalan ehtiyatları isə ən azı 500 milyon ton neft səviyyəsində qiymətləndirilir.

“Onilliklər ərzində SOCAR Azərbaycanın neft gəlirlərini ölkəmizdə yüksəkixtisaslı işçilərin və çağdaş sənaye obyektlərinin inkişafı üçün yönəldib. Bu gün bizdə dünya səviyyəli zavodlar, istehsal və quraşdırma kompleksləri, dəniz gəmiləri var. Həmçinin “Mərkəzi-Şərqi Azəri” platformasının bütünlüklə Azərbaycan mütəxəssisləri tərəfindən ölkə daxilində

tikintisinə və qurulmasına imkan yaradan yüksəkixtisaslı kadrlara sahibik. Gələcəyə baxdığımızda, AÇG-dən 3 milyard bareldən artıq əlavə neft istehsalı gözləyirik. Bu strateji qərar Azərbaycanın regional və qlobal bazarlarda enerji təchizatçısı kimi artan rolunu dəstəkləyir", – deyə Dövlət Neft Şirkətinin rəhbəri bildirib.

"Mərkəzi Şərqi Azəri" layihəsinin həyata keçirilməsi 6 milyard dollara başa gələcək ki, bunlardan 3,4 milyardı platformanın və birləşmə infrastrukturunun tikintisinə, qalan hissəsi isə quyuların qazılmasına yönəldiləcək. Layihə çərçivəsində dənizin 137 m dərinliyində "Mərkəzi-Şərqi Azəri" qazma platforması tikiləcək, gündə 100 min barel neft və 350 min kub fut qaz istehsalını təmin etmək üçün dəniz qurğuları inşa ediləcək. Yeni platformadan ilkin neftin 2023-cü ildə əldə edilməsi güman edilir, bir il sonra – 2024-cü ildə hasilatda zirvə həcminə nail olunacaq. Ümumilikdə, platformanın istismar müddəti boyunca 300 milyon barel neft çıxarılması planlaşdırılır.

SOCAR-ın məlumatına görə, "Mərkəzi Şərqi Azəri" layihəsi üzrə tikinti işləri artıq bu ildən başlayacaq və 2022-ci ilin ortalarına qədər davam edəcək. Tikinti işlərinin ən gur çağında 8 min adam cəlb ediləcək. Bu, önəmlidir: platformanın dayaq blokunun və üst modullarının, o cümlədən sualtı infrastrukturu hissəsinin tikintisi Azərbaycanda həyata keçirilməlidir. O cümlədən, dayaq bloku və platformanın üst tikililəri Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda tikiləcək. Blokdan çıxarılan neft və qaz Səngəçal terminalına ötürüləcək.

Yeri gəlmişkən, "Mərkəzi-Şərqi Azəri" layihəsi "Azəri-Çıraq-Günəşli" blokunun əlavə işlənməsinin mərhələlərindən biridir ki, əlavə işlənmə 2050-ci ilə qədər hesablanıb və təxminən, 43 milyard dollar qiymətləndirilir, 500 milyard ton neft istehsalını nəzərdə tutur. Ancaq son bir neçə ildə AÇG blokunda neft hasilatı təbii səbəblər üzündən ildən



> Bu il sentyabrın 20-də "Azəri-Çıraq-Günəşli" blokunun işlənməsi üzrə müqavilə öz 25 illik yubileyini qeyd edəcək və ona əsas doğum günü hədiyyəsi "Mərkəzi-Şərqi Azəri" (MŞA) layihəsi üçün son investisiya qərarının qəbul olunmasıdır.



ilə azalır. Aydındır ki, bu şəraitdə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin əsas hədəfi neft hasilatını sabitləşdirməkdir ki, "Mərkəzi-Şərqi Azəri" layihəsinin gerçəkləşdirilməsi buna yönəlib. Bu isə, ən azı 10-15 il ərzində azalmanın qarşısını almaqla hasilatın sabit həcmini və uyğun olaraq ixracdan sabit valyuta gəlirləri təmin etməyə imkan verəcək.

"AÇG-dən hasilat, bəlkə də, 2010-cu ilədək ən yüksək zirvə nöqtəsinə çatardı, amma blokdan hələ də 3 milyard barel neftin çıxarılmalı olduğu nəzərə alınarsa, layihə hələ yolun yarısındadır. Operatorun – BP şirkətinin əsas vəzifəsi bərpanı və yerdə qalan dəyəri maksimum səviyyəsini artırmaq üçün bu uzunmüddətli hasilat azalması dövrünü idarə edilməkdir. "Mərkəzi Şərqi Azəri" layihəsi bu planların mərkəzində yer alır və hasilat üçün zirvə göstəricisi 2020-ci illərin ortalarında gündəlik 100 min barel olacaq artım təmin edəcək", - deyə "Wood Mackenzie"in baş analitiki Robert Morris bildirib.

Analitikin sözlərinə görə, BP ölkədə neft hasilatının, təxminən, 80%-ni idarə edir və 2023-cü ildə "Mərkəzi-Şərqi Azəri" ilk neftini verdikdən sonra Azərbaycan bu Britaniya şirkətinin dünya portfelində böyüklüyünə görə beşinci neft mənbəyi olacaq. "Mürəkkəb logistika göstərir ki, Xəzərdəki bir çox layihələr digər yerlərdəki ilə müqayisədə daha baha başa gəlir və daha uzun vaxt tələb edir. Amma buna baxmayaraq, keçən il BP şirkəti tərəfindən "Şahdəniz" layihəsinin ikinci mərhələsinə plan və büdcəyə uyğun olaraq başlanması "Mərkəzi-Şərqi Azəri"yə ümidlə baxmağa imkan verir ", - deyə R.Morris qeyd edir.

## Şirkətlər arasında...

Eyni zamanda, son investisiya qərarının imzalanması günündə layihənin səhmdarları "Əsrin müqaviləsi"ndə ABŞ-ın "Chevron" və "ExxonMobil" şirkətlərinin payının satışı məsələsinə də aydınlıq gətiriblər. Hər iki şirkət bu barədə hələ ötən ilin sonunda məlumat vermişdi. Məlumdur ki, layihədə "Chevron" şirkətinin payı 9,57%, "ExxonMobil"inki isə 6,79% təşkil edir. Çox güman ki, bu səhmlər layihənin digər iştirakçıları arasında bölüşdürüləcək. SOCAR rəhbəri qeyd edib ki, Azərbaycan Dövlət Neft Şirkəti və onun xarici tərəfdaşları bu səhmlərin alınması üzrə tenderdə iştirak etmək qərarına gəliblər.



Gələcək sövdələşmənin mexanizmi müəyyən dərəcədə SOCAR-ın Sərmayələr İdarəsinin rəisi Vaqif Əliyev tərəfindən açıqlanıb. "Chevron" və "ExxonMobil" şirkətlərinin AÇG layihəsindəki payının satışı üzrə tender artıq elan edilib. SOCAR və onun layihə üzrə tərəfdaşları satılan səhmləri bir paketlə əldə edəcəklər və sonra onu öz aralarında bölüşdürəcəklər", - deyə o bildirib, amma SOCAR-ın özünün iddia etdiyi səhm payının həcmi barədə məlumat verməyib.

"Bu, təklif olunacaq qiymətdən və şərtlərdən asılı olacaq", - deyə V.Əliyev vurğulayıb.

"Chevron" və "ExxonMobil" şirkətlərinin payının satınalınması məsələsinə baxmağa hazır olmalarını aprel ayının əvvəlində Britaniya - Amerika şirkəti BP-nin rəhbəri Robert Dadli də açıqlayıb. "Biz AÇG-də iştirakımızdan razıyıq. Düşünürəm ki, payımızı artırmaq imkanı olsa, bu, bizim üçün təbii seçim olacaq, lakin hər şey qiymətdən asılıdır".

Hazırda AÇG-də BP-nin (operator) payı 30,37%-dir, SOCAR - 25%, ONGC - 2,31%, Yaponiyanın "İnpex Corp." və "Itochu Oil" şirkətlərinin hər biri müvafiq olaraq 9,31% və 3,65%, Norveçin "Equinor" şirkəti - 7,27% və Türkiyə TPAO-su - 5,73% paya malikdir.

Kənar səhmdarların layihəyə daxil olması ehtimalı yoxdur, lakin belə bir variantı sona qədər istisna etmək də qeyri-mümkündür. Əminliklə yalnız bir şey ehtimal edilə bilər: yeni sövdələşmənin də nəticələrinə görə "Azəri-Çıraq-Günəşli" layihəsinin əsas səhmdarı BP olaraq qalacaq.

# Vergi qanunvericiliyinə edilmiş dəyişikliklər vergi yükünü azaldıb



*2019-cu ilin əvvəlindən vergi qanunvericiliyində edilmiş dəyişikliklər kiçik sahibkarlıq subyektlərinin vergi yükünü aşağı salmaqla yanaşı, onların hesabatlılığında da müəyyən sadələşdirmələrin aparılması ilə müşayiət olundu. Sadələşdirilmiş verginin dərəcəsi 2 dəfəyədək aşağı salındı, bu vergini tətbiq etmək hüququ məhdudlaşdırılmış və gəlir (mənfəət) vergisi rejiminə keçmiş vergi ödəyicilərinə isə güzəştlər tətbiq edildi. Sadələşdirilmiş verginin əhatə dairəsinin dəqiqləşdirilməsi bu verginin mahiyyəti üzrə tətbiq edilməsini, kiçik sahibkarlar arasında uçotun aparılması mədəniyyətinin formalaşdırılmasını şərtləndirdi. Əvvəllər sadələşdirilmiş verginin ödəyicisi olmuş şəxslər uçot sistemini qurduqları halda daha aşağı vergi yükünə nail ola bildilər.*

Bəzən əvvəlki vergi rejimi ilə hazırkı vergi rejiminin müqayisəsi verilərkən yanlış şərhlərə yol verilir. Bu cür şərhlərin bəzilərinə aydınlıq gətirmək istərdik. Bunlardan biri - sadələşdirilmiş verginin hazırkı dərəcəsi (2%) ilə gəlir vergisi üzrə dərəcələrin (20% və ya 5%) müqayisə edilməsidir və vergi yükünün artdığı iddia edilir. Bu, vergi rejiminin tətbiqi xüsusiyyətlərindən xəbərdar olmamağın nəticəsidir. 2019-cu ilin 1 yanvar tarixinə qədər sadələşdirilmiş vergi mükəlləfiyyətində olan vergi ödəyicisi heç bir xərc nəzərə alınmadan ümumi hasilatından (dövriyyəsindən) Bakı şəhərində 4% vergi ödəyirdi. Dəyişiklikdən sonra gəlir vergisi mükəlləfiyyətini seçən sahibkar öz xərclərini rəsmiləşdirmək və onları gəlirindən çıxmaqla vergi yükünü aşağı salmaq imkanı əldə edib. Belə ki, sahibkarların böyük əksəriyyətini təşkil edən mikro sahibkarlıq subyektlərinə gəlir vergisindən 75 faiz güzəşt hüququ verilib. Üstəgəl qeyri-neft sektorunun özəl bölməsində sektor əməkhaqqı üzrə 8.000 manatadək gəlirlər vergidən tam azad edildiyinə görə, kiçik sahibkar vergi yükünü əhəmiyyətli şəkildə aşağı salmış olub.

Vergi yükünün necə dəyişməsinə kiçik bir misalda baxmaq olar: Bakı şəhərində ticarət fəaliyyəti ilə məşğul olan və 4 işçisi olan sahibkarın illik gəliri 120.000 manatdır və 0, hər işçiyə aylıq 500 manat əməkhaqqı verir. Dəyişiklikdən əvvəlki dövrdə vergi ödə-

yicisi sadələşdirilmiş vergi mükəlləfiyyətində olub, dəyişiklikdən sonra isə gəlir vergisi mükəlləfiyyətini seçib. Vergi ödəyicisinin satdığı mallar üzrə qazancı (mənfəəti) 10 faizdir.

Dəyişiklikdən əvvəlki vergi hesablaması aşağıdakı qaydada idi:

• *Sadələşdirilmiş vergi: 120.000 (illik gəlir) * 4% (sadələşdirilmiş vergi dərəcəsi) = 4.800,0 manat*

• *Əməkhaqqından tutulan gəlir vergisi: 4 işçi * (500,0 – 173,0 (yaşayış minimumu))* 14% * 12 ay = 2.197,4 manat*

• *Cəmi: 4800,0 + 2197,4 = 6997,4 manat*

*Dəyişiklikdən sonra hesablama aşağıdakı qaydadadır:*

• *Gəlir vergisi: (120.000(illik gəlir) – 108.000,0 (illik xərc))*20%*25% (mikrosahibkarlara təqdim edilən 75%-lik güzəşt) = 600,0 manat*

• *Əməkhaqqından tutulan gəlir vergisi:4 işçi * 500,0 * 0% * 12 ay = 0,0 manat*

• *Cəmi: 600,0 + 0,0 = 600,0 manat*

Beləliklə, dəyişiklikdən əvvəl vergi yükü 6.997,4 manat idisə, dəyişiklikdən sonra bu yük 600,0 manat olub ki, bu da nəticədə sahibkarın illik vergi yükünün6.397,4 manat azalması deməkdir.

Diqqət çəkmək istədiyimiz digər bir məsələ vergi və sosial sığorta hesabatlarının təqdim edilməsi ilə bağlıdır. Bəzi hallarda hesabatların təqdim edilməsinin mürəkkəbləşdiyi bildirilir. Məlum olduğu kimi, 2019-cu ildən başlayaraq sosial vergi yığımlarının Vergilər Nazirliyi tərəfindən həyata keçirilməsi vergi hesabatlarının təqdim edilməsi prosesində də yeniliklərlə müşayiət olunub. Sığortaedən və sığortaolunan arasında əmək münasibətlərinin qanunauyğun tənzimlənməsi, əmək haqlarının şəffaflaşdırılması, sosial sığorta ödənişlərinin düzgün, vaxtında toplanılması və bu sahədə inzibatçılığın təkmilləşdirilməsi məqsədilə Vergilər Nazirliyi tərəfindən “Məcburi dövlət sosial sığortası üzrə rüblük hesabat”ın və “İşsizlik sığortası üzrə rüblük hesabat”ın yeni formaları, onların tərtib olunması qaydaları təsdiq edilib. 2019-cu il və sonrakı dövrlər üzrə həmin hesabatlarda bəzi dəyişikliklər olunub. Kağız hesabatlarla yanaşı, sosial sığorta üzrə hesabatların elektron şəkildə təqdim edilməsi imkanı yaradılıb. Bu zaman fiziki şəxslər üçün “Asan imza”ya malik olmaq məcburi deyil. Vergi ödəyicisi bəyannamələri elektron şəkildə göndərdiyi kimi, sosial hesabatları da eyni qaydada təqdim edə bilər. Sosial hesabatların hazırlanması sadə elektron qutulardan istifadə qədər asan və rahatdır. İşçisi olmayan sahibkar cəmi 4-5 klikdən istifadə etməklə hesabatı tamamlayaraq təqdim edə bilir. Digər sahibkarlar üçün də bu proses əvvəlkinə nisbətən xeyli asanlaşdırılıb. Vergi və sosial ödəmələr isə elektronlaşdırılıb ki, bu proses də sahibkarın cəmi bir neçə dəqiqəsini ala bilər. Bununla yanaşı, hesabatların optimallaşdırılması və daha da sadələşdirilməsi istiqamətində davamlı tədbirlər görülməkdədir.




Ümumiyyətlə, aparılan təhlillər göstərir ki, vergi orqanlarına təqdim olunan bəyannamələrin və hesabatların böyük əksəriyyəti elektron şəkildə göndərilir. ƏDV ödəyiciləri, o cümlədən orta sahibkarlıq subyektləri üzrə bu göstəricilər 95 faiz üzərindədir. Vergi hesabatlarının təqdim olunması üçün vergi ödəyicilərinə xidmət mərkəzlərinə, əsasən, mikrosahibkarlıq fəaliyyəti ilə məşğul olan ödəyicilər müraciət edirlər. Təəssüf ki, bir çox hallarda ödəyicilər bəyannamə və hesabatları son günə qədər saxlayır və bu, bəyannamələrin təqdimetmə müddətinin sonunda xidmət mərkəzlərində sıxlığa gətirib çıxarır. Vergi bəyannamələrinin və hesabatlarının elektron təqdim edilməsi mürəkkəb proses deyil, Vergilər Nazirliyinin hazırladığı video-təlimatlara baxan hər kəs bunu asanlıqla mənimsəyə bilər. Buna görə də sahibkarlar bu mərkəzlərə getmədən də elektron qaydada hesabatlarını verə bilərlər.

Vergi qanunvericiliyi kiçik sahibkarlar üçün kifayət qədər aydın və rahat şərtlər müəyyən edib. 2019-cu ildən gəlirlərin və xərclərin uçotunu aparan kiçik sahibkarların dividendləri vergilərdən azad edilib, onlara sürətli amortizasiya normaları tətbiq etmək imkanı yaradılıb. Mikro sahibkarlıq subyektləri əmlak vergisindən tam həcmdə azad olunub. Müəyyənləşdirilmiş güzəştlər sistemi kiçik sahibkara daha əlverişli mühitdə çalışmaq, öz gəlirlərini artırmaq və reinvestisiya etmək imkanları yaradıb.



# ARBİTRAJ MƏHKƏMƏSİ

## MÜBAHİSƏLƏRİN DAHA SÜRƏTLİ HƏLLİ YOLU

**Arbitraj institutu müasir dövrün hüquq sistemində mübahisələrin məhkəmədənkənar alternativ həlli vasitələrindən biri kimi çıxış edir. Arbitraj məhkəmələri xüsusən iqtisadi-kommersial sahədə olan anlaşılmazlıqların sürətli həlli üçün ən önəmli yollardan biridir.**

Arbitraj Məhkəmələrinin yaşı digər mübahisələrin hüquqi həlli vasitələrindən xeyli az olsa da son 50 il ərzində sahibkarların etimadını qazanaraq ticari münasibətlərdə üzə çıxan mübahisələrin ədalətli həlli vasitəsi kimi qəbul edilmişdir.

Arbitraj institutunun tarixi elə də qədim deyil. Həmçinin ilk yarandığı zamanlarda arbitraj məhkəmələri ticari mübahisələrin həlli yox, beynəlxalq mübahislərin həllində hüquqi alət kimi uğurla istifadə edilmişdir. Beynəlxalq təşkilatlatları əsasən hərbi ittifaqların təşkil etdiyi bu dövrdə beynəlxalq konfliktlərin həllində bəzən barışdırıcı mövqe tutan daha nüfuzlu dövlətlər vasitəçilik rolunu üstlənmişlər. Lakin bu heç də geniş yayılmış üsul deyildi və mübahisələr heç də həmişə ədalətli həll olunmurdu. Eyni zamanda nəzərə alınmalıdır ki, vasitəçilik missiyasını üzərinə alaraq dövlətlərarası konflikti çözməyə çalışan dövlətlərin özlərinin də xüsusi siyasi, iqtisadi, hərbi marağı olurdu və bu maraqlar məsələnin adil bir biçimdə həll olunmasına obyektiv olaraq imkan vermirdi. Burda ən önəmli məsələlərdən biri də könüllülükdür. Tərəflər barışığa könüllü meyil etməyəndə hərbi, siyası, iqtisadi və digər təsir və basqı ilə nəyəsə nail olunsa da bu barışığın ömrü elə o təsir vasitəsinin ömrü qədər olurdu. Qısaca desək, mübahisələr əsasən ədalətsiz, birtərəfli iradə ilə və bunlardan doğan səbəblə müvəqqəti həll olunurdu.

Arbitraj institunun geniş nüfuz qazanması və çox qısa zamanda etimad göstərilən hüquqi həll mexanizmi kimi qəbul edilməsi genişmiqyaslı beynəlxalq müba-

hisələrin həllində uğurla istifadə edilməsindən sonra yarandı.

1890-1914 illərdə arbitraj diplomatlar və elitalar arasında geniş müzakirə edilirdi. Amerika Birləşmiş Ştatlarının və Böyük Britaniyanın 1895-ci ildə Venesuela üzərindəki mübahisəsi arbitraj yolu ilə sülhlə həll edildi. Hər iki tərəf gələcək münaqişələrin qarşısını almaq üçün bir mexanizm istənildiyini başa düşdü. 1897-ci ildə Olney-Pauncefote müqaviləsi 1897-ci ildə ABŞ və Böyük Britaniya arasında böyük mübahisələrin arbitraj tələb edən bir müqavilə idi. Bu müqavilə ABŞ Senatı tərəfindən qəbul edilməsə də, arbitraj institutunun beynəlxalq arenada həlledici vasitə kimi tanınması istiqamətində atılmış addım kimi uğurlu bir nümunə olaraq səciyyələndirilir.

Müasir Azərbaycan Respublikası ərazisində kapitalizm inzibati-iqtisadi formasiyası ötən əsrin əvvəllərində təşəkkül tapmağa başlasa da Sovet İttifaqının tarix səhnəsinə çıxması və tezliklə güclü hərbi-iqtisadi bloka çevrilməsi və keçmiş çar Rusiyası ərazilərinə nəzarət eləməsi Azərbaycan torpaqlarında da iqtisadi baxışın dəyişməsinə, sosializm ideyalarının kapitalizmi sıxışdırıb aradan çıxarması ilə nəticələnmişdir. Buna görə də Azərbaycan Respublikasında arbitraj institunun yaranması XX əsrin 90-cı illərinə təsadüf edir. 25 fevral 1992-ci il tarixdə hakimiyyətin qanunvericilik qolunu təmsil edən Azərbaycan Respublikası Ali Soveti "Azərbaycan Respublikasının arbitraj məhkəməsi haqqında" 76 saylı Azərbaycan Respublikasının Qanununu qəbul etmişdir. Həmin qanunun icrası məqsədi ilə Azərvaycan Respublikası Milli Məclisi tərəfindən bir çox qanun və qərarlar qəbul olunsa da siyasi stabillik və iradənin davam etdirilməməsi bu qanunun icrasının bu günə qədər təxirə salınması ilə nəticələnmişdir. Qəbul edildiyi zamandan bəri dəyişdirilməyən, lakin hələ də qüvvədə olan həmin qanunun 7-ci maddəsinə əsasən hakimlər 30 yaşına çatan, ali hüquq təhsilli və hüquq ixtisası sahəsində azı 5 il iş stajı olan Azərbaycan Respublikası vətəndaşları arasından Azərbaycan Respublikası Ali Soveti tərəfindən 10 il müddətinə seçilirlər. Bu qanunda ən diqqət çəkən məqamlardan biri arbitraj məhkəmələrinin qərarlarından şikayət verilməsi üçün yuxarı instansiya arbitraj məhkəmələrinin yaradılmasının də nəzərdə tutulmasıdır ki, bu xüsusiyyət London Beynəlxalq Arbitraj Məhkəməsi üçün də keçərlidir.

> 90-cı illərdəki qanunvericilikdə təsbit olunan arbitraj institutu öz mahiyyətinə, quruluşuna, təşkilininə görə mübahisələrin məhkəmədənkənar həlli vasitəsindən çox iqtisadi məhkəmələrə bənzəyir ki, bu da arbitrajın müasir hüquqda qəbul edilən anlayışına uyğun deyil.



Arbitraj sahəsində indiyə qədər respublika ərazisində qüvvədə olan qanunvericilik aktları arasında ən mütərəqqisi 18 noyabr 1999-cu il tarixdə qəbul edilmiş "Beynəlxalq arbitraj haqqında" Azərbaycan Respublikasının Qanunudur. Qanun Azərbaycan Respublikasının 31 may 1996-cı il tarixdə qeyd-şərtsiz qoşulduğu "Xarici ticarət arbitrajı haqqında Avropa Konvensiyasının müddəaları, hüquqi istiqamət və prinsiplərini rəhbər alaraq hazırlanmışdır. Bu qanunun 5-ci maddəsi arbitraj məhkəmə proseduruna dövlət müdaxiləsini qadağan eləsə də 34-cü maddəsinə əsasən Azərbaycan Respublikası Ali Məhkəməsinin bəzi şərtlər daxilində məhkəmə qərarını ləğv eləmək hüququ vardır. Yuxarıda adları çəkilən hər iki qanun qüvvədə olsa da bu qanunlar arasında açıq ziddiyyət mövcuddur. Belə ki, 1992-ci il qanununa əsasən hakimlər dövlət tərəfindən təyin edilsə də, 1999-cu il qanununa görə arbitrləri məhkəmə tərəfləri seçir və sonuncuda növbəti apellyasiya arbitraj məhkəməsi institutu nəzərdə tutulmamışdır. Nəzərə alınmalıdır ki, hazırda qüvvədə olan Konstitusiyamızın 60-cı maddəsi hər bir şəxs üçün məhkəmə müdafiəsi hüququnu təmin edir. İndiki halda arbitraj məhkəməsinin yekun qərarından sonra narazı tərəflərin adi qaydada məhkəməyə müraciət eləməklə bağlı konstitusion hüququnun mövcudluğu qanunvericilikdə kolliziya yaradır və hesab edirik ki, bu arbitraj məhkəmə institutuna etimadın yüksəldilməsi istiqamətində görülən işləri axsadır.

Düşünürük ki, 90-cı illərdəki qanunvericilikdə təsbit olunan arbitraj institutu öz mahiyyətinə, quruluşuna, təşkilininə görə mübahisələrin məhkəmədənkənar həlli vasitəsindən çox iqtisadi məh-



kəmələrə bənzəyir ki, bu da arbitrajın müasir hüquqda qəbul edilən anlayışına uyğun deyil. Hazırda qüvvədə olan bu qanunvericilik aktlarına istinadən arbitraj institutunu qurmaq və onu sahibkarların xidmətinə təqdim eləmək mümkün deyil. Son 20 ildə Azərbaycan Respublikası ərazisində biznes mühitinin yaxşılaşdırılması, vergi-gömrük sistemlərində aparılan ardıcıl, uğurlu islahatlar, siyasi stabillik nəticəsində sahibkarlıq-özəl sektor inanılmaz sürətlə inkişaf etmişdir. Bu gün bütün ölkə üzrə məhkəmələrdə baxılan işlərin 80%-dən çoxu iqtisadi mübahisələrlə əlaqədardır. İqtisadi, biznes mübahisələrinin çoxluğu obyektiv olaraq məhkəmlərdə iş sıxlığı yaratmaqla yanaşı, işin hərtərəfli araşdırılmasına, tez və effektiv həll olunmasına da maneəçilik törədir. Bu mənada mübahisələrin məhkəmədənkənar həlli vasitələrinin hüquqi fəaliyyət dairəsinin genişləndirilməsi və tətbiqi olduqca mühümdür və bu məqsədlərə çatmaq üçün qanunvericiliyimizdə ciddi islahatların aparılmasına ehtiyac var.

Son zamanlarda ümümi ölkə miqyasında aparılan hüquq islahatları prosesində arbitraj istitutu və münahisələrin məhkəmədənkənar həlli vasitələrinin təkmilləşdirilməsi istiqamətində işlərin görülməsinə başlanılmışdır. Azərbaycan Respublikası Prezidentinin, 3 aprel 2019-cu il tarixli, 604 saylı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı arbitraj institutunun uğurla tətbiq oluna biləcək səviyyəyə yüksələcəyinə, sahibkarların etimadını qazanacağına ümid yaradır.

**Effektiv arbitraj məhkəməsinin təşkil edilməsində uğurlu xarici təcrübələrin öyrənilməsi olduqca vacibdir.**

İndiki şəraitdə effektiv, hərtərəfli və cəlbedici arbitraj məhkəməsinin təşkil edilməsində uğurlu xarici təcrübələrin öyrənilməsi olduqca vacibdir. Nyu-York, London, Stokholm, İstanbul arbitraj məhkəmələri uzun illərin sınağından çıxmış, sahibkarların etibar və etimadını qazanmış mübahisələrin effektiv və çevik həlli vasitələrindən biridir. London Sənaye Ticarət Palatasının yaratdığı, lakin tam müstəqil fəaliyyət göstərən London Beynəlxalq Arbitraj Məhkəməsinin hakimlərinin çoxu hüquqşünas olmasa da, ayrı-ayrı sahələr üzrə qabaqcıl mütəxəssislərdir. Bu sistemdə həmçinin məhkəmə qərarlarından apellyasiya şikayət etmək proseduru mövcuddur. Stokholm Ticarət Palatasının Arbitraj İnstitutu tam olaraq arbitraj prosesini əhatə etməsə də mediasiya, sürətli arbitraj, sığorta arbitrajı fəaliyyət istiqamətləri ilə sahibkarlara xidmət edir. Türkiyə Respublikasında isə mübahisələr məhkəmədən çox mediatorlar və arbitrlər vasitəsi ilə həll edilir. Bu qısa örnəklər iqtisadi inkişaf yolunda mübahisələrin məhkəmədən kənar həlli vasitələrinin, o cümlədən arbitraj institutunun tətbiq olunmasının zəruriliyini bir daha gözlərimizin önünə sərir. Hesab edirik ki, bu gün Azərbaycan Respublikasının biznes dünyasında da effektiv arbirtaj və mediasiya sisteminə tələb var.

*Araz Bağırov*

# "İcbari tibbi sığorta sistemində sahibkarların rolu: sığortalan və sığortala" mövzusunda tədbir keçirilib



2 may 2019-cu il tarixində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (Agentlik) təşəbbüsü və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) təşkilatçılığı ilə "İcbari tibbi sığorta sistemində sahibkarların (işəgötürənlərin) rolu: sığortalan və sığortala" mövzusunda tədbir keçirilmişdir. Görüşün keçirilməsində məqsəd sahibkarları icbari tibbi sığorta sistemi, sistem çərçivəsində tibb müəssisələrinin yeni maliyyələşdirilməsi qaydaları və icbari tibbi sığorta üzrə sığortalıların, sığortaolunanların hüquq və vəzifələri barədə məlumatlandırmaq olmuşdur.

ASK-nın baş katib əvəzi Kristina Məmmədova çıxışı zamanı icbari tibbi sığortanın əhəmiyyətindən və ölkə üzrə tətbiqindən danışıb. O bildirib ki, 2020-ci ildə Azərbaycanda icbari tibbi sığorta tətbiq ediləcək və bu mövzu sahibkarların diqqət mərkəzindədir: "Tibbi sığorta haqqında" Qanunla bağlı sahibkarları məlumatlandırmaq müsbət haldır", deyən K.Məmmədova mövzunun aktuallığını nəzərə alaraq ASK-nın bu görüşləri davam etdirəcəyini qeyd edib.

Agentliyin Tibbi İddialar departamentinin rəhbəri Vüqar Qurbanov icbari tibbi sığortanın mahiyyəti və məqsədləri, sistemin tətbiqinin səhiyyənin inkişafına töhfəsi, xidmətlər zərfi və tibbi xidmətlərin keyfiyyət standartları barədə iştirakçılara məlumat verib. Onun sözlərinə görə, icbari tibbi sığortanın tətbiqinə hazırlıq məqsədilə tibb müəssisələrində qeydiyyat sisteminin təkmilləşdirilməsinə, informasiya texnologiyalarının tətbiqinə və ilkin səhiyyə xidmətinin yenidənqurulmasına ehtiyac var.

İcbari tibbi sığorta çərçivəsində tibb müəssisələrinin yeni maliyyələşdirilməsi qaydalarından danışan Agentliyin Strateji təhlil departamentinin Statistika şöbəsinin müdiri Tural Qulu icbari tibbi sığorta modelləri, universal tibbi təminat, icbari tibbi sığortahaqqı, ölkəmizdə və digər ölkələrdə mövcud səhiyyə sistemləri barədə çıxış edib. Bununla yanaşı o bildirib ki, icbari tibbi sığortahaqqı muzdlu işçilər üçün əməkhaqlarından faiz tutulmaqla, digər vətəndaşlar üçün isə illik 120 manat müəyyənləşdirilib. T.Qulu icbari tibbi sığortahaqqını ödəməkdən azad olunan əhali qrupları barədə də danışıb.

Agentliyin Hüquq departamentinin Hüquqi aktların və müqavilələrin ekspertizası şöbəsinin koordinatoru Tural Musayev icbari tibbi sığorta müqaviləsinin sahibkarlarla bağlanılması qaydaları, icbari tibbi sığorta üzrə sığortalıların, sığortaolunanların hüquq və vəzifələri barədə iştirakçılara məlumat verib.

Sonda iştirakçıları maraqlandıran suallar Agentliyin əməkdaşları tərəfindən cavablandırılıb.

# “PEŞƏ TƏHSİLİNƏ DƏSTƏK”

## LAYİHƏSİNİN İKİNCİ MƏRHƏLƏSİ BAŞLADI



**Peşə təhsili rəqabət qabiliyyətli iqisadiyyatın və inkişaf etmiş cəmiyyətin təşəkkül tapmasında böyük əhəmiyyətə malikdir. Dəyişən əmək bazarının tələblərinə çevik uyğunlaşan müvafiq peşə təhsili proqramları ilə işəgötürənlərin tələblərinin vaxtında qarşılanması və kadrların yenidən hazırlanması müasir peşə təhsili infrastrukturunun formalaşmasına zərurət yaradır.**

Əmək bazarının tələblərinə uyğun kadr hazırlayan peşə təhsili sistemi inkişaf etməkdə olan ölkələrdə daha böyük əhəmiyyət kəsb edir. Azərbaycanda da bu sahəyə xüsusi diqqət yetirilir. Müsahiblərimiz Cənubi Qafqazda “Peşə təhsilinə dəstək” layihəsinin meneceri **xanım Ute Fok**, layihənin eksperti **Sədaqət Qəmbərova**, layihənin Azərbaycandakı koordinatoru **Nigar Cəfərova** və Azərbaycan Sahibkarlar Konfederasiyasının baş katib əvəzi **Kristina Məmmədova**dır.

*– Nigar xanım, Cənubi Qafqazda “Peşə təhsilinə dəstək” layihəsi haqqında ümumi məlumat verərdiniz.*

– Cəmiyyətimizin mühüm məqsədlərindən biri ölkədə müasir bilik və bacarıqlara yiyələnmiş fəhlə kadrlarının yetişdirilməsidir. Bu işdə Azərbaycanda icra olunan beynəlxalq layihələr bizə həm öz ölkələrinin təcrübəsini, təhsil proqramı və konsepsiyaları, həm də maliyyə cəhətdən böyük dəstək göstərirlər. Cənubi Qafqazda “Peşə təhsilinə dəstək” layihəsi Almaniya İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyi tərəfindən Almaniya İqtisadi İnkişaf Fondu SEQUA GmbH və “Bildungswerk der Wirtschaft Mecklenburg-Vorpommern e.V.” Tədris mərkəzi, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası birgə səyi ilə icra olunur. Layihənin əsas məqsədi, Azərbaycanda gənclərin məşğulluq perspektivlərinin artırılması, əmək bazarının ehtiyaclarına uyğun olaraq peşə kadrlarının hazırlanması, özəl sektor və peşə təhsili müəssisələri arasında əməkdaşlıq əlaqərinin gücləndirilməsidir.



Layihənin birinci mərhələsi 2015-2018-ci illərdə həyata keçirilib və qeyd etmək istəyirəm ki, bəzi çətinliklərə baxmayaraq, uğurlu olub. Ona görə uğurla reallaşıb ki, ASK-nın prezidenti cənab Məmməd Musayevin rəhbərliyi və bö-

yük dəstəyi, vitse-prezident Vüqar Zeynalov, baş katib əvəzi Kristina xanım Məmmədova başda olmaqla konfederasiyanın bütün komandası, eyni zamanda alman və yerli ekspertləri, və sahibkarlar layihəmizdə həvəslə iştirak ediblər. Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin rəhbər işçilərinin dəstəyi də fəaliyyətimizdə nailiyyət qazanmağımıza kömək edib.

2019-cu ilin yanvar ayında Cənubi Qafqazda "Peşə təhsilinə dəstək" layihəsinin ikinci mərhələsi başlanıb.

*– Bildiyimiz kimi, respublikada peşə təhsilinin inkişafı istiqamətində bir çox işlər aparılmaqdadır. Bunların bariz nümunəsi cənab prezident İlham Əliyevin milli İqtisadiyyatın əsas sektorları üzrə "Strateji Yol Xəritələri" çərçivəsində "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"nin icrası ilə bağlı verdiyi 2016-cı il 16 mart tarixli, 1897 nömrəli sərəncamdır. Nigar xanım, Cənubi Qafqazda "Peşə təhsilinə dəstək" layihəsi sözügedən "Strateji Yol Xəritəsi"nə uyğun olaraq hansı istiqamətlərdə aparılır?*

– Layihə ümumi olaraq dörd istiqamətdən ibarətdir. 1-ci mərhələ Bakı şəhəri və Xaçmaz rayonu ərazilərində həyata keçirilmişdir. İlk olaraq Azərbaycanda əmək bazarının təhlili məqsədi ilə, Almaniya təcrübəsini əsas tutaraq, layihə çərçivəsində onlayn Monitorinq sistemini yaratdıq. Bakı şəhəri, Xaçmaz rayonu üzrə 40-a yaxın, son 2 ayda isə Gəncə şəhərində daha 26 müəssisədə sorğu keçirildi. Nəticə olaraq, sözügedən sistemin peşə təhsilinin daha dəqiq məzmunda istiqamətlənməsinə və əmək bazarında lazımi mütəxəssislərin müvafiq iş yerləri ilə təmin olunmasında böyük rol oynayacağına inanıram.

"İş yeri təlim ocağı kimi" ikinci layihə istiqaməti çərçivəsində görülən işlər sahibkarlarla peşə təhsili müəssisələri arasında olan əlaqələrin daha da möhkəmlənməsinə yönəlmiş idi. Bakı şəhəri və Xaçmaz rayonunun bir sıra peşə liseyləri və peşə məktəblərinin şagirdləri üçün müxtəlif müəssisələrdə ekskursiya xarakterli "açıq qapı" günləri keçirdik. Ümumi olaraq, bu tədbirlərdə 262 şagird və 30 müəllim iştirak etdi. Şagirdlər Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR), Azərsun Holdinqin Yağ

> Onlayn peşə yönümü platforma yaratmaq istəyirik. Bu platforma gənclər üçün onlayn qaydada peşəyönümü ilə bağlı onlayn testləşdirilməni nəzərdə tutur. Bundan əlavə, həftədə 1-2 dəfə peşə yönümü mütəxəssis-psixoloqu onlayn konsultasiya keçirib, suallara cavab verəcək.

və Duz zavodları, "Barkers" Multibrend ticarət mərkəzi, Xaçmaz rayonunun "Yalama Aqropark" MMC və "Azərxalça" ASC filialı, "Vahid çörək" müəssisələri ilə tanış ola bildilər.

"Məktəb təlim ocağı kimi" üçüncü layihə istiqaməti çərçivəsində gənclərdə sahibkarlıq təfəkkürünü formalaşdırmaq üçün Bakı şəhərində və Xaçmaz rayonunda 81 şagird, 14 müəllim arasında "Öz biznesinə başla", "Mən gələcəyin sahibkarıyam" mövzusunda təlimlər keçirtdik. Bu təlimlərin keçirilməsi üçün layihənin işçi qrupu tərəfindən iki biznes bələdçisi hazırlanıb və nəşr olundu. Xaçmaz rayonu üzrə peşə müəssisələrinin şagirdləri arasında "Mən gələcəyin sahibkarıyam" müsabiqəsini keçirdik. Daha sonra təqdim olunan rəsmləri kitabçaların dizaynında istifadə etdik. Düşünürəm ki, şagirdlərin öz əl işlərinin kitabçalarda istifadə olunması onlar üçün bir motivasiya oldu. Müsabiqədə 4 qalib gələn şagird mükafatlandırıldı. Birinci yer – 150 AZN, ikinci yer – 100 AZN, üçüncü yer isə iki nəfər arasında bölündü və 50 AZN məbləğində mükafata layiq görüldü. Uşaqlar müsabiqəyə böyük sevinc və həvəslə qatıldılar.

Daha sonra layihə mütəxəssisi tərəfindən 302 saylı tam orta məktəb və SOS Uşaq kənlərinin 8-9-10 sinif şagirdləri arasında peşəyönümlü diaqnostikasını həyata keçirtdik. Analiz 6 testdən ibarət idi. Bunlar, "Özünüqiymətləndirmə", "Raven", "Lyuşer", "Barteq", "Holland" və "Mövcud olmayan heyvan təsviri" testləri idi. Belə ki, testlərin nəticələri tərəfimizdən təhlil olunduqdan sonra şagird və valideynlərə fərdi konsultasiya şəklində təqdim olundu. SOS Uşaq kəndləri şagirdlərinin diaqnostika nəticələri məktəbin psixoloquna erildi. Məktəb rəhbərliyi, müəlimlər və valideynlər diaqnostikanın nəticələrindən razı qaldılar.

Dördüncü layihə istiqamətində isə layihənin PR strategiyası, informasiya kompaniyası üzrə həyata keçirdiyimiz fəaliyyət öz əksini tapır. Bu istiqamət çərçivəsində 16 oktyabr 2018-ci il tarixdə layihənin birinci mərhələsinin başa çatması münasibəti ilə Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) təşkilatçılığı ilə "Sahibkar – peşə təhsili əməkdaşlığı" adlı Milli Konfrans keçirildi. Sözügedən konfransda 100-dən çox sahibkar-işəgötürən, Bakı və Xaçmaz regionunun peşə təhsili müəssisələrinin rəhbərləri, assosiasiyalar, xarici səfirliklər və layihənin alman ekspertləri iştirak ediblər.

*– Nigar xanım, Cənubi Qafqazda "Peşə təhsilinə dəstək" layihəsinin ikinci mərhələsində fəaliyyət istiqamətləri necə olacaq, gözləntilər nələrdir?*

– Yeni mərhələdə layihəyə iki yeni region qoşulub – Gəncə və Lənkəran. Bakıda və Xaçmazda keçirilən tədbir və təlimlər bu rayonlara da multiplikasiya olunacaq. Bundan əlavə, çox maraqlı modulları həyata keçirməyi planlaşdırırıq. Məsələn, onlayn peşə yönümü platforma yaratmaq istəyirik. Bu platforma gənclər üçün onlayn qaydada peşəyönümü ilə bağlı onlayn testləşdirilməni nəzərdə tutur. Bundan əlavə, həftədə 1-2 dəfə peşə yönümü mütəxəssis-psixoloqu onlayn konsultasiya keçirib, suallara cavab verəcək. Platformada həmçinin müxtəlif peşələr haqqında məlumat xarakterli tematik videolar və peşə sahəsində uğur əldə etmiş insanların tarixçələri yerləşdiriləcək.

Videolarda hər bir peşə və ixtisasın özünəməxsus fəaliyyət növləri, əməyin məzmunu və xarakteri nəzərə alınaraq, mühəndis-texnoloq, kimyəvi-bakterioloji analiz laborantı, avtomobil üzrə elektrik, saatsaz, fotoqraf və s. peşələrin xüsusiyyətləri təhlil ediləcəkdir. Belə müqayisəli təhlillər, həmin peşə və ixtisaslar haqqında verilən məlumatlar gənclərin peşələr barədə təsəvvürlərini daha da zənginləşdiriləcək, yeniyetmə-gənclərdə peşə və ixtisasa obyektiv, düzgün münasibət formalaşdırmağa kömək edəcək, peşə biliklərinin inkişafına səbəb olacaqdır. Peşə və ixtisaslar barədə məlumatlar müasir dövrdə əmək bazarı və onun tələblərinin nəzərə alınmasının vacibliyini də göstərəcək.

Layihənin 2-ci mərhələsində müasir dövrün yeni peşələrinə nəzər yetiriləcək. Bu məqsədlə "Gələcəyin peşəsi" atlasının hazırlanması planlaşdırılıb. Kompüter texnologiyalarının hazırda qismən əvəzlədiyi bəzi ixtisaslara çox yaxın gələcəkdə ehtiyac qalmayacaq, onların yerini yeni peşələr tutacaq. Ona görə gələcək fəaliyyətini hələ də təyin etməyənlər üçün belə bir atlası təqdim etmək istəyirik. Planlarımız genişdir və inanıram ki, səy göstərərək onları birgə uğurla həyata keçirəcəyik.



*– Xanım Fok, Cənubi Qafqazda "Peşə təhsilinə dəstək" layihəsinin Azərbaycan üzrə icrasını necə qiymətləndirirsiniz?*

– Hesab edirəm ki, "Peşə təhsilinə dəstək" layihəsi Azərbaycanda yüksək səviyyədə icra olunur. Layihə ümumilikdə 3 il müddətinə nəzərdə tutulsa da, bəzi qeydiyyat məsələləri ilə bağlı layihənin icrası 1 il 8 ay müddətində icra olunmağa başladı. Belə ki, biz bir qədər gec başlasaq da bütün hədəflərə çata bildik. Və məncə, bu çox yaxşı bir göstəricidir.

*- Sizcə, bu layihənin Azərbaycanda gənclərin məşğulluğu baxımından hansı faydaları var?*

– Ən böyük fayda odur ki, gənclər peşələr və peşə yönümü ilə daha yaxından tanış olacaqlar. Düşünürəm ki, Azərbaycanda problemlərdən biri gənclərin işsizliyinin yüksək səviyyəsidir. Peşə təhsili Azərbaycanda populyar deyil ona görə ki, peşənin öyrənilməsinə o qədər də maraq yoxdur. Bu da peşə təhsili ilə bağlı məlumatsızlıqdan irəli gəlir. Eyni zamanda hər hansı peşəyə yiyələnməyiniz də hələ yaxşı gəlir əldə edəcəyinizdən xəbər vermir.

*– Cənubi Qafqazda "Peşə təhsilinə dəstək" layihəsi çərçivəsində ölkələrarası təcrübə mübadiləsi mümkündürmü?*

– Əlbəttə ki, mümkündür və biz belə bir təcrübə mübadiləsini artıq həyata keçirmişik. Ötən il azərbaycanlı və gürcü mütəxəssisləri ilə birgə təcrübə mübadiləsi apardıq. Onlar şagirdlərlə profa-rientasiya testləri barədə məlumatları paylaşdılar. İşçi qrupundakı peşəkarlıq testlərini birlikdə inkişaf etdirdilər. Azərbaycanda Xaçmaz, Gürcüstanda isə Xoni rayonunda kənd təsərrüfatının bir qolu olan ipəkçilik biznes ideyası üzrə təcrübə mübadiləsi aparıldı. Bu ideya sırf kənd yerlərində sahibkarlıq düşüncəsinin inkişaf etdirilməsi üçün atılan addım idi.

> Peşə təhsili Azərbaycanda ona görə populyar deyil ki, peşənin öyrənilməsinə o qədər də maraq yoxdur. Bu da peşə təhsili ilə bağlı məlumatsızlıqdan irəli gəlir.

Belə ki, şagirdlər ipək qurdlarının qorunması və yetişdirilməsi işlərinə cəlb edildilər. Layihənin əsas məqsədi üç iştirakçı ölkə arasında təcrübə mübadiləsi idi. Və hər bir ölkə özünün ən uğurlu təcrübəsini digər ölkələrlə bölüşməli idi.

*– Bildiyimizə görə layihənin 2-ci mərhələsində Almaniyanın "Dual təcrübə"si ilk dəfə Azərbaycanda keçiriləcək. Bilmək istərdik, sözügedən təcrübə 3 il ərzində davam edəcəkmi?*

– Almaniyada ümumiyyətlə peşə təhsili 2 və ya 3 il davam edir. Bir qədər aşağı səviyyə tələb edən peşə təhsili iki il davam etsə də, təhsil dövrü əsasən 3, bəzilərində isə 3,5 il çəkir, bu da bir illik iş stajından bir qədər çoxdur. Siz öz

ölkənizdə qanunvericiliyə uyğun olaraq 1 il müddətində peşə təhsili verə bilərsiniz. Düşünürəm ki, bu düzgün istiqamətdə atılan çox gözəl addımdır. Azərbaycan qanunvericiliyindən asılı olaraq layihəmizə gəlincə, ümid edirəm ki, gələcəkdə bu istiqamətdə işləyəcəyik.

*– Xanım Fok, Cənubi Qafqazda "Peşə təhsilinə dəstək" layihəsinidən ən böyük gözləntiləriniz nələrdir?*

– Azərbaycan üzrə bu layihədən ən böyük gözləntim gənclərin iqtisadi cəhətdən müstəqil olmaları üçün peşə təhsilinə cəlb olunmasıdır. Peşə təhsili Almaniya iqtisadi sisteminin əsas elementlərindən biridir ki, bu da bizim iqtisadiyyatımızın belə uğurlu olmasını təmin edir. Müəssisələr yaxşı mütəxəssislər tapıb onları işə götürə bilərlər və mütəxəssislər də öz növbəsində işlərinin müqabilində yüksək əmək haqqı tələb edə bilərlər. Siz 3 il müddətində hər hansı peşəyə yiyələnmisinizsə, əmin ola bilərsiniz ki, aidiyyəti sahə üzrə hər zaman iş tapa biləcəksiniz. Bu həm də o deməkdir ki, təqaüdə çıxana qədər öz həyatınızı təmin edəcəksiniz. Ona görə də mən çox ümid edirəm ki, bu layihə gənclərdə peşə təhsilinə maraq oyadacaq və peşəyönümlü ixtisasları daha yaxşı tanıdacaq.



*– Kristina xanım, hal-hazırda çox sürətli inkişaf dövründə yaşayırıq. Bu inkişaf iqtisadiyyatımızın müxtəlif sahələrində öz əksini tapır. Lakin bir qədər geridə qalan sahələr hələ də mövcuddur ki, bunlardan biri də peşətəhsili sahəsidir. Cənubi Qafqazda "Peşə təhsilinə dəstək" layihəsi çərçivəsində gələcəyin peşələri barədə nə deyə bilərsiniz?*

– Bəli, tamamilə razıyam, hazırda sürətli inkişaf dövründə yaşayırıq. Peşə təhsili istiqamətində də sıra işlər görülməkdədir. İlk növbədə, uşaqlarda kiçik yaşlarından "Yumşaq bacarıqlar", "Öyrənməyi öyrən", "Özünü qiymətləndirmə", "Ömürboyu öyrənmək" kimi bacarıqları aşılamaq və inkişaf etdirmək lazımdır. Gələcəyin peşələrinə gəldikdə isə əvvəllər dəyişikliklər 10-20 il üçün proqnoz edilirdisə, bu gün 3 ilə, 5 ilə artıq işin məzmunu tam olaraq dəyişə bilər. Məsələn, onu deyək ki, 6 il əvvəl SMM deyilən bir peşə yox idi, heç kimi də maraqlandırmırdı. Xaricdə, Qərbdə olsa da, bizdə bu sahə mövcud deyildi. Bu gün isə SMM ayrıca bir ixtisasdır. Artıq, şirkətlər PR menecerlərlə bərabər mütləq SMM menecerə ehtiyac duyurlar. Turizm sahəsinin inkişafından danışsaq, yəqin ki, 10-20 il əvvəl turizm sahəsində işləyənlər, muzey işçiləri olublar. Bu gün isə turizm sahəsi tamam fərqli istiqamətdə, tələbata uyğun olaraq dəyişərək inkişaf edir. 90-cı illərlə hal-hazırki dövrü sırf turizm sahəsi üzrə müqayisə etsək nə qədər böyük fərq və inkişafın olduğunu görə bilərik.

Ümumiyyətlə, gənclərin peşə təhsilinə yönləndirilməsi sırf uşaq yaşlarından doğru-düzgün maarifləndirilərək aparılmalıdır. Bizim Cənubi Qafqazda "Peşə təhsilinə dəstək" layihəsi çərçivəsində gördüyümüz işlər sırasında da gənclərin gələcəkdə məşğulluğunu təmin etmək məqsədi ilə əmək bazarının tələbatına uyğun, lazımlı, ixtisaslı kadrların uşaq yaşlarından maarifləndirilərək yetişdirilməsi məsələsi öndə durur. Cari ilin 23 yanvar tarixində Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) təşkilatçılığı və Beynəlxalq Əmək Təşkilatının (BƏT) dəstəyi ilə "Gənclərin Məşğulluğu" mövzusunda keçirdiyimiz konfransda lisey şagirdlərinin çıxışı bir yenilik olaraq, çox maraqla qarşılandı. Tədbirə uşaqları cəlb etdik. Sual oluna bilər ki, nəyə görə biz bunu etmişik? Çünki, əslində, gənclərin məşğulluğu və əmək bazarının gələcək peşələri mövzularını biz bu gün peşəkar səviyyədə müzakirə edirik, amma, bunun nəticəsini bizim uşaqlarımız, gələcək nəsillər görəcək. Və, biz qabaqcadan gələcək nəsillərə hansı peşələrin lazım olacağını deyə bilmərik. Bu gün biz adi 30 yaşlı biri ilə 40 yaşlı birini heç müqayisə edə bilmirik, tamam fərqli tipajlardır. Məsələn, bizim "Gənclərin Məşğulluğu" adlı konfransımızda məktəb şagirdləri "Mən kosmos turizmi üzrə menecer olacağam", "Mən media polis olacağam", kimi mesajlar səsləndirdilər. Kosmos turizmi üzrə menecer ixtisası, bəlkə də artıq 5 ildən sonra, 10 ildən sonra olacaq, ya da media polis. Media polis - məlumatların yerləşdirilməsi və s. izləyir, çox maraqlı mövzudur. İndi bəlkə də qeyri-real görünür, amma, SMM yaranıbsa, Media polis də bir ixtisas kimi mövcud ola bilər.

*– Peşələrin ATLAS-ı və onun üstünlükləri barədə nə deyə bilərsiniz?*

– Atlasın ən böyük üstünlüyü nədir? Ümumiyyətlə, peşələrin sayı, nəzəriyyəsi və s. çox maraqlı sahədir. Amma, bu daha çox nəzəriyyəçilərə aiddir. Praktiki baxımdan ən vacibi və bizim çətinlik çəkdiyimiz sahə proforientasiya – peşəyönümü üzrə testlərdir ki, uşaqlar kiçik yaşlarından həmin testlərdən keçir. Orada fərqli sahələrdən müəyyən suallar verilir, qeyd edim ki, çox sadə suallardır. Məsələn, nə ilə məşğul olmağı sevirsən, müxtəlif şəkilləri seçirlər ki, onun əsasında uşağın daha çox inkişaf edə biləcəyi istiqamətləri təyin edilir. Yəni, humanitar, texniki, araşdırma, elmi iş və ya icra, idarəetmə - bu istiqamətlər müx-

təlif sahələr üzrə araşdırılır. Məsələn tibb sahəsi üzrə həkimlik peşəsi, daha çox insanlarla ünsiyyəti, təbiəti sevən uşaqlara xas ola bilər. Bu nəyə görə lazımdır, ona görə ki, artıq orta və yuxarı siniflərdə şagirdlərin hansı istiqamətdə daha çox inkişaf edə biləcəkləri məlum olsun. Və, bu şüuraltı qərarlar artıq gələcəkdə uşağın xoşbəxtliyini təmin edəcək.



*– Sədaqət xanım, Cənubi Qafqazda "Peşə Təhsilinə Dəstək" layihəsi çərçivəsində keçirilmiş təlimlər və onların nəticələri barədə nə deyə bilərsiniz?*

– Cənubi Qafqazda "Peşə Təhsilinə Dəstək" layihəsinin əsas məqsədi peşə təhsilinin və sosial tərəfdaşlığın inkişaf etdirilməsi vasitəsilə gənclərin məşğulluq imkanlarının genişləndirilməsidir. Bu baxımdan gənclərdə sahibkarlıq düşüncəsinin inkişaf etdirilməsi əsas istiqamət kimi müəyyənləşdirilib.

Layihənin 2016-2018-ci illəri əhatə edən ilk mərhələsində iki ərazi - Bakı şəhəri və Xaçmaz rayonu seçilmişdi. Məlum olduğu kimi, Bakı şəhərindən fərqli olaraq, regionlarda, o cümlədən Xaçmaz rayonunda iş yerləri və müəssisələrin sayı məhduddur, buna görə də rayon gəncləri arasında sahibkarlıq düşüncəsinin inkişafı daha böyük əhəmiyyət kəsb edir. Bunu nəzərə alaraq, peşə məktəbi şagirdləri üçün "startap", yəni "öz biznesinə başla" mövzusunda təlimlər keçirildi.

Bu məqsədlə biz Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasında dörd ekspertdən ibarət işçi qrupu yaratdıq, yerli və bir sıra xarici ölkələrin, o cümlədən, alman tərəfdaşlarımızın sahibkarlığa dair məlumat kitabçalarını, biznes bələdçilərini araşdırdıq. Nəticədə peşə məktəblərinin şagirdləri üçün sahibkarlıq mövzusu üzrə bir bələdçi hazırlamağa qərar verdik.

Cənubi Qafqazda "Peşə Təhsilinə Dəstək" layihəsi çərçivəsində keçirilən təlimlər zamanı yeni bir ideya – turizmin qeyri-ənənəvi növü olan "Kənd turizmi" ideyası ortaya qoyuldu. Qeyd etdiyim

> Rayon gəncləri arasında sahibkarlıq düşüncəsinin inkişafı daha böyük əhəmiyyət kəsb edir. Buna görə, peşə məktəbi şagirdləri üçün "startap", yəni "öz biznesinə başla" mövzusunda təlimlər keçirildi.

ideyanı irəli sürməzdən əvvəl və ümumiyyətlə, layihəyə başlamazdan öncə, Xaçmaz rayonunun iqtisadi potensialını araşdırıb bu regionun daha çox kənd təsərrüfatı, emal sənayesi və turizm sahəsi üzrə inkişaf etməkdə olduğunu müəyyənləşdirdik. Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) Xaçmaz nümayəndəsi, layihənin yerli eksperti Famil Baxışovla birgə Xaçmazda kənd turizminin GZİT (SWOT analiz) təhlilini apardıq. Təhlil nəticəsində məlum oldu ki, bu sahədə fəaliyyət göstərən sahibkarların ən böyük ehtiyacları informasiya və xidmət sahələrinə olan tələbatlardır. Sözügedən ehtiyacların qarşılanması sayəsində həm sahibkarlar daha çox gəlir əldə edə bilərdilər, həm də kənd turizmi digər inkişaf etmiş ölkələrdə olduğu kimi daha yüksək səviyyədə inkişaf edə bilərdi. Bunları nəzərə alaraq, şagirdlər tərəfindən kənd turizmi üzrə İnformasiya və Xidmət Mərkəzinin yaradılması ideyasını startap təlimlərinə daxil etdik və layihə çərçivəsində belə bir mərkəzin yaradılması üçün ayrıca konsultasiyalar təşkil etdik ki, burada ideyanın reallaşdırılması üçün lazım olan resurslar, maliyyə vəsaiti və s. şagirdlər tərəfindən hesablanaraq müəyyən olundu. Gələcəkdə sözügedən ideyanın layihə çərçivəsində həyata keçirilməsini planlaşdırırıq.

*– Təlimlər çərçivəsində gələcəkdə biznes layihəyə çevriləcək yeni ideyalar yarandımı?*

– Təlimlərin başlanğıc mərhələsində daha çox, daha müxtəlif ideyalar var idi. Uşaqların bəzisi klinika, restoran, digəri böyük turizm obyekti və s. açmaq kimi ideyalar irəli sürürdülər. Əlbəttə, bunlar çox gözəl arzular idi. Amma, bizim məqsədimiz şagirdləri konkret, yəni, mövcud resurslardan istifadə edərək və imkanları nəzərə alaraq daha əlçatan ideyalara yönəltmək idi. Buna görə də təlim boyu şagirdlərin iştirakı ilə ilkin ideyaların GZİT (swot analiz) təhlili aparıldı, həmin ideyaların reallaşdırılması üçün güclü və zəif tərəflər, imkanlar və s. nəzərdən keçirildi. Sonra isə şagirdlər daha konkret ideyalar irəli sürməyə başladılar. Məsələn, dərzi qrupunda təhsil alan qızlar dərzi sexi açmağı planlaşdırırdılar. Biz onlara dərzi sexinin açılması üçün lazım olan məlumatları verdik. Bu biznesin qurulmasının hüquqi aspektləri, tələb olunan maliyyə və insan resurslar və digər məsələlər geniş müzakirə olundu. müvafiq peşə üzrə təhsil alan oğlanlar avtomobil təmiri sexi, qızlar gözəllik salonu açmaq kimi müxtəlif ideyalar irəli sürdülər.

*Nurlana Həsənova*